## Günün sözü

### Prezident İlham Əliyev:

2004-cü ildən başlayaraq Azərbaycanda regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları həyata keçirilir. Hazırda 4-cü proqram icra edilir. Bu proqramların icrası nəticəsində bölgələrdə çox böyük genişmiqyaslı quruculuq işləri aparılmışdır. Bu işlər davam etdirilir. Azərbaycan bölgələrinin ümumi inkişafı həm sosial xarakter daşıyır, eyni zamanda, ölkəmizi gücləndirir.



Səhifə ⇨ 4

### Bu gün Azərbaycan Bayrağı Zəngəzur dağlarında dalğalanır

### Sərbəst güləşçilərimiz yenidən Avropa çempionu oldu!



Səhifə ⇨ 14


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 82 (30198) 20 aprel 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

veb-sayt: www.xalqqazeti.az


## Azərbaycan–İsrail əlaqələri dostluq, etimad, hörmət və dəstəyə əsaslanır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da İsrail Dövlətinin Xarici İşlər naziri, Birgə Komissiyanın həmsədri Eli Koheni qəbul edib.**

Azərbaycan–İsrail münasibətlərini yüksək qiymətləndirən dövlətimizin başçısı ölkələrimiz arasında yaxşı siyasi əlaqələrin mövcud olduğunu bildirdi. Prezident İlham Əliyev Azərbaycanın İsraildə səfirliyinin açılmasını əlaqələrimizin yüksək səviyyədə olmasının göstəricisi kimi qiymətləndirdi və bu əlaqələrin dostluq, qarşılıqlı etimad, hörmət və dəstəyə əsaslandığını vurğuladı. Dövlətimizin başçısı əməkdaşlığımızın gündəliyinin genişləndiyini deyərək, Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın fəaliyyətini xüsusi qeyd etdi, bunun əlaqələrin şaxələnməsi işinə töhfə verə biləcəyinə ümidvarlığını bildirdi.

Hazırda Azərbaycanda iqtisadiyyatın modernləşdirilməsi prosesinin uğurla həyata keçirildiyini bildirən Prezident İlham Əliyev bu baxımdan, texnologiyalar sahəsində, o cümlədən, yaşıl enerji, ağıllı şəhər və ağıllı kənd konsepsiyaları ilə bağlı təcrübə mübadiləsinin önəmini qeyd etdi.

Dövlətimizin başçısı Ələt Azad İqtisadi Zonasında yaradılmış şərait barədə məlumat verdi, İsrail şirkətlərinin burada da fəaliyyət göstərmələri və yeni layihələrlə çıxış etmələri üçün yaxşı imkanların olduğunu dedi. Həmçinin SOCAR-ın İsraildə karbohidrogen resurslarının istismarında iştirakı imkanlarına baxılmasının da önəmi vurğulandı.

Azərbaycanın İsraildə səfirliyinin açılmasını yüksək qiymətləndirən və bunun ölkələrimiz arasında strateji əlaqələr qurulması işinə töhfə verəcəyinə ümidvarlığını bildirən İsrailin xarici işlər naziri səfirliyin açılmasına görə təşəkkürünü ifadə etdi, İsrail ilə Azərbaycan arasındakı əlaqələrin strateji xarakter daşıdığını vurğuladı. Qonaq dostluq münasibətlərimizin təkcə dövlətlər arasında deyil, xalqlarımız arasında da mövcud olduğunu bildirdi.

Azərbaycana geniş nümayəndə heyəti ilə səfər etdiyini vurğulayan İsrailin xarici işlər naziri turizm sahəsində əlaqələrimizə toxunaraq, ölkəsindən Azərbaycana gələn turistlərin sayının artmaqda olduğunu qeyd etdi. O, ölkələrimiz arasında ticarət dövriyyəsinin artım tempinin müşahidə olunduğunu deyərək, bunun daha da artırılması üçün geniş imkanların olduğunu bildirdi.

Görüşdə iqtisadiyyat, enerji, kənd təsərrüfatı, bərpaolunan enerji, investisiyalar, elm, təhsil, mədəniyyət, turizm, təhlükəsizlik və digər sahələrdə əməkdaşlığın inkişafı üçün geniş imkanların olduğu vurğulandı. Həmçinin su resurslarının idarə olunması və dəniz suyunun şirinləşdirilməsi, səhralaşma prosesinin qarşısının alınması, səhra və yarımsəhra şəraitində kənd təsərrüfatının inkişaf etdirilməsi sahələrində İsrailin təcrübəsinin Azərbaycan üçün maraqlı olduğu qeyd edildi.

*AZƏRTAC*

## Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik

**Hörmətli həmvətənlər!**

Sizi müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən xoş arzu və diləklərimi yetirirəm.

Bəşər övladını əxlaqi paklığa, humanizmə, birlik və bərabərliyə dəvət edən, insanların ruhunu və mənəviyyatını saflaşdıran mübarək Ramazan ayında müsəlmanlar Uca Yaradan qarşısında öz borcunu ləyaqətlə yerinə yetirmək fürsəti əldə edir, mənəvi kamilliyin və savab əməllərin sevincini yaşayırlar.

İslam sivilizasiyasının tarixi-mədəni mərkəzlərindən olan Azərbaycanda Ramazan bayramı hər il böyük təntənə ilə keçirilir, xalqımızın və dövlətimizin firavanlığı, əmin-amanlığı üçün dualar edilir, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman Vətən övladlarının xatirəsi dərin ehtiramla yad olunur.

Əziz bacı və qardaşlarım!

Cəmiyyətimizdə vəhdəti və həmrəyliyi daha da gücləndirən, xeyirxahlığın, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevrilən on bir ayın sultanı Ramazan ayı başa çatır. Bu mübarək bayram münasibətilə bir daha hər birinizə və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Allah orucunuzu, dua və niyyətlərinizi qəbul etsin.

Ramazan bayramınız mübarək olsun!

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 19 aprel 2023-cü il**

## Ağır atletika üzrə Avropa çempionu Nuray Güngörə

**Əziz Nuray!**

Ağır atletika üzrə Avropa çempionu adını qazanmağınız münasibətilə Sizi ürəkdən təbrik edirik.

İrəvanda keçirilən ağır atletika üzrə Avropa çempionatında böyük qələbə əzmi ilə ölkənizi ləyaqətlə təmsil edərək möhtəşəm uğura imza atmağınız, Türkiyənin şanlı bayrağını yüksəklərə qaldırmağınız, Dövlət Himnini səsləndirməyiniz bizi çox sevindirdi və qürurlandırdı. Avropa birinciliyinin gərgin mübarizəsindən qalib çıxaraq medallarınızı Azərbaycana həsr etdiyiniz üçün də Sizə xüsusi təşəkkür edirik.

Sevincimizi və kədərimizi birgə paylaşdığımız qardaş Türkiyənin biz olmayan yerdə bizi təmsil etməsi bir millət, iki dövlət olmağımızı bir daha bütün dünyaya bariz şəkildə nümayiş etdirdi.

Biz Sizinlə fəxr edir, bundan sonra da yeni-yeni qələbələr diləyirik.

**Hörmətlə,**

**İlham ƏLİYEV və**
**Mehriban ƏLİYEVA**

**Bakı şəhəri, 19 aprel 2023-cü il**

### Sən mayın 14-də Türk dünyasının sabahına səs verəcəksən, arkadaş. Bunu unutma!

Səhifə ⇨ 13

## Qarabağın haqqı və Prezidentdən Ermənistana xəbərdarlıq

Səhifə ⇨ 3

### Milli kinomuzun şöhrət salnaməsi

Səhifə ⇨ 11



### *Tofiq Bayram:* Məni təxribata çəkmə, partkom…



Səhifə ⇨ 14

### Daşnak deputat Vaşinqtonda İrəvanı ittiham etdi

Səhifə ⇨ 6

### Ter-Petrosyan–Simonyan qarşıdurması böyüyür



Səhifə ⇨ 6

### Humanitar yüklərə manеə yoxdur



Səhifə ⇨ 6

### Üzlü qonağa qapını göstərməyin vaxtı çatıb

Səhifə ⇨ 4



### Azərbaycanın Rus İcması bəyanatla çıxış edib

Səhifə ⇨ 7

### Ermənistanda törədilən vəhşilik milli natamamlıq göstəricisidir

Səhifə ⇨ 6

### Laçında yollar təzələnir, hava limanı yaradılır



Səhifə ⇨ 9

## Regionların sürətli inkişafı dövlətimizin gücünü göstərir

Səhifə ⇨ 12

# ABŞ Ermənistanla Azərbaycan arasında tezliklə sülh müqaviləsi imzalanmasını dəstəkləyir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Erika Olsonu qəbul edib.**

Görüşdə Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsi üzrə danışıqlarla bağlı fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı qeyd etdi ki, 44 günlük Vətən müharibəsinin başa çatmasından sonra Ermənistanla sülh müqaviləsinin imzalanması məhz Azərbaycanın təşəbbüsüdür və bu xüsusda sülh müqaviləsinin əsasını təşkil edəcək 5 prinsip ölkəmiz tərəfindən təklif olunub.

Erika Olson vurğuladı ki, ABŞ regional sülh gündəliyini və Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin tezliklə imzalanmasını dəstəkləyir. Bu əsnada ABŞ Dövlət katibi Antoni Blinkenin rolu xüsusi qeyd olundu.

Söhbət zamanı regional məsələlər, Azərbaycan ilə ABŞ arasında ikitərəfli siyasi əlaqələr, o cümlədən enerji, bərpaolunan enerji və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

## Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 noyabr tarixli 27 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ünvan reyestrinin aparılması və daşınmaz əmlak obyektlərinə ünvan verilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 noyabr tarixli 27 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 11, maddə 981; 2010, № 7, maddə 610, № 8, maddə 720; 2012, № 2, maddə 79; 2014, № 2, maddə 123; 2015, № 9, maddə 1002; 2016, № 6, maddə 1037; 2017, № 10, maddə 1786; 2022, № 10, maddə 1141) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ünvan reyestrinin aparılması və daşınmaz əmlak obyektlərinə ünvan verilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2-ci hissə üzrə:

1.1. 2.1-ci bənddə "bəndlərində" sözü "yarımbəndlərində" sözü ilə əvəz edilsin və həmin bənddən ", onun mülkiyyətçisi (sahibi)" sözləri çıxarılsın;

1.2. 2.4-cü bənd üzrə:

1.2.1. birinci abzasda "aşağıdakı hallarda dəyişiklik və (və ya) əlavələr edilir" sözləri "dəyişiklik edilməsinə əsas olan aşağıdakı hallar baş verdiyi və ya bu barədə müraciət edildiyi tarixdən 3 (üç) iş günü müddətində dəyişiklik edilir" sözləri ilə əvəz edilsin;

1.2.2. beşinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda altıncı və yeddinci abzaslar əlavə edilsin:

"nəqliyyat infrastrukturu obyekti yenidən qurulduqda;

"Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinə uyğun olaraq, daşınmaz əmlak obyekti məhv olduqda.".

**2.** 3-cü hissə üzrə:

2.1. 3.2-ci bənd üzrə:

2.1.1. 3.2.3-cü yarımbənd ləğv edilsin;

2.1.2. 3.2.4-cü yarımbənddə "hüquqlar dövlət qeydiyyatına" sözləri "mülkiyyət hüququ daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata" sözləri ilə əvəz edilsin;

2.2. 3.3-cü bəndə "sahibi" sözündən sonra ", tikintisi başa çatmayan daşınmaz əmlak obyektlərinə münasibətdə həmçinin sifarişçisi" sözləri əlavə edilsin;

2.3. 3.6-cı bəndin ikinci abzasında "bəndlərində" sözü "yarımbəndlərində" sözü ilə əvəz edilsin;

2.4. aşağıdakı məzmunda 3.7.1-1-ci yarımbənd əlavə edilsin:

"3.7.1-1. ərazi vahidi üzrə poçt indeksi;";

2.5. 3.8-ci bənddə "Daşınmaz əmlak obyektinin ünvanının bu Qaydaların 3.7.4-cü bəndində göstərilən rekvizitinin (ünvan nömrəsinin)" sözləri "Ünvan nömrəsinin" sözləri ilə əvəz edilsin;

2.6. 3.9-cu bəndin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Çoxmənzilli binaların, qeyri-yaşayış binalarının, onların tərkib hissələrinin və fərdi yaşayış evlərinin girişlərinə ünvan verilir.";

2.7. 3.10-cu bənddə "çoxmənzilli binaların, fərdi yaşayış evlərinin, qeyri-yaşayış sahələrinin" sözləri "daşınmaz əmlak obyektlərinin" sözləri ilə əvəz edilsin;

2.8. 3.11-ci bənd üzrə:

2.8.1. birinci cümləyə "mənzilinə," sözündən sonra "tərkibindəki qeyri-yaşayış sahələrinə və" sözləri əlavə edilsin;

2.8.2. ikinci cümləyə "mənzilinə" sözündən sonra ", tərkibindəki qeyri-yaşayış sahələrinə" sözləri əlavə edilsin;

2.8.3. dördüncü cümlədə "Hər bir mənzilin" sözləri "Çoxmənzilli binaların hər bir mənzilinin, tərkibindəki qeyri-yaşayış sahələrinin" sözləri ilə əvəz olunsun və həmin cümləyə "mənzilin" sözündən sonra ", qeyri-yaşayış sahəsinin və ya qeyri-yaşayış obyektinin tərkib hissəsinin" sözləri əlavə edilsin;

2.8.4. beşinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Çoxmənzilli binanın girişlərinə və çoxmənzilli binanın tərkib hissəsi olan mənzillərə (qeyri-yaşayış sahələrinə) ünvanların təyin edilməsi, müvafiq olaraq, tikintisinə icazə alınmış, lakin tikintisi başa çatmamış binanın sifarişçisinin və ya çoxmənzilli binanın mülkiyyətçisinin və ya onun səlahiyyətli nümayəndəsinin müraciəti əsasında Dövlət Xidməti tərəfindən, hər bir mənzilin nömrələnməsi (qapı nömrəsinin quraşdırılması) isə bina inşa edildikdən sonra binanın sifarişçisi və ya mülkiyyətçisi tərəfindən təmin edilir.";

2.9. 3.12-ci bənddə "və ya sifarişçisinin" sözləri "(tikintisi başa çatmayan daşınmaz əmlak obyektlərinə münasibətdə həmçinin sifarişçisinin) və ya onun səlahiyyətli nümayəndəsinin" sözləri ilə əvəz edilsin;

2.10. 3.14-cü bənd üzrə:

2.10.1. birinci cümləyə "rəqəmlərdən" sözündən sonra ", ədədlərdən və onlara əlavə olunmuş hərflərdən" sözləri əlavə edilsin;

2.10.2. üçüncü cümlə aşağıdakı redaksiyada verilsin:

"Girişinə ünvan nömrəsi verilmiş obyektlər arasında yeni obyektin girişinə ünvan nömrəsi rəqəmlərə və ədədlərə hərflər əlavə edilməklə verilə bilər.";

2.11. aşağıdakı məzmunda 3.14-1-ci bənd əlavə edilsin:

"3.14-1. Avtomobil və dəmir yollarının yaşayış məntəqələrinin hüdudlarından kənarda yerləşən hissələri, eləcə də yaşayış məntəqələrinin ərazisindən keçən və ad verilməyən magistral yollar boyunca yerləşən daşınmaz əmlak obyektlərinin girişlərinə ünvan nömrələri bir-birindən "-" işarəsi ilə ayrılan iki hissədən ibarət olmaqla verilir. Nömrənin birinci hissəsində ünvan obyektinin yolun başlanğıcından sonuna doğru istiqamətdə neçənci kilometrində yerləşdiyini göstərən ədəd, ikinci hissəsində isə yolun yalnız həmin hissəsi (kilometri) boyunca yerləşən daşınmaz əmlak obyektlərinə bu Qaydaların 3.9-3.11-ci və 3.14-cü bəndlərində qeyd edilən qaydada verilmiş nömrə yazılır.";

2.12. 3.20-ci və 3.21-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"3.20. Nəqliyyat infrastrukturu obyektinin kənarında yerləşdirilən müvəqqəti tikililərə bu Qaydaların 3-cü hissəsinə uyğun olaraq müvəqqəti ünvan verilir.

3.21. Üzərində tikili və (və ya) qurğu olmayan torpaq sahəsinə ünvan təyin edilərkən onun yaxınlığındakı daşınmaz əmlak obyektlərinin ünvanlandırılması nəzərə alınır.".

**3.** 4.2-ci bəndin üçüncü abzasının birinci cümləsində "7 gün müddətində Dövlət Xidməti tərəfindən Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə göndərilir" sözləri "Dövlət Xidməti tərəfindən elektron informasiya sistemləri vasitəsilə real vaxt rejimində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə ötürülür" sözləri ilə əvəz edilsin.

**4.** 5.1-ci bəndin birinci cümləsinə "nömrələrini" sözündən əvvəl "girişlərinin" sözü əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 19 aprel 2023-cü il**

## Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı, o cümlədən yol hərəkətinin təşkili sahəsində tənzimləmə və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, ümumi istifadədə olan avtomobil nəqliyyatı vasitələri ilə müntəzəm sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində rəqabətin, o cümlədən göstərilən xidmətlərin təhlükəsizliyinin və keyfiyyətinin yüksəldilməsi məqsədilə **qərara alıram:**

**1.** Bakı şəhərinin inzibati ərazisində yol hərəkətinin təşkilində iştirak edilməsi, ümumi istifadədə olan nəqliyyat vasitələri ilə müntəzəm sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində tənzimləmənin və nəzarətin həyata keçirilməsi Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə həvalə edilsin.

**2.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (bundan sonra – Agentlik) Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyindəki "Bakı Nəqliyyat Agentliyi" publik hüquqi şəxsin ona qoşulması formasında yenidən təşkil edilsin.

**3.** Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyindəki "Bakı Nəqliyyat Agentliyi" publik hüquqi şəxsin balansındakı əmlak Agentliyin balansına verilsin.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. bu Fərmanın 1-ci və 2-ci hissələri nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. bu Fərmanın 2-ci hissəsi nəzərə alınmaqla, Agentliyin nizamnamə fondunun miqdarının artırılması barədə təklifləri dörd ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.3. "Bakı Nəqliyyat Agentliyi" publik hüquqi şəxsin balansındakı əmlakın Agentliyin balansına verilməsini üç ay müddətində təmin etsin;

4.4. bu Fərmanın 4.3-cü bəndi nəzərə alınmaqla, Agentliyin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün zəruri tədbirlər görsün;

4.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**5.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

5.1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə Agentliyin yenidən təşkili, o cümlədən "Bakı Nəqliyyat Agentliyi" publik hüquqi şəxsin fəaliyyətinə xitam verilməsinin dövlət qeydiyyatı ilə bağlı zəruri tədbirləri həyata keçirsin;

5.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün tədbirlər görsün.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 19 aprel 2023-cü il**

## Nəqliyyatı Əlaqələndirmə Şurasının yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Nəqliyyatın ayrı-ayrı növlərinin koordinasiyalı fəaliyyətinin və əhalinin mobilliyinin təmin edilməsi, yol və nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi, yol hərəkətinin təşkili, təhlükəsizliyi və tənzimlənməsi sahələrində fəaliyyətin əlaqələndirilməsi və təkmilləşdirilməsi məqsədilə aşağıdakı tərkibdə Nəqliyyatı Əlaqələndirmə Şurası (bundan sonra – Şura) yaradılsın:

**Şuranın sədri**

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri

**Şuranın üzvləri:**

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri

Azərbaycan Respublikası daxili işlər nazirinin müavini

Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini

Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini

Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyəti sədrinin müavini

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi İdarə Heyətinin sədri

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri

"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bir ay müddətində:

2.1.1. Şuranın Əsasnamə layihəsi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.2. Şuranın yaradılması ilə bağlı nəqliyyat sahəsində tənzimləmənin təkmilləşdirilməsi ilə əlaqədar normativ hüquqi aktların layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 19 aprel 2023-cü il**

## Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fonduna ("YAŞAT" Fondu) maliyyə dəstəyi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar şəhid olmuş şəxslərin ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması üçün müvafiq platformanın yaradılması, bu sahədə şəffaflığın, hesabatlılığın və ictimai nəzarətin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidentinin 2020-ci il 8 dekabr tarixli 1203 nömrəli Fərmanı ilə "YAŞAT" Fondu yaradılmışdır. Ötən dövr ərzində Fond əsas missiyasını yerinə yetirmiş, bütün müraciət edən Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinə və əlilliyi müəyyən olunmuş şəxslərə dəstək göstərilmiş, 36.553 müraciət təmin edilmiş, bu məqsədlə Fondun büdcəsindən 75.575.943 manat vəsait təyinatı üzrə xərclənmişdir.

"YAŞAT" Fonduna əlavə dəstək verilməsi məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş hərbi qulluqçuların və şəhid olmuş şəxslərin ailə üzvlərinin və dövlət orqanlarının (qurumlarının) işğaldan azad edilmiş ərazilərdə xidməti vəzifələrini yerinə yetirərkən, habelə hərbi əməliyyatlar bitdikdən sonra onların nəticələrinin aradan qaldırılmasında iştirak etməsi nəticəsində əlilliyi müəyyən olunmuş əməkdaşlarının və ya həlak olmuş əməkdaşların ailə üzvlərinin müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi üçün Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fonduna ("YAŞAT" Fondu) 5,0 (beş) milyon manat vəsait ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 19 aprel 2023-cü il**

## "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 16 nömrəli Protokolunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 821-VIQ nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 16 nömrəli Protokolunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 821-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 16 nömrəli Protokolunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 821-VIQ nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 19 aprel 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 1 noyabr tarixli 18 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Ünvan Reyestrinin fəaliyyətini təmin edən informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 1 noyabr tarixli 18 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 11, maddə 1322; 2022, № 8, maddə 866) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Ünvan Reyestrinin fəaliyyətini təmin edən informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.7-ci bəndin birinci cümləsində "Ünvanlar təyin" sözləri "Ünvan məlumatları daxil" sözləri ilə, "ünvanı təyin" sözləri "ünvan məlumatlarını daxil" sözləri ilə əvəz edilsin.

**2.** 3.3.2-ci yarımbəndə "məlumatları" sözündən sonra "rəqəmsal" sözü əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 19 aprel 2023-cü il**

# Qarabağın haqqı və Prezidentdən Ermənistana xəbərdarlıq

## Yaxud ədalətin Azərbaycan formulu



**ABŞ-ın məşhur ictimai xadimi, filantrop və dünya tarixinin ilk dollar milyarderi kimi ad çıxarmış Con Devis Rokfellerin belə bir sözü var: "Müvəffəqiyyətin və uğurun təminatı üçün inadkarlıq qədər mühüm şərt yoxdur".**

"Unutmayın ki, həyat bir imtahandır, sınaqdır", – deyən Kanada əsilli amerikalı tanınmış natiq Brayan Treysi isə özünün böyük populyar motivasiya təlimlərində inadkarlığa bir qədər də geniş yanaşaraq bildirir ki, böyük uğur əldə etmək üçün əzm sınağından keçməlisiniz, ancaq bu test tez-tez sizi təəccübləndirir. Çətin vəziyyət istənilən vaxt dəyişə bilir, özü də buna inanmadığınız halda. Gözlənilməz çətinlik, məyusluq, gecikmə, uğursuzluq durumlarında özünüzə və ətrafınızdakı hər kəsə, əslində, "hansı materialdan hazırlandığınızı" göstərirsiniz. Hesab edirik ki, ölkəmiz müstəqillik illərində Rokfellerin, Treysinin, eləcə də digər şəxsiyyətlərin klassik baxışlarındakı əzm və inadkarlıq testindən layaqətlə çıxıb. Son iyirmi ilə yaxın müddətdə hərəkət və davranışları ilə bu testin bütün fəlsəfi anlamlarını özündə ehtiva edən xarakterin sahibi isə odur – Azərbaycan Prezidenti İlham Əliyev.

### Ədalətin diktəsi və sülhün şərtləri

Dövlət başçısının ölkəmizin media orqanlarına müsahibələri də inadkarlığın və prinsipiallığın ənənəvi nümayiş platformasıdır. Azərbaycan cəmiyyəti bu platformada qətiyyətin və əzmin təntənəsini görməkdədir. Ayrıca onu da deyək ki, ölkəmizin rəhbəri, varlığına xas olan xarakterini sanki ənənələşdirib. Əslində isə onun xarakterindəki cəhətlər bütövlükdə xalqın, dövlətin və cəmiyyətin mahiyyətinə hakim kəsilmiş obraz qazanıb. Qətiyyətlə bildirmək mümkündür ki, bu obraz həm də qalib xalqın obrazıdır.

Bəli, cənab İlham Əliyevin Salyanda – dünya türkçülüyünün banisi Əli bəy Hüseynzadənin yurdunda Azərbaycan Televiziyasına müsahibəsindəki fikirləri ilə bir daha qalib xalqın obrazını nümayiş etdirdi. İllərlə çətinliklərə, məhrumiyyətlərə, sıxıntılara mətanətlə sinə gərərək, Zəfərinə qovuşmuş xalqın. Bu xalq artıq yaşadıqları ağrıacıların hesabını sormalıdır, öz şərtlərini diktə etməlidir. Nəzərə alınmalıdır ki, Prezidentin diktəsi kimisə, indiki halda Ermənistanı və onun rəhbərliyini nə əzməkdir, nə də aşağılamaq. Bu diktə Tanrının İlahi ədalətidir. Ədalətin yaşadığımız Cənubi Qafqaz regionunda sülhün, əmin-amanlığın, barışın və dinc birgəyaşayış naminə olan diktəsi.

Azərbaycan xalqı böyük xalqdır. 44 günlük müharibədə qalib gəlməsinə, işğalçı Ermənistanı darmadağın etməsinə rəğmən ona əlini uzadır, ölkənin müharibənin nəticələrinə və o nəticələri doğurmuş yaramaz siyasət səbəbindən düşdüyü girdabdan çıxmasına kömək göstərmək istəyir. Prezidentin müsahibəsində toxunduğu ilk məqam da məhz budur. Təsadüfi deyil ki, Azərbaycan və Ermənistan arasındakı sülh prosesinin hazırkı vəziyyətindən bəhs edən dövlətimizin başçısı vurğulayır: "Bildiyiniz kimi, danışıqlarla bağlı, Azərbaycan tərəfindən irəli sürülmüş təşəbbüslər bu gün əsas amildir. Çünki işğala, erməni vəhşiliyinə, barbarlığına baxmayaraq, məhz Azərbaycan təklif etmişdir ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi imzalansın və məhz Azərbaycan məlum beş prinsipi ortaya qoymuşdur. Bu prinsiplər beynəlxalq hüququn norma və prinsiplərinin təməl prinsipləridir. Biz bəri başdan bəyan etmişdik ki, məhz bu prinsiplər üzərində ölkələrin suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı və digər prinsiplər əsasında danışıqlar mümkündür və sülh müqaviləsi imzalana bilər".

### Erməni etirafı, reallığa aciz müqavimət

Azərbaycan Cənubi Qafqazın lider dövlətidir. Bu liderlik dünya dövlətləri tərəfindən, tam mənada, qəbul edilir. Təsadüfi deyil ki, Ermənistanın baş naziri Nikol Paşinyan da aprelin 18-də ölkə parlamentindəki çıxışı zamanı dolayısı ilə mövcud reallığa söykəndi. Beynəlxalq vəziyyətin Bakının daha artığına nail olmasına imkan yaratdığını deyən Paşinyan əlavə etdi: "Çünki Azərbaycan enerji və ya logistika kəsişməsinə çevrilib və onun həm Rusiya, həm də Qərb ölkələri üçün əhəmiyyəti artıb".

Görünür, Nikol dövlətimizin başçısının "Ermənistan tərəfinin mövqeyində son iki il ərzində müxtəlif ziqzaqlar olub, yəni müxtəlif dəyişikliklər olub" fikrinin həqiqətlə səsləşdiyinin fərqindədir. Hər halda, özünün qeyri-ciddi qarşılandığını bilməmiş deyil. Belə nəticəyə gəlmək olar ki, baş nazir bu ziqzaqların ölkəsi üçün növbəti fəlakət ssenarisi doğuracağını düşünür. Sadəcə, bunu, cənab İlham Əliyevin təbirincə desək, başqa variantın olmadığını başa düşməyən xəstə erməni cəmiyyəti var. O cəmiyyət ya anlamır, yaxud anlamaq istəmir ki, Paşinyan keçən ilin oktyabrında Praqa və Soçi görüşlərində Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini rəsmən qəbul edib. Dövlətimizin başçısı müsahibəsində bu məqamı xüsusi vurğulamaqla da Ermənistan üçün sülhün qaçılmazlığı üzərinə gəlir. Sülhün qaçılmazlığındakı başlıca formul isə Qarabağın Azərbaycan ərazisi kimi rəsmən tanınmasıdır.

### Qarabağ Azərbaycandır!

Prezidentin fikirlərinə diqqət yetirək. Diqqət yetirək və bilək ki, İrəvan nəyi artıq qəbul edib: "Yəni qəbul edib ki, Azərbaycan ilə Ermənistan arasında sərhədlər – 1991-ci ilin Alma-Ata Bəyannaməsi əsasında həll olunmalıdır. O da nəyi göstərir? Onu göstərir ki, müttəfiq respublikalar arasında olan sərhədlər dövlət sərhədləri sayılır. Beləliklə, bax, bu rəsmi addımı atmaqla Ermənistan rəsmən Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyıb. Vaxtilə "Qarabağ Ermənistandır və nöqtə" deyən Ermənistan bu gün "Qarabağ Azərbaycandır və nida" sözlərimizi təkrar etməlidir. Çünki əgər "A" deyibsə "B" də deməlidir. Alma-Ata Bəyannaməsini əsas götürüb bunun üzərində sülh müqaviləsinə hazır olduğunu göstərən Ermənistan artıq rəsmən bəyan etməlidir ki, Qarabağ Azərbaycandır".

Ermənistan, heç bir halda, Qarabağ mövzusunu gündəmə gətirməməlidir. Çünki, "nəticə etibarilə bizə belə gəlir ki, Ermənistan da prinsip etibarilə bizim yanaşma ilə razıdır", – deyən Azərbaycan Prezidenti, əslində, həmin Alma-Ata Bəyannaməsinin erməni cəmiyyətindəki fərqli interpretasiya cəhdlərinin səmərəsizliyini vurğulamaqdadır.

Dövlətimizin başçısının fikirləri İrəvanın siyasi manipulyasiya cəhdlərinə meydan verilməyəcəyinin növbəti təsdiqidir. Deməli, aprelin 18-dəki məlum çıxışında Ermənistan və Azərbaycanın Sovet İttifaqında tərtib edilmiş xəritələrinin ölkələrin ərazi bütövlüyünün əsası kimi gələcək sülh müqaviləsinə əlavə olunmasının vacibliyini vurğulayan baş nazir Paşinyan "lakin burada ən çətin məsələ Dağlıq Qarabağdır" qənaətinə gəlməməlidir. Daha doğrusu, bütövlükdə, Ermənistan cəmiyyəti bu məntiqə söykənməməlidir. Nəzərə almalıdır ki, diktə edən tərəf kimi Azərbaycanın Alma-Ata Bəyannaməsinə baxışı Qarabağ müzakirə mövzusu kimi qəbul etməkdən tam və prinsipial şəkildə uzaqdır.

Həm də ona görə uzaqdır ki, Bakının bölgənin erməni əhalisi ilə bağlı öz yanaşması var. Prezident İlham Əliyevin vurğuladığı kimi: "Qarabağ bizim daxili işimizdir. Qarabağda yaşayan ermənilər ya Azərbaycan vətəndaşlığını qəbul etməlidirlər, ya da ki, özləri üçün başqa yaşayış yeri tapmalıdırlar. Burada tam sərbəstlik var, bütün demokratik əsaslar təklif olunur. Bu məsələ insan hüquqları əsasında da öz həllini tapmalıdır. Bu gün bizim hərəkətlərimiz onu göstərir ki, niyyətimiz ondan ibarətdir ki, tezliklə sülh müqaviləsi imzalansın, Azərbaycanla Ermənistan arasında bu qarşıdurmaya son qoyulsun".

Bəli, Ermənistanın Azərbaycana qarşı, yumşaq desək, mənfi münasibətinə son qoymasının vaxtı çatıb. Əslində, o vaxt 2020-ci ildə çatmışdı. Sadəcə, ölkədəki şovinist və revanşist dairələr bunu anlamaq istəməmişdilər və demək olmaz ki, bu gün anlayırlar. Həmin dairələr ötən müddətdə xaricdəki havadarlarının, anti-Azərbaycançı qüvvələrin köməyilə 44 günlük müharibədən sonra Cənubi Qafqazda formalaşmış yeni reallıqlara, bir növ, deməş xətt götürmüş, müxtəlif "fəaliyyətlərə" baş vurmuşdular. Ermənistan hakimiyyəti isə onlara arxalanaraq təxribatlar törətmiş, elə zənn etmişdi ki, güc nümayişi ilə nəyəsə nail olmağı bacaracaq. Ancaq Prezident İlham Əliyevin də bildirdiyi kimi, bizim iradəmizi, qətiyyətimizi, gücümüzü əyani şəkildə gördülər.

"Mən indi sadalamaq istəmirəm, bu iki il yarım ərzində bir çox önəmli hadisələr baş vermişdir, həm Azərbaycan–Ermənistan dövlət sərhədi istiqamətində, eyni zamanda, Rusiyanın müvəqqəti qaydada yerləşdirilmiş sülhməramlı qüvvələrinin nəzarətində olan bölgədə. Biz dəfələrlə göstərmişik ki, bu torpaqların sahibləri bizik və heç kimə imkan vermərik ki, bizim ərazimizdə kimsə ət oynatsın", – deyən dövlətimizin başçısının vurğuladığı bir məqamın üzərində xüsusi dayanmağa ehtiyac duyuruq.

### Qarabağ ermənilərinin reinteqrasiyası və "təlxəklərin marşı"

Məlumdur ki, Azərbaycan dövləti Qarabağ ermənilərinin reinteqrasiyası ilə bağlı təkliflər irəli sürür. Onları Bakıya, vətəndaşı olduqları dövlətin paytaxtına dəvət edir. Danışıq üçün irəli sürülmüş mövzulardan görünən budur ki, ölkəmiz bölgənin gələcək inkişafında yerli əhalinin rolunu vurğulamaq niyyətindədir. Bu vurğulanma, heç şübhəsiz, layiqli həyat şəraiti baxımından təminat deməkdir.

Təəssüf ki, qarşı tərəf ölkəmizin mövcud istiqamətdəki təşəbbüslərini dəyərləndirmir. Nəzərə alaq ki, Qarabağdakı separatçı rejim İrəvanın əli ilə hərəkətə gətirilir. Cənab İlham Əliyev isə ötən müddətdə, ilk dəfə olaraq, separatçılar üçün də şans yaradır. Səslənədiyi fikirlərlə, faktiki surətdə, onları da reinteqrasiyaya dəvət edir. Heç şübhəsiz, bu, son dərəcə böyük, siyasi anlam daşıyan amnistiyadır.

Ancaq dövlətimizin başçısının söylədiklərinə adekvat reaksiyanın verilməsi önəmlidir. Axı, Azərbaycan Prezidentinin şəxsində, ölkəmiz separatçıları da Ermənistan rəhbərliyinin orbitindən çıxarmağa dəvət edir. Bəs, dəvət edilmişlər nəyi düşünməlidirlər? Hesab edirik ki, ölkəmizin rəhbəri müsahibəsində bunu da kifayət qədər açıq tekstlə vurğulayır: "Separatçılar da bilməlidirlər ki, onların iki seçimi var: ya Azərbaycan Bayrağı altında yaşayacaqlar, ya da ki, çıxıb gedəcəklər. Biz separatçıların əsas simalarından olan Serjik Sarkisyanı, Robert Koçaryanı, Seyran Ohanyanı Qarabağdan iti qovan kimi qovmuşuq, onları diz çökdürmüşük. Onlar İkinci Qarabağ müharibəsi zamanı Qarabağa gəlmişdilər, guya, bizimlə vuruşmağa gəlmişdilər. Üçü də bizim torpağımızdan dovşan kimi qaçdı, indi heç biri heç burnunu da soxa bilmir nə Xankəndiyə, nə başqa bir yerə".

Bəli, Qarabağdakı separatçı rejimin təmsilçiləri koçaryanların, sarkisyanların, ohanyanların və digər yanların acınacaqlı aqibətindən ciddi nəticə çıxarmalıdırlar. Azərbaycan xalqına qarşı törətdikləri qətliamlarla, soyqırımları ilə öyünənlərin düşdükləri rəzil durumu gözlərinin önündə canlandırmalıdırlar. Bilməlidirlər ki, hazırda Qarabağda separatçılıq fəaliyyətinə baş vurmaqla, özlərini "prezident", "nazir" və sair bu kimi vəzifələrə ucaltmaqla, Azərbaycan cəmiyyətinin və dövlətinin gözündə cənab İlham Əliyevin vurğuladığı kimi, təlxəklər toplusu obrazındadırlar. Bu topludakılar "ya bizim sözümüzlə oturub duracaqlar, ya da ki, oradan rədd olacaqlar və orada yaşayan, onların faktiki olaraq girovuna, əsirinə çevrilmiş ermənilərə də rahat buraxacaqlar".

Dəfələrlə bildirmiş və yazmışıq ki, Ermənistan rəhbərliyi və Qarabağdakı separatçı rejim bölgənin erməni əhalisinin həyatını ağırlaşdırmaqla məşğuldur. Yəni, faktiki olaraq, Qarabağ erməniləri avantürizmin qurbanıdırlar. Hətta onu da vurğulamışıq ki, Ermənistan hakimiyyəti özünün ambisiyalarını reallaşdırmaq üçün onların fiziki cəhətdən məhvinə də hazırdır. Bu fikri söyləyərkən, çox da uzaq olmayan tarixə nəzər salmışıq. 1988-ci ildə ermənilərin azərbaycanlılara qarşı nifrətini körükləyən erməni millətçilərinin Sumqayıtda özlərinin dinc soydaşlarını qətlə yetirmələrini və sonradan bunu, guya, azərbaycanlıların törətdiklərini dünyaya car çəkmələrini xatırlamışıq.

### Erməni xisləti və Sumqayıt "ssenarisi"

Hazırda dünya erməniliyi də Qarabağda bu sayaq qətliama gedə bilər. Tipik erməni xəstəliyinin daşıyıcılarının fikrincə, Qarabağ ya müstəqil dövlət olmalı, ya da ermənisizləşməlidir. Etnik təmizləmə və soyqırımı "məntiqləri" işə salmaları da bu mənfur baxışdan qaynaqlanır. Hesab edirlər ki, bölgənin erməni əhalisinin fiziki cəhətdən yoxluğu Azərbaycana qarşı dünya miqyaslı əks-təbliğatın tərkib hissəsi ola bilər. Yəni, əgər Qarabağ müstəqillik qazanmırsa, onun, belə demək mümkünsə, niskili intiqam və qisas motivi kimi gələcəyə daşınmalıdır. Ortada bu qədər qəddar xislət və yanaşma var.

Azərbaycan isə çalışır ki, Qarabağda erməni əhalisi qalsın və yaşasın. Ölkəmiz bölgənin siyasi spekulyasiyaların predmetinə çevrilməməsini istəyir. Dövlətimizin başçısı da müsahibəsində özünün qətiyyəti və prinsipial yanaşması ilə qeyd etdiyimiz məqamlara yetərincə əhatəli aydınlıq gətirir: "Mən əminəm ki, hazırda Qarabağda yaşayan erməni əhalisinin əksəriyyəti Azərbaycan vətəndaşlığını qəbul etməyə hazırdır. Sadəcə olaraq, bu zəlilər, bu yırtıcı heyvanlar, separatçılar qoymurlar. Qoymurlar ki, bu insanlar rahat yaşasınlar, 30 il bunları girov kimi saxlayıblar. Ona görə mənim mövqeyim bundan ibarətdir, bunu hər kəs eşitsin, həm Ermənistan rəhbərliyi, həm bu gün onların arxasında dayanan qüvvələr, bizim iradəmizə heç kim təsir edə bilməz. Biz bunu sübut etmişik, müharibə zamanı və müharibədən sonra. Lazım olarsa, bir də sübut edərik istənilən formada".

### "Bayraq mənliyimdir, bayraq kimliyim..."

Azərbaycanla Ermənistan arasındakı sülh kompleks səciyyə daşımalıdır. İrəvan ölkəmizə, xalqımıza münasibətdə tipik erməni xəstəliyinin təzahür formalarından əl çəkməlidir. Hazırkı məqamda biz bunun şahidi deyilik. Əksinə, görürük ki, Ermənistandakı bəzi qüvvələr düşmənçiliyi, barışmazlığı təlqin edirlər. Ən pisi isə budur ki, ölkənin rəsmi siyasəti bu "baxışlara" qarşı nəinki müqavimət göstərir, eyni zamanda, onların arxasınca sürünür. Elə təəssürat yaranır ki, Paşinyan administrasiyası azərbaycanlılara nifrət ritorikasını göstərmək uğrunda ənənəvi şovinistlərlə, bir növ, rəqabətə girib.

Təsəvvür edin, Paşinyan hökumətinin 2022-ci il üçün proqramının icrasına dair hesabatında ermənilərin azərbaycanlılara qarşı bəslədikləri bütün qəzəb hisslərinin kağıza köçürüldüyü, bunların azərbaycanlılara ermənilərə nifrəti adı ilə rəsmiləşdirildiyi və beynəlxalq hüquq müstəvisinə daşındığı açıqlanır. Halbuki, ortada son günlərin çox böyük faktı var. Söhbət İrəvanda keçirilmiş ağır atletika üzrə Avropa çempionatının açılış mərasimində Azərbaycan Bayrağının yandırılmasından gedir.

Böyük Azərbaycan şairi Bəxtiyar Vahabzadə özünün məhşur şerində bildirirdi ki, bayraq mənliyimdir, bayraq kimliyim, bayraq öz yurduma öz hakimliyim. Azərbaycanın dövlət başçısının İrəvandakı məlum həqarət olayına münasibətindəki sərtlik də şairin diqqətə çatdırdığımız misralarının ruhundadır.

Baş vermiş hadisəni Ermənistan hakimiyyətinin növbəti çirkin əməli kimi qiymətləndirən cənab İlham Əliyev bunu söyləməyə əsas verən səbəblər üzərində dayanıb: "Birincisi, bu hadisəni törədən insanabənzər məxluq Ermənistan hakim dairələrinin yüksəkvəzifəli şəxsləri ilə birbaşa təmasdadır. İkincisi, bu məxluqa heç bir cəza verilmədi, əksinə, Ermənistanda onu qəhrəmanlaşdırırlar. Guya, onu saxlayıblar, ondan bir neçə dəqiqə sonra buraxıblar. Orada bir şou düzəldiblər, onu alqışlarla qarşılayıblar və bu adama qarşı heç bir cəza tədbiri, heç cərimə də tətbiq olunmayıb. Yəni, bu, nəyi göstərir? Ermənistanın siyasi rəhbərliyinin gözü önündə belə bir rəzil hadisə baş verir və buna heç bir reaksiya verilmir. Deməli, Ermənistan hakimiyyəti, hökuməti, dövləti bu çirkin əməlin müəllifidir".

Bəli, bir qədər əvvəl də bildirdik ki, Ermənistan hakimiyyəti ölkədəki xəstə anti-Azərbaycan baxışlarının arxasınca sürünməkdədir və öz fəaliyyəti ilə həmin baxışların birbaşa sahibləri olan müxaliflərdən daha "irəli getdiyini" nümayiş etdirməyə çalışır. Paşinyanın komandası hesab edir ki, belə davranmasa, daxildə nüfuzdan düşəcək. Nəticə bunu deməyə əsas verir: sanki ölkədə daha pis erməni olmaq uğrunda yarış gedir və mövcud iqtidar heç kəsin özündən öndə olmasını istəmir.

### "Azərbaycan Bayrağını öz başları üzərində görə bilərlər"

Sonda bir daha vurğulayaq ki, Prezident İlham Əliyev Azərbaycan Televiziyasına aprelin 19-da verdiyi müsahibədə ölkəmizin Qarabağ əzmini, ərazi bütövlüyümüzün təminatına və toxunulmazlığına, mövcud istiqamətdəki əks meyillərə qarşı inadını bir daha sərt və qətiyyətli formada ortaya qoydu. Dövlətimizin başçısı fikirləri ilə Ermənistanla normallaşdırma prosesinin fundamental tərəflərini də vurğulamış oldu.

İndi Ermənistan hakimiyyəti və cəmiyyəti Azərbaycan liderinin söylədiklərini ciddi şəkildə təhlil etməlidir. Təhlil etməli və ölkəmizlə münasibətlərin gələcək trayektoriyasını düzgün şəkildə müəyyənləşdirməlidir. Çünki bu müəyyənləşdirmə Ermənistan adlı dövlətin gələcəkdə mövcud olub-olmayacağı ilə bağlı suallara da aydınlıq gətirəcəkdir. Prezident İlham Əliyevin də vurğuladığı kimi, yaxşı fikirləşsinlər. Çünki "bir gün gözlərini açıb Azərbaycan Bayrağını öz başları üzərində görə bilərlər".

*Əvəz CAHANGİROĞLU,*
*"Xalq qəzeti"*

# Bu gün Azərbaycan Bayrağı Zəngəzur dağlarında dalğalanır

## *Bədxahlarımız o zirvəyə baxmağa belə qorxurlar*



***Ermənistanın siyasi rəhbərliyinin gözü önündə belə bir rəzil hadisə baş verir və buna heç bir reaksiya verilmir. Deməli, Ermənistan hakimiyyəti, hökuməti, dövləti bu çirkin əməlin müəllifidir. Amma onlar unutmamalıdırlar ki, bu gün Azərbaycan Bayrağı harada dalğalanır. Bu gün Azərbaycan Bayrağı Qarabağda dalğalanır. Ağdamda, Füzulidə, Cəbrayılda, Qubadlıda, Zəngilanda, Kəlbəcərdə, Laçında, Şuşada, Hadrutda, Talışda, Suqovuşanda və neçə-neçə kənddə, yüzlərlə kənddə Azərbaycan Bayrağı dalğalanır.***

**Azərbaycan Prezidenti İlham Əliyevin AzTV-yə müsahibəsindən
Salyan şəhəri, 18 aprel 2023-cü il**

**Son zamanlar ölkəmizdə və regionda baş verən hadisələr, ictimai-siyasi proseslər sübut edir ki, Prezident İlham Əliyev nəinki "nəyi, nə zaman, necə etməyi", hətta, "nəyi, nə zaman, necə deməyi" də yaxşı bilir. Dövlət başçımızın Salyanda Azərbaycan Televiziyasına verdiyi müsahibəni də bu arqumentimizin təsdiqi kimi qəbul edə bilərik.**

Əslində, həmin müsahibədə ayrıca yazı hazırlamaq üçün ondan çox mövzu var. İqtisadi uğurlar, sosial layihələr, ordu quruculuğu, işğaldan azad edilmiş ərazilərin bərpası, beynəlxalq aləmlə əməkdaşlığımız, Ermənistanın sülh danışıqlarından yayınması və bu kimi digər məsələlərin hər biri ayrıca şərh olunası mövzulardır. Ancaq mən həmin müsahibədəki bayraq məsələsinə toxunmaq istəyirəm. Çünki son zamanlar haylar elə səviyyədə həyasızlaşıblar ki, hətta bizim dövlət bayrağımıza əl qaldırmaq kimi şərəfsizliyə də əl atdılar.

Dövlət başçımız xatırlatdı ki, biz 2020-ci ilin payızında düşmənin başını əzərək möhtəşəm Qələbə əldə etmişik. Ancaq Ermənistanda revanşist qüvvələr yenə baş qaldırır, biz istənilən vəziyyətə hazır olmalıyıq və elə bir ordu yaratmalıyıq ki, dünya miqyasında nümunəvi olsun və ən güclü ordulardan biri olsun: "Bu gün də Azərbaycan Ordusu güclüdür. Biz gücümüzü döyüş meydanında göstərmişik. Biz döyüş meydanında həm Azərbaycan xalqının gücünü, iradəsini, əyilməz ruhunu göstərdik, eyni zamanda, hərbçilərimizin peşəkarlığını göstərdik, öz hərbi potensialımızı göstərdik".

Ancaq işğala, erməni vəhşiliyinə, barbarlığına baxmayaraq, məhz rəsmi Bakı təklif etmişdir ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi imzalansın və biz məlum beş prinsipi ortaya qoymuşuq. Bunlar beynəlxalq hüququn norma və tələblərinin təməl prinsipləridir. Dövlət başçımız bəyan etmişdi ki, məhz bu prinsiplər əsasında ölkələrin suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı və sair üzrə danışıqlar mümkündür və sülh müqaviləsi imzalana bilər.

Məlum olduğu kimi, İkinci Qarabağ müharibəsindən keçən iki il yarım ərzində Ermənistan, onun havadarları və eyni zamanda, ona dəstək verən ölkələr və qüvvələr bizim iradəmizi, qətiyyətimizi, gücümüzü əyani şəkildə gördülər. Azərbaycan dəfələrlə göstərib ki, bu torpaqların sahibləri bizik və heç kimə imkan verməik ki, bizim ərazimizdə kimsə at oynatsın.

Təəssüf ki, haylar bu həqiqətləri anlaya bilmirlər və ya kimsə onları "anlamağa" qoymur. Əgər elə olmasaydı, ilin-günün bu vaxtında – bütün ölkələrin və beynəlxalq təşkilatların Ermənistana yardım göstərməkdən imtina etdiyi, diaspor təşkilatlarının geriyə çəkildiyi bir zamanada – nümayişkaranə şəkildə Azərbaycan Bayrağına qarşı hörmətsizlik etməzdilər. Dövlət başçımızın fikrincə, bu, erməni hökumətinin növbəti çirkin əməlidir: "Bu, təsadüfən baş vermiş, hansısa bir fərdin əməli deyil. Bu, Ermənistan hökumətinin növbəti çirkin əməlidir. Bunu deməyə əsas verən bir çox səbəblər var. Birincisi, bu hadisəni törədən insanabənzər məxluq Ermənistan hakim dairələrinin yüksəksəviyyəli şəxsləri ilə birbaşa təmasdadır. İkincisi, bu məxluqa heç bir cəza verilmədi, əksinə, Ermənistanda onu qəhrəmanlaşdırırlar".

Ancaq ermənilər unudurlar ki, bu gün Azərbaycan Bayrağı haralarda dalğalanır. Bu hadisə bizi sarsıda bilməz, bizim iradəmizə heç bir təsir edə bilməz. Dövlət başçımız xəbərdarlıq edir ki, onlar yaxşı fikirləşsinlər.

Yeri gəlmişkən, mən bu sətirlərin müəllifi ermənilərin törətdikləri rəzalətin ertəsi günü İrəvanda Türkiyə bayrağının qaldırılmasını və qardaş ölkənin Dövlət Himninin səsləndirilməsini təmin edən Anadolunun qız yavrularına göndərdiyim "Facebook" təbrikimi də yada salmaq istəyirəm. Yazmışdım: "İrəvanda bir bayrağımızı it dişlədi, qaldıra bilmədik, o biri bayrağımızı sən ucaltdın, Cansu! Xoşbəxt olasan, qızım, bacım, ƏZİZİM! Anadolu türklərinin Qız Qardaşım ifadəsi necə də yerinə düşdü".

Bəli, Salyanda dövlət başçımıza həmin qız qardaşımızın hünəri barədə də sual verildi (Xatırladım ki, Cansu Bektaşi İrəvanda artıq üç qızıl medal qazanmış və Türkiyə bayrağının üç dəfə qaldırılmasına nail olmuşdur). Fikrimcə, dövlət başçımızın bu məsələyə münasibəti bütün azərbaycanlıların, türklərin və ümumilikdə, Türk dünyasının sonsuz alqışına, təqdirinə səbəb oldu. Cənab Prezident xatırlatdı ki, Mehriban xanım və mən əziz qızlarımız Cansu və Qəmzəni təbrik etdik: Nə qədər gözəl bir hərəkətdir. Ona görə onlar bütün Azərbaycan xalqının sevgisini qazandılar".

Bu məqamda onu da əlavə edək ki, dövlət başçımız Azərbaycan xalqını sevindirəcək bir hadisənin anonsunu da verdi: "Bu gün mən Neftçala Olimpiya Kompleksinin açılışında olarkən Gənclər və İdman nazirinə tapşırdım ki, bizim qızlarımızı mənim adımdan Azərbaycana dəvət etsin və onlar bizim qonağımız olsunlar... Bir yaramaz bizim bayrağımızı yandırır, ertəsi gün qardaş Türkiyə dövlətinin şanlı bayrağı o düşmənlərin başının üzərində ucaldılır və onlar Türkiyənin Dövlət Himninə ayaq üstə qulaq asmağa məcbur olurlar".

Fikrimcə, cənab Prezidentin müsahibəsindəki iki arqumenti bu sətirlərin sonunda da təkrar etməyə lüzum var: "Bir gün gözlərini açıb Azərbaycan Bayrağını öz başları üzərində görə bilərlər" və "Bu torpaqların sahibləri bizik və heç kimə imkan verməik ki, bizim ərazimizdə kimsə at oynatsın".

Yəni, Qarabağ da, Zəngəzur da Azərbaycandır!

***İttifaq MİRZƏBƏYLİ,
"Xalq qəzeti"***

*Hazırda özləri üçün qondarma adlar uyduran separatçılar, – biri özünü prezident adlandırır, biri özünü nazir adlandırır, biri nə bilim nə parlament sədri adlandırır, – bu təlxəklər toplusu, nəhayət, bilməlidir ki, bizim səbrimizlə oynamaq olmaz...*

**İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti**

# Üzlü qonağa qapını göstərməyin vaxtı çatıb

**Görəsən dünyada ikinci bir xalq tapmaq mümkündürmü ki, çağırılmamış qonaqlara münasibətdə biz azərbaycanlılar qədər dözümlü, onların başlarından böyük iddialarına uzun müddət səbirlə yanaşmağı bacarsın?**

195 il bundan əvvəl İrandan Qarabağa köçürülən, süfrəmizin artığı ilə böyüyən ermənilərlə hesablaşmağın son mərhələsidir. Atalar demişkən, qaradan o yana rəng yoxdur. 44 günlük Vətən müharibəsindəki Zəfərdən sonra Azərbaycanın dəyişdiyi reallıqla, eləcə də üzləşdikləri acı aqibətləri ilə heç cür barışmaq istəməyən həm rəsmi İrəvana və həm də kənardan qızışdırılan Qarabağ ermənilərinə yerlərini konkret göstərmək lazım idi və göstərildi. "Biz dəfələrlə bəyan etmişdik ki, daxili işlərimizi heç bir ölkə ilə müzakirə etməyəcəyik. Qarabağ bizim daxili işimizdir", – deyən Prezident İlham Əliyev birmənalı olaraq bildirdi ki, Qarabağda yaşayan ermənilər ya Azərbaycan vətəndaşlığını qəbul etməli, ya da özlərinə başqa yaşayış yeri tapmalıdırlar.

Cənab Prezident Qarabağın erməni icmasına bu mesajı aprelin 18-də Salyan rayonuna səfəri zamanı Azərbaycan Televiziyasına müsahibəsində verdi. Qarşılıqlı dialoqdan, cəmiyyətimizə reinteqrasiyadan boyun qaçıran hayların diqqətinə buna qədər də ən yüksək səviyyədə oxşar təkliflər və seçim variantları çatdırılmışdı. Amma qəbul etmədilər, vəziyyətin ciddiliyini anlamaq istəmədilər. Ona görə indi onlara təklif deyil, xəbərdarlıq edildi. Həm də, deyəsən, bu, sonuncu xəbərdarlıq olacaq. Hər tərəfində üçrəngli bayrağımızın dalğalandığı Qarabağdakı təxribatçı daşnak tör-töküntüləri özlərinə qondardıqları, "dövlət atributları"na malik "respublika" adından çıxışlar edir, bəyanatlar verir və hətta beynəlxalq tədbirlərə dəvətlər alırlar. Şərti sərhədin ya o üzündə, ya da bu üzündə hər dəfə başlarını qaldırmaq istəyəndə "dəmir yumruğun" zərbini görən bu təxribatçıların, fəaliyyətləri ilə artıq kimə və nəyə güvəndikləri bəlli olmayan "məmurların" qollarına qandalların vurulacağı gün də uzaqda deyil.

Bəli, cənab Prezidentin dediyi kimi, onlar Azərbaycan xalqının səbrini kasanı dolduran həddə çatdırıblar. Bundan o tərəfə isə son iki il beş ayda İrəvanın dövriyyəyə buraxdığı yalançı vədlərə inanmağı bir kənara qoyaraq, qəti addımlar atmaq mərhələsi başlayır.

Hazırda Qarabağda yaşayan erməni əhalisinin böyük əksəriyyətinin Azərbaycan vətəndaşlığını qəbul etməyə hazır olduğuna əminliyini ifadə edən dövlətimizin başçısı sözünü aranı qarışdıran kənar qüvvələrə ünvanladı: "Sadəcə olaraq, bu zəlillər, yırtıcı heyvanlar, separatçılar qoymurlar. Qoymurlar ki, bu insanlar rahat yaşasınlar, 30 il bunları girov kimi saxlayıblar. Ona görə mənim mövqeyim bundan ibarətdir, bunu hər kəs eşitsin, həm Ermənistan rəhbərliyi, həm bu gün onların arxasında dayanan qüvvələr, bizim iradəmizə heç kim təsir edə bilməz. Biz bunu sübut etmişik, müharibə zamanı və müharibədən sonra. Lazım olarsa, bir də sübut edərik istənilən formada".

Sülhə gəlməyə üzü, döyüşməyə gücü olmayan rəsmi İrəvanın son açıqlamaları müəyyən pozitivliyə əsas versə də, Bakı onunla yalnız bir dildə danışmağın mümkünlüyünü artıq qəbul edib. Bunu keçmiş iqtidarların yaşadığı qibtəolunmaz sonluqların timsalında İrəvanın indiki hakimiyyətinin diqqətinə çatdıran Azərbaycan Prezidentinin bəyanatı həm də görk sayılmalıdır.

### Faktlar da hayların üzünə durur

Bu tarixi həqiqəti ermənilərin əksəriyyəti bilir. Düşündük ki, indiki məqamda Qarabağ ermənilərinə hər vəchlə unutmağa çalışdıqları tarixlərinin bu səhifəsini bir daha xatırlatmağımız vacibdir. Hayların Qarabağa köçü 1828-ci ildə imzalanmış bədnam Türkmənçay müqaviləsindən sonra başlanıb. Onların İrandan Qarabağa köçürüldüyünü sübut edən çoxlu arxiv materialı, tarixi sənədlər var. 1978-ci ildə Tərtər rayonunun Şıxarx qəsəbəsində tikilən "Marağa-150" memorial kompleksi də belə sübutlardan biri idi. Çılpaq faktı özündə əks etdirən həmin abidə ötən əsrin 70-ci illərində qoyulmuşdu. Abidə ermənilərin İranın Marağa əyalətindən Azərbaycanın keçmiş Ağdərə, indiki Tərtər rayonu ərazisinə köçürülmələrinin 150 illiyinin rəmzi idi. İşğal dövründə söküb izini itirməyə çalışdıqları həmin abidənin mərmər sütunlarından birinin üzərində 1828, digərinin üzərində isə 1978 rəqəmləri yazılmışdı. Gəlmə haylar əlamətdar günlərində buranı ziyarət edir, köç barədə babalarından eşitdiklərini xatırlayırdılar. Sovetlər dönəmində "DQMV" adlandırılan Qarabağımızda ermənilərin məskunlaşdığı kəndlərimizin adı ilə baglı "Çaylı-150", "Cığabert-150", "Metişen-150" kimi başqa xatirə kompleksləri də olub. Bu abidələr həm də indi Qarabağ ermənilərinə xüsusi statusdan, öz müqəddaratını təyinetmədən dəm vuran revanşist-daşnaklara ən tutarlı cavabdır.

Bəli, Azərbaycan xalqı 30 il əvvəl, yəni vətənsizin gəlib yurdumuzu ələ keçirdiyi işğala qədərki 165 il üzlü qonaqların xidmətində dayandı, onların hər nazı ilə oynadı. Sonra məlum oldu ki, ifrat qonaqpərvərliyimizlə başımıza iş açmışıq. Suyumuza, çörəyimizə şərik elədiyimiz, amma xislətinə gec bələd olduğumuz haylar sonda müxənnətliyə əl atdılar, torpağımıza göz dikdilər. Daha yetər, bu "qonaqlıq" çox uzandı, xain haylara qapını göstərməyin məqamı çatıb. 1828–2023! 195 il bəs deyilmi?!

***İmran BƏDİRXANLI, "Xalq qəzeti"***



***Ekspert rəyi***



**Yeganə HACIYEVA,
politoloq**

Qarabağ münaqişəsi artıq həll edilib. Məsələ ondadır ki, biz Ermənistanın bir sıra havadarlarından münaqişənin həll olunmadığı barədə, "Dağlıq Qarabağ münaqişəsi" ifadəsini ara-sıra eşidirik. Bu ifadələri işlədən dairələr regionu yeni təhlükəyə sürükləməyə çalışanlardır. İstər Avropa İttifaqının, istər Dövlət Departamentinin bəzi rəsmilərinin dilindən səslənən, xüsusilə, Fransa dairələrinin tez-tez təkrarladığı "Dağlıq Qarabağ münaqişəsi həll olunmayıb" tezisi ciddi fəsadlara gətirib çıxara biləcək açıqlamalardır. Əslində bu, Ermənistandan alət kimi istifadə etmək, revanşizmə dəstək vermək, Qarabağda separatizmi körükləmək cəhdidir.

Qarabağdakı etnik ermənilərlə münasibətlər hüquqi məsələdir və bu, Azərbaycan Konstitusiyası və qanunları əsasında həll edilməlidir və ediləcək. Cənab Prezident aprelin 18-də bildirdi ki, Qarabağ bizim daxili işimizdir, burada yaşayan ermənilər ya Azərbaycan vətəndaşlığını qəbul etməli, ya da özlərinə başqa yaşayış yeri tapmalıdırlar.

Azərbaycan Prezidenti növbəti dəfə bəyan etdi ki, Ermənistan Qarabağın Azərbaycan ərazisi olduğunu sözdə deyil, əməldə tanımalıdır. Baş nazir Nikol Paşinyan parlamentdə Bakı ilə danışıqlar prosesinin ləng getməsinin Ermənistan üçün yaratdığı təhlükə barədə danışarkən, Qarabağ bölgəsi daxil Azərbaycanın ərazi bütövlüyünü tanıdığını təkrarladı. Bu, əlbəttə ki, Paşinyanın növbəti manipulyativ gedişidir, çünki bunu deyən ölkə rəhbəri sülh sazişini imzalamalıdır. Əgər İrəvan Qarabağın Azərbaycan ərazisi olduğunu təsbit edən sülh sazişini imzalamasa, bu halda böyük risklə üzləşəcək. Yəni, Bakı danışıqlarda SSRİ-nin tərkibinə daxil olduğu vaxtdakı şərtlərə qayıdacaq. Bu isə 70 il ərzində hissə-hissə Ermənistana verilmiş Azərbaycan torpaqlarının geri qaytarılması prosesinə start verilməsi deməkdir və bu məsələ İrəvan üçün ciddi siyasi, ideoloji fəsadlarla nəticələnə bilər.

# Hədəf dünyanın ən güclü ordularından biri olmaqdır!

**Prezident İlham Əliyev aprelin 18-də Salyan şəhərində Azərbaycan Televiziyasına müsahibəsində ölkəmizin gələcək inkişaf istiqamətləri ilə yanaşı, ordumuzla bağlı qarşıdakı planları haqqında da maraqlı fikirlər səsləndirib. Azərbaycan Silahlı Qüvvələrinin 2020-ci ilin 44 günlük Vətən müharibəsində düşmən üzərində tarixi Zəfərə imza atdığını bildirən dövlət başçısı, əldə edilən bütün uğurlara rəğmən ordunun inkişafı istiqamətindəki səylərin davam etdirildiyini bildirib.**

### Silahlı qüvvələrə ayrılan vəsait artırılıb

Dövlət başçısının müsahibəsində diqqət çəkən məqamlardan biri orduya ayrılan vəsaitin həcminin artırılacağı ilə bağlıdır. Bütövlükdə, büdcəyə 3 milyard manat məbləğində əlavələr olacaq ki, bu vəsaitin də əsas hissəsi işğaldan azad edilən ərazilərdəki yenidənqurma işlərinə sərf ediləcək. Büdcəyə əlavələrin sərf ediləcəyi ikinci sahə isə ordu və onun ehtiyacları olacaq.

Azərbaycanın yenidənqurma işləri ilə yanaşı, ordunun güclənməsinə bu qədər böyük diqqət yetirməsi, dövlət başçısının xalqımızın və dövlətimizin təhlükəsizliyinə verdiyi önəmi göstərir. Bununla yanaşı, bu fakt həm də onu göstərir ki, Azərbaycan regionda və dünyada gedən hərbi-siyasi prosesləri diqqətlə izləyir, dəyişikliklər fonunda hərbi gücün artırılmasının önəmini dərk edir. Prezident İlham Əliyev müsahibəsində büdcə əlavələrindən bəhs edərkən bu haqda deyir: "İkinci yerdə bizim hərbi xərclərimiz olacaq. Çünki buna da böyük ehtiyac var. Dünyada gedən prosesləri hər kəs izləyir. Dünyada təhdidlər artır, təhlükələr artır".

Prezidentin məlum fikirləri göstərir ki, Azərbaycan öz təhlükəsizliyini qlobal miqyasda təmin etməkdə qətiyyətlidir və bunun üçün heç bir maddi məsrəfdən çəkinmir. Elə bu səbəbdən də büdcəyə edilən əlavələrdən orduya da böyük vəsaitlərin ayrılması nəzərdə tutulub ki, bunun da dövlətimizin müdafiə qabiliyyətini daha da gücləndirəcəyi şəksizdir.

### Xüsusi təyinatlıların sayı 2 dəfə çoxalıb

Prezident 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan Ordusunun daha da gücləndiyini qeyd edib. Bildirib ki, bugünkü Azərbaycan Ordusu 2020-ci ildə Zəfər çalmış Azərbaycan Ordusundan qat-qat güclüdür.

Doğrudan da, son iki ildə Azərbaycan Ordusunda həyata keçirilən islahatlara nəzər salsaq, ordumuzun həm döyüş hazırlığının, həm də maddi-texniki təminatının daha da yaxşılaşması istiqamətində ciddi addımların atıldığını görərik. Nümunə üçün qeyd edək ki, 44 günlük Vətən müharibəsində böyük şücaətlər göstərən, çətin və mürəkkəb relyefə malik yaşayış məntəqələrinin azad edilməsində qəhrəmanlıqlar sərgiləyən Xüsusi Təyinatlı Qüvvələrin sayı müharibədən sonra iki dəfə artırıldı. Bu, müzəffər Ali Baş Komandanın Xüsusi Təyinatlı Qüvvələrə, onların Vətən müharibəsindəki qəhrəmanlığına necə böyük önəm verdiyini göstərir.

Bundan başqa, Türkiyənin ordu təcrübəsini ciddi şəkildə öyrənən və onu sürətli şəkildə tətbiq edən Azərbaycanda yeni hərbi qüvvələr – Komando Qüvvələri yaradıldı. Buna paralel olaraq dəniz piyadalarının, Naxçıvandakı Əlahiddə Ümumqoşun Ordunun xüsisi təyinatlılarının sayı da əhəmiyyətli dərəcədə artırıldı.

### Vətən müharibəsi əsl sınaq oldu

Vətən müharibəsi ordumuzu, bütövlükdə Azərbaycan Silahlı Qüvvələrini, onun döyüş hazırlığını, texniki təminatını real döyüş şəraitində yoxlamaq baxımından əsl test oldu. Bu sınaq silahlı qüvvələrimizin bütün üstünlükləri ilə yanaşı, həm də ordudakı çatışmazlıqları da aşkara çıxardı. Real döyüş şəraitində özünü o qədər də doğrultmayan, yaxud qismən doğruldan texnikalar daha müasirləri ilə əvəzləndi.

Vətən müharibəsi müxtəlif qoşun növləri arasındakı koordinasiyalı fəaliyyətin nə qədər önəmli olduğunu, bunun qələbəyə necə böyük töhfə verdiyini sübut etdi. Müharibədən sonra müxtəlif qoşun növlərinin birgə təlimlərinin sayı artırıldı, bu sahədə daha böyük və zəngin təcrübəyə nail olundu.

Müharibə zamanı bəzi ermənipərəst dövlətlərin Ermənistana verdiyi hərbi, eləcə də iqtisadi-siyasi dəstək Azərbaycanı Ermənistanla yanaşı, həm də erməni faşizminin havadarı olan qüvvələrlə də mübarizə zərurəti qarşısında qoydu. Amma Azərbaycan bu sınaqdan da qalib çıxdı və sübut etdi ki, ordumuz hər cür təhlükəni dəf etməyə qadirdir. Bununla yanaşı, məhz bu amil müasir dünyamızda hər ötən gün yeni güc əldə etməyin nə qədər vacib olduğunu ortaya qoydu.

Bu gün Azərbaycan ordu quruculuğu sahəsində uğurlara imza atmaqla, məhz bu prinsipi rəhbər tutmaqdadır: Durmadan güclənmək və hər an istənilən gözlənilməzliyə hazır olmaq! Eynilə dövlət başçısının son müsahibəsində dediyi kimi : "Biz hər bir vəziyyətə hər an hazır olmalıyıq!"

***Seymur ƏLİYEV***

# Liderlər əsrinin lideri

**Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Əziz xatirəsi xalqımızın qəlbinə möhkəm həkk olunan, daim uca tutulan və minnətdarlıqla anılan ulu öndərin 100 illik yubileyi ilə əlaqədar Azərbaycan Prezidentinin 29 sentyabr 2022-ci il tarixdə imzaladığı sərəncam millətimizin istəyini ifadə etməklə hər birimizi Heydər Əliyevin keçdiyi şərəfli yola, səmərəli fəaliyyətinə, gördüyü işlərin coğrafiyasına dərindən, əhatəli nüfuz etməyə çağırır.**

Ölkəmizdə elə bir təşkilat yoxdur ki, orada ulu öndərin 100 illik yubileyi ilə əlaqədar onun xoş xatirəsi səmimiyyətlə, minnətdarlıqla anılmasın, elmi konfranslar, seminarlar, müxtəlif anım tədbirləri keçirilməsin. Bu onu göstərir ki, xalqımızın ümummilli lideri həyatımızın hər bir sahəsinin inkişafı üçün heç nəyi əsirgəməmiş, bütün istiqamətlərdə silinməz izlər qoymuşdur.

Bütün ömrünü öz Vətəninin tərəqqisinə, ölkəsinin inkişafına, millətinin, xalqının güzəranının yaxşılaşmasına, qurub-yaratmağa həsr etmiş görkəmli siyasi xadim, dərin zəkaya, heyranedici yaddaşa, mükəmməl biliyə malik, dünya ictimaiyyəti tərəfindən birmənalı qəbul olunmuş ümummilli lider Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsi qədirbilənliklə yad edilir. Ona görə ki, Heydər Əliyev Vətənini, xalqını öz varlığı qədər sevən şəxsiyyətlərdən idi. O, istəyirdi ki, ölkəsinin hər bir vətəndaşı hərtərəfli inkişaf etmiş, dünyagörüşlü şəxs olsun. Bu baxımdan da o, insanların adi davranış qaydalarına riayət etmələrindən tutmuş, ədəbiyyatımızın, mədəniyyətimizin, ana dilimizin, tariximizin, milli musiqimizin incəliklərinə bələd olmalarınadək hər şeyi diqqət mərkəzində saxlayırdı.

Mən ulu öndərin ana dilimizin inkişafı, qorunub saxlanılması barədə qəbul etdiyi bəzi tarixi sənədləri diqqətə çatdırmaq istəyirəm. Heydər Əliyevin 2001-ci il iyunun 18-də imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman, 2001-ci il 9 avqust tarixli "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Fərman, 2002-ci il 30 sentyabr tarixli "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu tarixi sənədlərdir və hər bir azərbaycanlının stolüstü kitabına çevrilmişdir.

Əminliklə demək olar ki, Azərbaycan dili, məhz ulu öndər Heydər Əliyevin 1969-cu ildə siyasi rəhbərliyə gəlişindən sonra dövlət siyasətinə çevrilmişdir. Azərbaycan dilini qoruyub saxlamaq, inkişaf etdirmək, onun mənşəyini, formalaşmasını, sabitləşməsini müəyyənləşdirmək ulu öndərimizin həyat amalı olmuşdur.

Heydər Əliyev Tanrının Azərbaycan xalqına bəxşişi idi. Həyatın, elmimizin, təhsilimizin, səhiyyəmizin mədəniyyətimizin ayrı-ayrı sahələrinə həsr olunmuş mötəbər tədbirlərdə onun çıxışlarına qulaq asanda elə qənaətə gəlirdin ki, o, məhz həmin sahənin görkəmli mütəxəssisidir. Heydər Əliyev ədəbiyyatımızın, mədəniyyətimizin, dilçiliyimizin və digər sahələrin korifeylərinin yaradıcılıqları, keçdikləri yol barədə danışarkən, bir daha əmin olurdun ki, o, dövlət başçısı olaraq fenomenal biliyə, dərin zəkaya, möhkəm yaddaşa malikdir.

Heydər Əliyev canlı salnamə idi. O, tarix yazırdı. Onun fəaliyyətini, keçdiyi yolu izləmək həmin dövrün tarixinə mükəmməl bələdçilik deməkdir. Biz Heydər Əliyev dühasının zənginliklərinə hələ əsrlərlə üz tutacaq, dəyərli fikirlərindən bəhrələnəcəyik.

Misilsiz söz ehtiyatına malik olan ümummilli liderimizin nitqi ahəngdarlığı ilə seçilirdi. Heydər Əliyevi dinləyən hər kəs onun dahiliyini hiss edirdi. Və əlbəttə, bu böyük insan haqqında gözəl təəssüratdan uzun müddət ayrıla bilmirdi.

Azərbaycanın qədim tarixə malik olduğunu sübut etmək, dövlətçiliyimizi möhkəmləndirmək, ölkəmizi dünyaya tanıtdırmaq işində, böyük milli quruculuq yolunda Heydər Əliyevin xidmətləri danılmazdır. O, bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da müstəsna rol oynamışdır.

Bəli, siyasi liderliyə, milli sərkərdəliyə yüksələn, Azərbaycan xalqının gözü qarşısında piranilaşən və əbədiləşən ulu öndərimiz Heydər Əliyev mənəvi zənginliyi, fenomenal biliyi, əqidə saflığı, siyasi möhtəşəmliyi, şəxsiyyət bütövlüyü ilə XX əsr tariximizdə müstəsna yer tutmuşdur.

Ulu öndərimizin təkcə elm və təhsilimizin inkişafı, yaradıcı insanların səmərəli fəaliyyətinə nümunəvi şərait yaradılması istiqamətindəki xidmətlərini yada salmaq kifayətdir ki, onun öz xalqına dayaq olduğunu, dövlət başçısı kimi ölkəsinin bütün istiqamətlər üzrə tərəqqisinin təmin edilməsinə, necə deyərlər, işıq saçdığını görəsən.

Ulu öndər mahir siyasətçi, böyük azərbaycanlı, xalqının şəriksiz lideri olaraq hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. Onun coşqun siyasi fəaliyyəti dünya siyasətçilərinə bir örnək idi. Bu səbəbdən də Heydər Əliyev fenomeni həmişə diqqəti cəlb edib.

Bəli, Heydər Əliyev barəsində siyasət aləminin bütün zümrələrində xoş sözlər deyilmişdir və indi də söylənilir, ayrı-ayrı insanlar, dövlət xadimləri zaman-zaman öz fikirlərini bildirmişlər. Onlardan bir neçəsini diqqətə çatdırırıq...

**Corc Buş, ABŞ-ın sabiq Prezidenti:** "Heydər Əliyevin mövqeyi və göstərdiyi səylər Azərbaycanın iqtisadi inkişafını möhkəmləndirən böyük həcmli xarici sərmayələrin cəlb olunmasında əsas rol oynamışdır. Bu nailliyyətlər milyonlarla azərbaycanlının həyatını yaxşılaşdırmış və Azərbaycanın XXI əsrə müasir dövlət kimi daxil olmasına imkan yaratmışdır."

**Rəcəb Tayyib Ərdoğan, Türkiyə Prezidenti:** "Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün Türk dünyasında tanınan və sevilən bir liderdir".

**Vladimir Putin, Rusiya Federasiyasının Prezidenti:** "Mən Heydər Əlirza oğluna sadəcə münasibət bəsləmirdim, ona məhəbbət bəsləyirdim, ona məhəbbətlə yanaşırdım. Mübaliğəsiz deyə bilərəm ki, o, siyasət nəhəngidir".

**Eduard Şevardnadze, Gürcüstanın sabiq Prezidenti:** "XX əsr liderlər əsridir. Heydər Əliyev XX əsrin lideridir".

**İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti:** "Heydər Əliyevin ideyaları yaşayır, onun siyasəti yaşayır, onun fəlsəfəsi, ideologiyası yaşayır və onun qurduğu, yaşatdığı müasir Azərbaycan yaşayır və onun yolu ilə inkişaf edir".

Ümummilli liderimiz Heydər Əliyevin siyasi, quruculuq, idarəçilik fəaliyyəti barədə dünya siyasətçilərinin, dövlət başçılarının, tanınmış şəxsiyyətlərin deyimləri çoxdur. Və onların hər birində Heydər Əliyevin dahiliyi, XX əsrin lideri, görkəmli siyasətçi olması etiraf edilir. Bəli, Heydər Əliyev kursu mükəmməldir, yenilməzdir. Ulu öndərin bu mükəmməl kursu ümummilli liderimizin layiqli siyasi varisi, Azərbaycan Prezidenti cənab İlham Əliyev müvəffəqiyyətlə davam etdirir. Bəli, yeni əsrin şanlı tarixini isə Heydər Əliyevin həm nəsil, həm siyasi kursunun ən layiqli davamçısı, xalqımızın sevimli oğlu möhtərəm Prezidentimiz İlham Heydər oğlu Əliyev yazır. Özü də qızıl hərflərlə.

Ulu öndərin axıra çatdıra bilmədiyi taleyüklü məsələlərdən ən mühümlərindən biri işğal olunmuş torpaqlarımızın erməni faşistlərinin tapdağından tam azad edilməsi idi. Böyük ruh yüksəkliyi ilə demək istəyirəm ki, ümummilli liderimizin xalqımıza əmanət etdiyi möhtərəm Prezidentimiz İlham Əliyev atasının ona göstərdiyi etimadı çox məharətlə doğruldur və bütün nəsihətlərini zaman-zaman ləyaqətlə həyata keçirməyə ciddi səy göstərir, bu missiyaya zəfərlə nail olur. Otuz il erməni vandallarının işğalı altında qalan ərazilərimiz artıq azad olunmuşdur. 2020-ci ilin sentyabrında başlanan İkinci Qarabağ müharibəsi zamanı dövlət başçımız İlham Əliyevin rəhbərliyi, müzəffər ordumuzun şücaəti, xalqımızın monolit birliyi sayəsində cəmi 44 gündə Ermənistanın hərbi birləşmələri darmadağın edilərək müqəddəs torpaqlarımız nankor hayların caynağından qurtarılmış, şəhidlərimizin qisası alınmışdır. Hazırda Qarabağ torpaqlarımızda genişmiqyaslı möhtəşəm quruculuq işləri aparılır, keçmiş məcburi köçkünlərimiz öz doğma yurdlarına qayıdırlar.



Erməni vandallarının xarabalığa çevirdikləri kənd, rayon və şəhərlərimizdə minalardan təmizləmə işləri aparılaraq xariqələr yaradılır. Həmin şəhər, rayon və qəsəbələrimizdə "ağıllı kənd"lərin salınması, beynəlxalq hava limanlarının tikilməsi, bütün müasir standartlara uyğun magistralların çəkilməsi, mədəni, dini abidələrimizin bərpası, yeni müasir infrastrukturların qurulması ulu öndər Heydər Əliyevin vəsiyyətlərinin yerinə yetirilməsinə, onun ruhuna böyük ehtiram və sədaqətin nümunəsidir.

Mən, bu kiçik məqaləni Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin müzəffər Ali Baş Komandanı İlham Əliyevin 2020-ci il 8 noyabr tarixində Şuşa şəhərinin işğaldan azad olunmasını müqəddəs məkanımız – Bakıdakı Şəhidlər Xiyabanını ziyarət edərkən söylədiyi fikirlərlə tamamlamaq istəyirəm: "Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, ulu öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!"

Ulu öndərimizin ruhu şad olsun!

***AYNEL MƏŞƏDİYEVA,***
***AMEA Nəsimi adına Dilçilik İnstitutunun elmi katibi, filologiya elmləri doktoru, dosent***

# Baş Prokurorluğun ulu öndərə həsr olunmuş Sabirabad konfransı




**Baş Prokurorluğun Azərbaycanda "2023 – Heydər Əliyev İli" çərçivəsində Sabirabad şəhərində keçirdiyi növbəti tədbir "Korrupsiya ilə mübarizədə Heydər Əliyev siyasi irsi" adlı konfransı idi.**

Baş Prokurorluğun qarşısına toplaşıb rayona yola düşdük. Regional konfransda media və QHT nümayəndələri ilə yanaşı, Baş Prokurorluq və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin, ətraf region prokurorluqlarının məsul əməkdaşları, hüquq-mühafizə orqanları və digər dövlət qurumlarının, habelə təhsil müəssisələrinin nümayəndələri də iştirak edirdilər.

Sabirabad Rayon Prokurorluğunun binasında bizi Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov qarşıladı. Sabirabad rayon prokurorunun müavini Rövşən Əmrahov inzibati binanın infrastrukturu barədə məlumat verdi. Girişdə polislərin dayandığı növbətçi hissə, prokurorun köməkçilərinin, müstəntiqin kabinetləri, maddi sübut otağı, kriminalistik avtomobil və avadanlıqlarla tanış olduq. İstintaq hərəkətlərinin keçirilməsi zamanı müasir texnikadan istifadənin əhəmiyyəti izah olundu.

Sabirabad rayon Heydər Əliyev Mərkəzində keçirilən konfransdan əvvəl rayonda aparılmış abadlıq-quruculuq işləri, Heydər Əliyev Muzeyində ulu öndərin zəngin dövlətçilik irsini, həyat və fəaliyyətini özündə əks etdirən fotostendlərlə tanış oluruq. Mərkəzin fondunun baş mühafizi Səlmi Mühtiyeva bildirdi ki, Heydər Əliyev Sabirabada 15 dəfə səfər edib, rayonun problemlərininin həllində birbaşa kömək edib.

Konfransda Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəis müavini Asəf Sarıkişiyev ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə korrupsiyaya qarşı aparılan sistemli mübarizə, həyata keçirilən əsaslı islahatlar, görülən təşkilati və preventiv tədbirlər, prokurorluq orqanlarının üzərinə düşən vəzifələr barədə çıxış etdi. O bildirdi ki, korrupsiya sovetlər dönəmində olduğu kimi, indi də bəlalı problemdir. Rüşvətxorluq kölgə iqtisadiyyatına yol açır, rəqabəti sarsıdır. Korrupsiyaya qarşı mübarizə dövlətin prioritet istiqamətidir.

Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov prokurorluğun bölgələrdə konfranslar təşkil etməsindən, təkliflərin dinlənilməsindən, Heydər Əliyevin korrupsiyaya qarşı mübarizə sahəsində apardığı islahatlardan, tədbirlərdən söz açdı.

Sabirabad rayon icra hakimiyyətinin başçısı Siraqəddin Cabbarov mötəbər tədbirin Sabirabad şəhərində təşkilindən məmnunluğunu ifadə edərək bildirdi ki, illər keçdikcə ulu öndərin dahiliyi, xalqımıza xidmətlərinin qiyməti artacaq. Xoşbəxt millətik ki, Heydər Əliyev və onun ideyaları var.

Milli Məclisin deputatı, Baş Prokurorluğun Anti-Korrupsiya Təlim Mərkəzinin rəhbəri Kamal Cəfərov bildirdi ki, korrupsiyaya qarşı mübarizə istiqamətində Heydər Əliyevin qəti siyasi iradəsi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ümummilli lider üçün korrupsiyaya qarşı mübarizə önəmli məsələ idi. O, korrupsiyanın qarşısının alınmasını dövlətin, xalqın mənafeyinin qorunması kimi qiymətləndirirdi.

Sabirabad rayon prokuroru Fəxrəddin Pənahov qeyd etdi ki, ulu öndər hələ sovetlər dönəmində korrupsiyaya qarşı qətiyyətli mövqeyini ortaya qoymuşdu. Müstəqil Azərbaycana prezidentliyi dövründə isə bu mübarizə daha barışmaz oldu. Hazırda bu siyasət Prezident İlham Əliyev tərəfindən müasir metodlarla həyat keçirilir.

Rayon məhkəməsinin sədri Füzuli Pənahov, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşı Elnur Hüseynov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşı Sevil Rəsulzadə, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvü Zaur İbrahimli ulu öndərin korrupsiyaya qarşı mübarizə təliminin müxtəlif yönlərindən söz açdılar.

Konfransda rayon sakinləri və qonaqların mülahizə və təklifləri də səsləndi.

Xatırladaq ki, Baş Prokurorluq ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı bundan əvvəl, Gəncə, Lənkəran, Şəki, Gədəbəy, Quba, Bərdə və Zaqatala şəhərlərində də regional konfranslar təşkil edib.

***Rizvan FİKRƏTOĞLU,***
***"Xalq qəzeti"***

**30 ildən artıq bir müddətdə Azərbaycan dövlətçiliyinin taleyi və tarixi öz xalqını və Vətənini canından artıq sevən dahi şəxsiyyət, böyük azərbaycanlı Heydər Əliyevin adı ilə bağlı olub. Bu illər xalqımızın milli mənlik şüurunun oyanışı, azadlıq və müstəqillik hissinin güclənməsi, ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatının vüsətli dirçəlişi ilə əlamətdardır.**
**Bu fikirlər ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Zaqatala şəhərində "Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü" mövzusunda keçirilən toplantıda səsləndirilib.**

# Milli intibahın ideya müəllifi




Zaqatala rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə, idarə, müəssisə və təşkilatların rəhbərləri, ziyalılar, ictimaiyyət nümayəndələri əvvəlcə ulu öndərin abidəsi önünə gül dəstələri düzüblər. Sonra onlar Heydər Əliyev Mərkəzi ilə tanış olub, dahi şəxsiyyətə həsr olunan sərgiyə baxıblar.

Məclisdə ulu öndərin xatirəsinə həsr olunmuş film nümayiş olunub.

Toplantıda rayon icra hakimiyyəti başçısının birinci müavini Tofiq Əhmədovun "Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü" mövzusunda məruzəsində vurğulayıb ki, Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yaranıb və milli dövlət quruculuğu, sabitliyin təmin edilməsi prosesi geniş vüsət alıb. Ulu öndər bütün varlığı ilə sevdiyi Azərbaycanın müstəqilliyini möhkəmləndirmək, onu inkişaf etmiş, sivil dünya dövlətləri cərgəsinə çıxarmaq, arzusunda olduğu yeni Azərbaycan yaratmaq naminə var gücü ilə çalışıb.

Toplantıda Milli Məclisin deputatı Kamilə Əliyeva, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, ehtiyatda olan general-leytenant Ehram Hacıyev, rayon ziyalısı Rəfael Məcidov çıxış edərək, ulu öndər Heydər Əliyevin Vətən və xalq qarşısındakı tarixi xidmətlərindən ətraflı bəhs ediblər. Qeyd edilib ki, bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ulu öndərin siyasi kursunu uğurla davam etdirir. Son illərdə əldə etdiyimiz möhtəşəm nailiyyətlər əminliklə deməyə əsas verir ki, ümummilli liderin müəyyənləşdirdiyi və həyata keçirdiyi müdrik siyasi kurs bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam və inkişaf etdirilir. Dövlətimizin başçısının atdığı qətiyyətli və düşünülmüş addımlar Azərbaycan dövlətini qüdrətli və nüfuzlu ölkəyə çevirib.

Toplantı konsert proqramı ilə başa çatıb.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

# Ter-Petrosyan–Simonyan qarşıdurması böyüyür

**Ermənistanın sabiq prezidenti Levon Ter-Petrosyan parlamentin spikeri Alen Simonyanın yaxasından möhkəmcə yapışıb. Görünən odur ki, sabiq prezident Simonyandan asanlıqla əl çəkən deyil. Ter-Petrosyanın qurucusu və lideri olduğu Erməni Milli Konqresinin bu günlərdə yaydığı bəyanatdan da bu qənaətə gəlmək mümkündür.**



Bəyanatda konkret olaraq qeyd olunub ki, bizim bundan sonra MMP-ni (Mülki Müqavilə Partiyası) TMMP (yəni, Tüpürənlərin Mülki Müqavilə Partiyası) adlandırmağa haqqımız var. Sənədin mətnində deyilir: "Erməni Milli Konqresi Ermənistan Respublikasının bütün hüquq-müdafiə təşkilatlarına, siyasi partiyalarına və KİV-nə parlamentin sədri Alen Simonyanın vəzifədən kənarlaşdırılması üçün ictimai platforma yaradılması təşəbbüsü ilə müraciət edir. Sözügedən şəxs Ermənistanın və bütün erməni xalqının reputasiyasına elə alçaldıcı zərbə vurub ki, onun əfv ediləcəyi təqdirdə biz özümüzə dünyanın ən geridəqalmış xalqı kimi ləyaqətsiz damğası vurmuş olacağıq. Tarixdə siyasi rəqiblərini güllələyən, asan, kəsən, hətta yeyən tiranlar çox olub, amma şəhərin mərkəzində yüzlərlə şəxsin gözü qarşısında bir insanın üzünə tüpürmək halı olmayıb. Bu mənada, Alen Simonyanın adı Ginnesin Rekordlar Kitabına düşməyə layiqdir.

Hüquq-müdafiə təşkilatlarına, siyasi partiyalara və KIV-lərə müraciət edərək, biz, şübhəsiz ki, Simonyanın vaxtından əvvəl işdən çıxarılmasının onların yox, ilk növbədə, Mülki Müqavilə Partiyasının problemi olduğunu başa düşürük. Digər tərəfdən, sözügedən tərəf iki həftədən çoxdur ki, bu biabırçı hadisə ilə bağlı susur. Üstəlik, bəzi tanınmış partiya üzvləri, hətta, Simonyanın hərəkətinə haqq qazandırmağa çalışırlar. Bu isə o deməkdir ki, Mülki Müqavilə Partiyasının üzvləri onun alçaq davranışına görə məsuliyyəti lütfkarlıqla öz üzərlərinə götürürlər. Odur ki, bundan sonra hakimiyyətdə olan Mülki Müqavilə Partiyasını TMMP, yəni Tüpürənlərin Mülki Müqavilə Partiyası adlandırmağa haqqımız var. Seçim onlarındır. Əgər onlar bu rolu qəbul edirlərsə, tüpürənlərin "şərəfindən" həzz almağa davam edə bilərlər".

Bəyanatın sonunda deyilir: "Heç şübhəsiz, indiki çətin şəraitdə xalqımız bir çox ontoloji (varlıq) problemlərlə, təhlükəsizliyimizi təhdid edən ciddi xarici çağırışlarla üzləşib ki, buna bizim hakimiyyətin reaksiyası tamamilə qeyri-qənaətbəxşdir. Üstəlik, onların qeyri-adekvat reaksiyası hakimiyyətin səriştəsizliyi ilə yanaşı, təkəbbürlə və xalqımıza qarşı alçaldıcı münasibətlə izah olunur. Alen Simonyanla bağlı baş verən insident bunun ən biabırçı təzahürüdür".

***

Qeyd edək ki, Levon Ter-Petrosyan Ermənistan siyasətçiləri arasında az-çox rasional düşüncəyə malik şəxs hesab olunur. Ölkənin ilk prezidenti (1991-1998) olan Ter-Petrosyan filologiya elmləri doktorudur. Onun erməni dili ilə yanaşı rus, ingilis, fransız, alman, latın, ərəb, assur, qədim yunan və qədim erməni dillərini bildiyi yazılıb.

1997-ci ilin sentyabrında Ter-Petrosyan mətbuat konfranslarından birində Ermənistan üçün mövcud problemləri diqqətə çatdırıb. Status-kvonun saxlanılması, Azərbaycanın bir hissəsinin Ermənistan tərəfindən işğalı, çadır şəhərciklərində yaşayan yüz minlərlə azərbaycanlı qaçqının olması, Ermənistanın Azərbaycan tərəfindən blokadaya alınması (?) və beynəlxalq ictimaiyyətin davamlı təzyiqləri bunlardandır. O deyib: "Bu, Bosniyada baş verib. Serblər hər şeyi itirdilər. Mən status-kvonun saxlanmasının məqsədəuyğun variant olduğunu düşünmürəm. Biz bir-iki il israr edə bilərik, lakin beynəlxalq ictimaiyyət qıcıqlanacaq və səbri tükənəcək".

O, həmçinin Qarabağın "tam müstəqil dövlət kimi" tanınması və ya Ermənistana birləşdirilməsi variantını da rədd edib: "Bu cür addımlar mahiyyət etibarilə həm Azərbaycan, həm də bütün dünya üçün ultimatum olacaq". Ter-Petrosyan Qarabağın Azərbaycanı birtəhər ondan əl çəkməyə məcbur etməsi üçün müharibənin bərpası variantını da doğru saymadığını vurğulayıb: "Əgər Qarabağ hakimiyyəti, heç olmasa, daha bir rayonu ələ keçirməyə cəhd etsə, o zaman Bakını demirəm, dünya buna dözməz".

Ter-Petrosyan bu qənaətə gəlib ki, yeganə variant addım-addım sülhə doğru irəliləməkdir. Onun kompromisə doğru hərəkəti Azərbaycan üçün də məqbul idi. Bu mövqe Qarabağdakı separatçı rejimlə Ter-Petrosyan arasında münasibətlərdə soyuqluq yaranmasına səbəb olub. Separatçı rejim ATƏT-in Minsk qrupunun razılaşmasının əsas prinsiplərini rədd edib. Ermənistanda 1997-ci ilin sonları və 1998-ci ilin əvvəllərində hakimiyyətdaxili gərgin mübarizə başlayıb. Ter-Petrosyanın belə açıq danışması və Qarabağın bunu rədd etdiyi halda Ermənistanın addım-addım həll yoluna meyl edə biləcəyinə dair eyhamı 1998-ci ilin fevral ayının əvvəlində onun istefası ilə yekunlaşan siyasi böhrana gətirib çıxarıb. Beləliklə, Ter-Petrosyan 1998-ci il fevralın 3-də ölkə prezidentliyindən istefa verməyə məcbur olub. Qarabağdakı rejimin keçmiş "qlavar"ı, həmin dövrdə Ermənistanın baş naziri olan Robert Koçaryan, müdafiə naziri Vazgen Sarkisyan və daxili işlər və milli təhlükəsizlik naziri Serj Sarkisyan Ter-Petrosyanın Dağlıq Qarabağ münaqişəsinin həlli üçün təklif etdiyi, münaqişə zonasının demilitarizasiyasını və 1992-94-cü illərdə hərbi əməliyyatlar zamanı işğal edilmiş bir sıra yaşayış məntəqələrinin Azərbaycana qaytarılmasını nəzərdə tutan planı rədd ediblər. Koçaryanın başçılığı ilə yeni hökumət qurulub, həmin ilin martında isə o, ölkənin yeni prezidenti seçilib. Ermənistan hökuməti, demək olar ki, Qarabağ məsələsində dərhal daha sərt mövqe tutub.

***

Maraqlıdır ki, Ter-Petrosyan Ermənistandakı bir sıra siyasi qüvvələrlə yanaşı, hazırkı baş nazir Nikol Paşinyanın da "xaç atası" sayılır. N.Paşinyan 2008-ci ildə prezidentliyə namizəd Levon Ter-Petrosyanın seçki qərargahının üzvü olub. O, Erməni Milli Konqresinin blokundan proporsional seçki sistemi ilə 2012-ci ildə Ermənistan parlamentinə deputat seçilib. 2013-cü ildə Erməni Milli Konqresi Ter-Petrosyanın rəhbərlik etdiyi eyniadlı partiyaya çevrilib. Paşinyan konqres rəhbərliyi ilə konfliktə görə (xüsusən də konqresin qarşıdan gələn prezident seçkilərində öz namizədini irəli sürməmək qərarına görə) yeni təşkilata qoşulmaqdan imtina edib. Eyni zamanda o, formal olaraq Erməni Milli Konqresinin parlament fraksiyasının üzvü olaraq qalıb. 2015-ci ildə isə Paşinyan Mülki Müqavilə Partiyasının qurucularından olub.

***

Ter-Petrosyan bir vaxtlar Cənubi Qafqazdakı siyasi və iqtisadi tendensiyalara ayıq, realist baxışlar sərgiləyib. Təbii sərvətləri olmayan Ermənistanın neft-qazla zəngin Azərbaycanla toqquşmasının İrəvan üçün fəlakətlə nəticələnəcəyini söyləyib. Ancaq Koçaryan və Sarkisyan Ter-Petrosyanı devirərək öz mənfəətləri üçün erməni xalqını bəlalara düçar ediblər. İndi isə eks-prezident hakim siyasi zümrənin erməni xalqının üzləşdiyi çətinliklərə reaksiyasının tamamilə qeyri-adekvat olduğunu, səriştəsizlik, təkəbbür nümayiş etdirdiyini və xalqı aşağıladığını bildirir. Ter-Petrosyanın birinci proqnozunun gerçəkləşməsi üçün təxminən 22 il lazım oldu. Ermənistanın indiki hakimiyyətinin getdiyi "sürəti" nəzərə aldıqda Ter-Petrosyanın budəfəki proqnozunun daha tez həyata keçəcəyini deyə bilərik.

*Səxavət HƏMİD,*
*"Xalq qəzeti"*

### Ekspert rəyi

**Aydın QULİYEV,**
**politoloq**



Ter-Petrosyan, təbii ki, təcrübəli və məntiqli siyasətçidir. O, xüsusilə hakimiyyətinin son illərində Ermənistanın problemlərinə nisbətən ağıllı və məntiqli yanaşa bilirdi. 1997-ci ildə Qarabağ probleminin gələcəyi ilə bağlı Ter-Petrosyan perspektivli mövqedə idi və ermənilərə sonu olmayan yoldan qayıtmağı, problemin həllində mümkün qədər real mövqe tutmağı və konkret şəkildə Azərbaycan torpaqları ilə bağlı iddiaları geri götürərək Bakı ilə əməkdaşlığa getməyi tövsiyə edirdi. Təbii ki, o vaxt onu bu tövsiyələrinə görə devirdilər. Amma tarix Ter-Petrosyanın haqlı olduğunu göstərdi.

Bununla belə, Ter-Petrosyanın Paşinyan iqtidarının sosial-iqtisadi problemlərinə dair ortaya qoyduğu proqnozların özünü doğrulda biləcəyini düşünmürəm. Çünki Ermənistan kasıb ölkədir, təcrid vəziyyətindədir. Bu ölkədə sosial-iqtisadi problemlərin həllində heç bir iqtidar böyük nəticələr əldə edə bilməz. Hətta, Ermənistanda hakimiyyət dəyişsə və yeni qüvvə gəlsə belə, onlar da ölkənin problemlərini uğurla həll edə bilməyəcəklər. Çünki ölkə özü qapalı şəraitdədir. Bunu Ermənistanın bütün düşüncəli adamları başa düşürlər.

### Türkiyədən məktub

**"Ermənistanda keçirilən idman mərasimində Azərbaycan Bayrağının yandırılması beyni türk soyuna qarşı zəhərləndirilmiş ermənilərin törətdikləri növbəti vəhşilikdir. Ən pisi də odur ki, baş nazir Nikol Paşinyan iştirak etdiyi həmin tədbirdə əksəriyyət görünməmiş vandallığı alqışladı və bu rüsvayçılığa ictimai məzmun verdi, rəsmi rəng qatdı".**

***Ermənistanın paytaxtı İrəvanda ağır atletika üzrə Avropa Çempionatının açılış mərasimində Azərbaycan Bayrağının yandırılmasına münasibət bildirən ehtiyatda olan türk generalı Yücel Karauz "Xalq qəzeti"nə bu açıqlamasının davamında söylədi:***

mənsubunun, yaxud sadə vətəndaşın belə durumda müxtəlif səbəblərlə ələ keçirilməsi onu hərbi əsir vəziyyətinə gətirir. Beynəlxalq hüquqa görə, hərbi əsirə işgəncə, pis rəftar, psixoloji təzyiq göstərilə bilməz. Bu qayda 1907-ci il Lahey və 1949-cu il Cenevrə sazişlərində öz əksini tapıb.

# Ermənistanda törədilən vəhşilik milli natamamlıq göstəricisidir



– Bundan tamamilə fərqli olaraq, bir neçə il öncə Prezidenti İlham Əliyev Bakıda keçirilən Avropa Oyunları zamanı, özü də Azərbaycan torpaqlarının hələ də işğal altında olduğu, BMT qətnamələrinə məhəl qoyulmadan ölkənizə qarşı təcavüzkar siyasətin davam etdiyi bir vaxtda erməni əsilli idmançının əlini sıxıb onu mükafatlanırdı. O zaman nəhəng salon Azərbaycan Prezidentinin yüksək alicənablığını alqışlamaqla xalqınızın da bəşəri dəyərlərə sadiqliyini nümayiş etdirdi.

***General, eyni zamanda, Ermənistanda əsir götürülən Azərbaycan əsgəri Hüseyn Axundova qarşı ermənilərin tətbiq etdiyi ağır işgəncələrə də toxundu:***

– Azərbaycanla Ermənistan arasında atəşkəs müqaviləsi olsa da, sülh əldə olunmayıb. Azərbaycanla sərhədlərdə savaş vəziyyəti var. Bir ordu

Ermənistanın etdiyi bu vəhşilik ifrat millətçiliyə yoluxmuş bir toplumun dünyaya baxışlarının nümayişidir. 44 günlük savaş zamanı Azərbaycan erməni əsirlərinə humanist davrandığı halda, Ermənistanın sərgilədiyi vandal münasibət göz önündədir. Son günlər baş vermiş hər iki hadisə Ermənistanın bəşəri dəyərlərə və beynəlxalq hüquqa dövlət səviyyəsində göstərdiyi hörmətsizliyi bir daha təsdiqlədi.

***Yücel Karauz bu günə qədər Qərb dövlətlərinin bu məsələyə heç bir reaksiya göstərmədiklərinə də diqqət çəkdi:***

– İstər Azərbaycan vətəndaşına qarşı bu vəhşi davranış, istərsə də Azərbaycan dövlətinin rəmzi atributunun yandırılması kimi qeyri-insani və hüquqdan kənar hərəkətlərə Qərbin səssiz qalması daha bir ikiüzlülük nümayişidir. Bu üzdəniraq, beynəlxalq hüquqa zidd olan hərəkətlər Azərbaycan tərəfindən törədilmiş olsaydı (təbii ki, bu gözlənilən bir hal deyil), Qərb dövlətləri "insan haqları pozuldu" – deyib qalmaqal qoparardılar.

Həmsöhbətim fikirlərini belə bitirdi: "Ermənistanda törədilən vəhşilik milli natamamlıq göstəricisidir. Bu toplumun çoxsaylı vandallıq aksiyaları kimi, son iki vəhşiliyini də unutmaq olmaz.

***Mehparə SULTANOVA***

**Ankara**

# Daşnak deputat Vaşinqtonda İrəvanı ittiham etdi

**"Daşnaksütyun" partiyasının rəsmi təmsilçisi, deputat İşxan Saqatelyan Vaşinqtona səfərində İrəvandakı mövcud hakimiyyətin antimilli siyasəti nəticəsində daşnakların ölkədən uzaqlaşdırıldığını bəyan edib.**

Ölkə daxilində və xaricdə dayaqları laxlamış separatçı-terrorçu "Daşnaksütyun" partiyası emissarını ABŞ-a göndərib. Axı, dünyadakı erməni lobbiçilərinin koordinasiyası mərkəzi, qərargahı hesab olunan Amerika Erməniləri Milli Konqresi (ANCA) məhz orada yerləşir. Elə daşnak Saqatelyanın "zəngin səfər proqramı" barədə məlumatı ANCA yayıb. Məlumatda deyilir ki, irəvanlı qonaq onlarla ABŞ Konqresinin Azərbaycana qarşı tətbiq etdiyi "Azadlığa dəstək Aktı"na "907-ci düzəliş"in saxlanması, ABŞ-n Azərbaycana hərbi yardımının dayandırılması, hətta onun hərbi rəhbərliyinə sanksiyaların tətbiqi məsələlərini müzakirə edib.

Əslində, İşxan Saqatelyan hazırda müxalifətin Paşinyana qarşı əsas alternativ kimi irəli sürməyə çalışdığı şəxsdir. Onun son zamanlar Qərbə artan səfərlərinə məhz bu prizmadan yanaşmaq daha doğru olardı. Vaşinqton səfərindən bir qədər əvvəl Avropa turnesinə çıxan Saqatelyanın buradakı erməni lobbisindən dəstək almağa çalışdığı bildirilir.

Yeri gəlmişkən, onu da diqqətə çatdıraq ki, yerli erməni ekspertlərinin etirafına görə, ABŞ-ın dəstəyi ilə Azərbaycan enerji təchizatı və təhlükəsizliyi layihələrində etibarlı tərəfdaş kimi Avropada öz mövqelərini daha da möhkəmləndirir. Bu, eləcə də digər müstəvilərdə Bakının Qərblə uğurlu əməkdaşlığı Ermənistanın Azərbaycana qarşı sanksiya kimi təzyiq rıçaqından istifadə cəhdlərinin qarşını alır. Fəqət, Vaşinqton İrəvanın sanksiya çağırışını rədd etsə də, o, Bakıya qarşı dezinformasiya siyasətindən, anti-təbliğatından əl çəkmək istəmir.

Daşnakların təşəbbüsü və ANCA-nın yaxından dəstəyi ilə cari ilin fevral ayında ABŞ Konqresinin Nümayəndələr Palatasına Laçın yolunun Azərbaycan tərəfindən "blokada"ya alınması ilə bağlı qətnamə layihəsi təqdim edilib. Həmin qətnamədə "Azərbaycanın məsuliyyətə cəlb edilməsinin zəruriliyi" yer alıb. Üstəlik, mətndə ABŞ-ın Azərbaycana bütün hərbi yar-



dımını dərhal dayandırmaq və "Azadlığa dəstək Aktı"na "907-ci düzəlişi" tətbiq etmək çağırışı da var. İntəhası, Konqresdə bu layihəyə nə vaxt baxılacağı bəlli deyil.

Ermənistan parlamentinin deputatı İşxan Saqatelyan özünün "Facebook" səhifəsində "maraqlı" açıqlama yayıb. O, yazır ki, İrəvandakı mövcud hakimiyyətin antimilli siyasəti nəticəsində diaspora ölkədən uzaqlaşdırılır. "Birləşmiş Ştatlara 10 günlük işgüzar səfərimin nəticələrinə yekun vuraraq, onu da qeyd etməyi zəruri sayıram ki, müharibədən sonra Ermənistanda yaranmış vəziyyətə görə diaspora məyusluq və qeyri-müəyyənlik içindədir. İndi dünyadakı erməni diasporasının potensialından və imkanlarından nəinki tam istifadə edilmir, əksinə, mövcud hakimiyyətin antimilli siyasəti nəticəsində onlar ölkədən uzaqlaşdırılıb".

Beynəlxalq təşkilatların qara siyahılarında terrorçu təşkilat kimi qeyd olunan ASALA-nın ideoloqu "Daşnaksütyun" partiyası bütün fəaliyyətini Azərbaycana qarşı yönəltsə də, bunun heç bir fayda verməyəcəyi indidən məlumdur. Bu həqiqəti daşnak-deputatın Amerikada "baqaja qoyduğu" rəsmi İrəvan kimi, hələ də "Miatsum" bağıran, revanş xülyasından əl çəkməyən erməni lobbiçiləri və diasporaçıları nə qədər tez anlasalar, xalqının əzablarını bir o qədər azaltmış olarlar.

***İ.HƏSƏNQALA,***
***"Xalq qəzeti"***

### Ekoaksiyanın gündəliyi

# Humanitar yüklərə maneə yoxdur

**Dünən səhər tezdən Şuşadan keçən Laçın–Xankəndi yolunda Beynəlxalq Qızıl Xaç Komitəsinə (BQXK) məxsus avtomobillərin, eləcə də humanitar yüklü maşınların hərəkət etməsinə növbəti dəfə şərait yaradılıb.**

Qeyd edək ki, Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarı əleyhinə Laçın–Xankəndi yolundakı etiraz aksiyası 129 gündür davam edir. 2020-ci ilin payızında Azərbaycan xalqının igid əsgər və zabitləri əzəli və əbədi torpaqlarımız olan Qarabağı düşməndən azad ediblər. Lakin Xankəndi və onun ətrafındakı ərazilərdə Azərbaycan Respublikasına məxsus faydalı qazıntı yataqlarının hələ də qanunsuz istismarı davam etdirilir.

Şuşa ərazisində Rusiya sülhməramlılarının nəzarətində olan yolun bir hissəsində etiraz aksiyası azərbaycanlı fəallar və ekologiya üzrə qeyri-hökumət təşkilatlarının (QHT) üzvləri tərəfindən Qarabağ iqtisadi rayonunda ekoloji terrora son qoyulması tələbi ilə keçirilir.

Bu günlərdə könüllü olaraq etiraz aksiyasına qoşulan "Optimist" Sosial Problemlərin Həllinə Yardım" ictimai birliyinin sədri Habil Niftalı bizimlə telefon söhbəti zamanı bildirdi ki, tədbir iştirakçıları öz haqlı tələblərinin yerinə yetirilməsini sonadək tələb etmək əzmindədirlər. QHT fəalı sonra bunları dedi:

– Müstəqil Azərbaycan sivil, demokratik dövlətdir. Biz qanuni haqqımızı tələb edirik. Ölkəmizin ərazisində yerləşən faydalı qazıntı yataqlarının qeyri-qanuni istismarı təcili surətdə dayandırılmalıdır. Azərbaycan dövləti və xalqı haqlı olaraq beynəlxalq hüququn tələblərinin yerinə yetirilməsini qətiyyətlə tələb edir.

H.Niftalı həmçinin vurğuladı ki, Qərbdəki bəzi ermənipərəst qüvvələr Şuşadan



keçən Laçın-Xankəndi yolunda keçirilən etiraz aksiyalarının mahiyyətini təhrif edir, ölkəmizə qarşı böhtan və iftira kampaniyası aparırlar. Bu, yolverilməzdir. Azərbaycana qarşı təzyiq göstərmək mənasızdır.

Xatırladaq ki, 2022-ci il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb.

**P.S.** Dünən saat 15:00 radələrinə qədər Laçın–Xankəndi yolundan humanitar yüklü 66 avtomobil sərbəst hərəkət etmişdir.

***M.HACIXANLI,***
***"Xalq qəzeti"***

# Prezidentin köməkçisi Balaxanı qəsəbəsində rus icmasının nümayəndələri ilə görüşüb

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, Azərbaycan Prezidentinin köməkçisi - Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyevin iştirakı ilə Sabunçu rayonunun Balaxanı qəsəbəsindəki rus qəbiristanlığına baxış keçirilib.**

Z.Nağdəliyev yerində sakinlərlə, o cümlədən rus icmasının nümayəndələri ilə görüşüb.

Tapşırığa uyğun olaraq ərazidə abadlıq işlərinə başlanılıb, su xəttinin çəkilməsi ilə əlaqədar aidiyyəti qurumlara müraciət edilib, sındırılmış məzar daşlarının yenisi ilə əvəz olunmasına, habelə mühafizə məqsədilə qəbiristanlığın hasarlanmasına qərar verilib.

Məsələ ilə əlaqədar Daxili İşlər Nazirliyi tərəfindən cinayət işi açılıb və araşdırmaya başlanılıb.

# Azərbaycanın Rus İcması bəyanatla çıxış edib

**Azərbaycanın Rus İcması Zabrat-1 və Balaxanı qəsəbələri arasında yerləşən Zabrat qəbiristanlığında yaranmış vəziyyətlə bağlı bəyanatla çıxış edib.**

**Bəyanatda deyilir:** "Rus İcmasına Zabrat-1 və Balaxanı qəsəbələri arasında yerləşən Zabrat qəbiristanlığında yaranmış vəziyyətlə bağlı bir neçə müraciət daxil olub. Şahidlər tərəfindən vandalizm aktları, qəbirlərin dağıdılmış və aşırılmış qəbirüstü plitələrinin fotomaterialları təqdim edilib. Bundan başqa, bir neçə hallarda yaqin ki, qohumlar tərəfindən əkilən ağaclar və kollar kökündən çıxarılıb, çəpərlər söküləb".

Bəyanatda vurğulanıb ki, baş verənlər hiddət doğurur və təəccüblü deyil ki, bu, tolerant və multikultural Azərbaycan cəmiyyətində ictimaiyyət arasında və kütləvi informasiya vasitələrində narahatlıq yaradıb. Azərbaycanın Rus İcması tördilmiş vandalizm aktını qətiyyətlə pisləyir və baş verən hadisəyə göstərdiyi diqqətə görə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya dərin minnətdarlığını bildirir.

"Hörmətli Mehriban Əliyevanın tapşırığına əsasən, Azərbaycan Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyevin iştirakı ilə artıq Sabunçu rayonunun Balaxanı qəsəbəsində rus qəbiristanlığına baxış keçirilib. Vurğulanıb ki, bütün qəbirüstü plitələr yenidən bərpa ediləcək", – deyə bəyanatda deyilir.

Bəyanatda vurğulanır ki, bu gün Azərbaycanın baş prokurorunun birinci müavini Elçin Məmmədov Rus İcmasının sədri, Milli Məclisin deputatı Mixail Zabelinlə əlaqə saxlayıb və ona qəbiristanlıqda vandalizm aktları ilə bağlı bütün hadisələrin təhqiqi üzrə istintaq qrupunun yaradıldığı barədə məlumat verib. Bildirilir ki, Azərbaycan Respublikasının baş prokuroru və daxili işlər naziri istintaq aparırlar.

"Azərbaycanın Rus İcması istintaqın gedişini izləməkdə davam edəcək və cəmiyyəti məlumatlandıracaq", – deyə bəyanatda qeyd olunub.

# Polşa–Azərbaycan: parlamentlərarası münasibətlər getdikcə yaxşılaşır



**Milli Məclisin sədri Sahibə Qafarova Polşa Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkə Seyminin sədri Elzbieta Vitek ilə görüşüb. Seymin sədri ölkələrimiz və qanunverici orqanlarımız arasında münasibətlərdən razılığını ifadə edib. O, bu səfərin parlamentlər arasında əlaqələrin dərinləşməsinə töhfə verəcəyinə inamını ifadə edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən redaksiyamıza verilən məlumata görə, Seymin sədri parlament diplomatiyasının beynəlxalq münasibətlərdə mühüm rolunu qeyd edərək, bu mənada qanunvericilik orqanları arasında əməkdaşlığın əhəmiyyətini vurğulayıb. O, Azərbaycanın Polşa üçün dost ölkə olduğunu, müxtəlif sahələrdə əməkdaşlığın genişləndiyini bildirib.

Milli Məclisin sədri ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edib və bunu ikitərəfli əməkdaşlığın bütün sahələrdə inkişafı ilə əlaqələndirib. O, Azərbaycan Prezidenti İlham Əliyevin Polşaya, Polşa Respublikası dövlət başçılarının Azərbaycana səfərlərini xatırladıb və bunun ölkələrimiz arasında əlaqələrin inkişafında xüsusi əhəmiyyət kəsb etdiyini bildirib.

Ötən il Azərbaycanla Polşa arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünün tamam olduğunu xatırladan S.Qafarova deyib ki, xalqlarımız arasında dostluq və əməkdaşlıq ənənələrinin tarixi daha genişdir: "Azərbaycanın Polşa ilə əlaqələri həm ikitərəfli qaydada, həm də Avropa İttifaqı çərçivəsində inkişaf edir. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətinin prioritetlərindən biridir və Azərbaycan Avropa üçün etibarlı tərəfdaşdır. Bu səfər parlamentlər arasında olan münasibətlərə daha bir təkan olacaq".

Görüşdə qarşılıqlı maraq kəsb edən digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

# Polşa Seymində "Azərbaycanda Polşa irsinin inciləri" sərgisi

**Milli Məclisin sədri Sahibə Qafarova və Polşa Seyminin sədri Elzbieta Vitek Varşava şəhərində Polşa Seymində təşkil olunan "Azərbaycanda Polşa irsinin inciləri" sərgisində iştirak ediblər. E.Vitek, bu cür tədbirlərin münasibətlərin inkişafına töhfə verdiyini, xalqların daha da yaxınlaşmasına və mədəni dəyərlərinin təbliğ olunmasına imkan verir.**

Sahibə Qafarova Şərqlə Qərbin qovuşduğu Azərbaycanın çoxsaylı mədəniyyətlərin vətəni olmasından söz açıb. Deyib ki, Azərbaycanda böyük sivilizasiyalar mövcud olmuş, milli mənsubiyyətindən asılı olmayaraq, multikulturalizm və tolerantlıq hər bir azərbaycanlının həyatının ayrılmaz hissəsinə çevrilmişdir. Məhz bu fonda Azərbaycanda mövcud olan 200 illik polyak mirasını xüsusi vurğulayan S. Qafarova polyakların tarixən Azərbaycanda memar, hüquqşünas, mühəndis, müəllim, həkim, sahibkar və dövlət xadimi kimi fərqləndiklərini qeyd edib.

*

Milli Məclisin sədri Sahibə Qafarova Polşa Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkə Senatının sədri Tomaş Qrodzki ilə görüşüb. Görüş zamanı iki ölkə arasında münasibətlərin inkişafından danışılıb. Qeyd edilib ki, Polşa Azərbaycanla münasibətlərin inkişafına böyük əhəmiyyət verir. Azərbaycan və Polşa arasında bir çox sahələri əhatə edən əlaqələr mövcuddur. Dost və tərəfdaş ölkələr müsbət dialoq digər sahələrdə də əməkdaşlıq üçün yaxşı imkanlar yaradıb.

Polyaklar hələ onilliklər əvvəl Azərbaycanda sülh şəraitində yaşayıb, fəaliyyət göstəriblər. Eyni zamanda, Polşa ədəbiyyatında Azərbaycan haqqında əsərlər, məlumatlar dərc olunub. Xalqlar arasında dostluq münasibətləri möhkəm əsaslara malikdir.

Görüşdə iki ölkə arasında siyasi, iqtisadi sahədə olduğu kimi, humanitar sahədə də əlaqələrin yaxşı səviyyədə olduğu qeyd edilib. Humanitar sahədə əlaqələr xalqlarımızın daha da yaxınlaşmasına xidmət edir.

**Əliqismət BƏDƏLOV, "Xalq qəzeti"**

## XRİTDX: İlin birinci rübündə 15 saxta domenin ölkə üzrə fəaliyyətinin qarşısı alınıb

**Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) bu ilin birinci rübündə dövlət qurumları domenlərinə (gov.az) bənzədilmiş 15 saxta domenin ölkə üzrə fəaliyyətinin qarşısını kiber-kəşfiyyat imkanlarından istifadə etməklə alıb.**

XRİTDX-nin mətbuat xidmətindən bildiriblər ki, nəticədə hakerlər tərəfindən xüsusi hədəflənmiş kiberhücum hazırlıqlarında onların dövlət qurumlarının adından istifadə etməsi planları pozulub və kiberhücum cəhdlərinin qarşısı qabaqlayıcı tədbirlərlə alınıb.

# İran mətbuatında Prezident İlham Əliyevin müsahibəsi ilə bağlı məqalələr yayımlanıb

**Azərbaycan Prezidenti İlham Əliyevin Salyan şəhərinə səfəri çərçivəsində Azərbaycan Televiziyasına verdiyi müsahibə İranın kütləvi informasiya vasitələrinin diqqətində olub.**

İranın "Jadidpress", "İRNA", "Mashreghnews", "Entekhab", "Noandish", "Parstoday" saytları dövlətimizin başçısının müsahibəsində səsləndirdiyi fikirlərin əsas məqamlarına toxunub. Materiallarda qeyd olunub ki, Prezident İlham Əliyev Qarabağın Azərbaycan ərazisi olduğunu bəyan edib və burada yaşayan ermənilərin Azərbaycan vətəndaşları olduğunu deyib.

Yazılarda Prezident İlham Əliyevin "Qarabağ bizim daxili işimizdir. Qarabağda yaşayan ermənilər ya Azərbaycan vətəndaşlığını qəbul etməlidirlər, ya da ki, özləri üçün başqa yaşayış yeri tapmalıdırlar" ifadəsi xüsusilə diqqətə çatdırılıb.

# Azərbaycan və İsrail xarici işlər nazirlərinin görüşü




**Xarici İşlər Nazirliyindən redaksiyamıza verilən məlumatda bildirilib ki, dünən xarici işlər naziri Ceyhun Bayramov Azərbaycana səfəri çərçivəsində İsrail Dövlətinin xarici işlər naziri Eli Kohenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Söhbətdə iki ölkə arasında ikitərəfli və çoxtərəfli çərçivədə əməkdaşlığın mövcud səviyyəsindən məmnunluq ifadə olunaraq, ölkəmizin İsrail Dövləti ilə müxtəlif sahələrdə əlaqələrin inkişafına və uğurlu əməkdaşlığın genişləndirilməsinə böyük əhəmiyyət verdiyi diqqətə çatdırılıb. Bakıda keçirilən Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın fəaliyyəti təqdir edilib və münasibətlərin daha da şaxələnməsinə töhfə verəcəyinə əminlik ifadə olunub.

Görüşdə ölkəmizin İsraildə səfirliyinin açılmasının son 30 ildə inkişaf edən və yeni keyfiyyət mərhələsinə qədəm qoyan Azərbaycan–İsrail münasibətlərinin gücləndirilməsinə töhfə verəcəyinə əminlik ifadə olunub, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparılıb.

Sonda nazirlər "Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında 2023–2026-cı illər üçün Təhsil sahəsində əməkdaşlıq proqramı"nı imzalayıblar.

# "Ermənistan XİN-in bəyanatı riyakarlıq və saxtakarlıq nümunəsidir"

**XİN-dən redaksiyamıza daxil olmuş bu başlıqlı şərhdə isə bildirilib: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü il aprelin 18-də verdiyi müsahibəyə istinadən Ermənistan Xarici İşlər Nazirliyinin növbəti dəfə təhrif dolu bəyanatını qətiyyətlə rədd edirik".**

XİN-in şərhində daha sonra göstərilib ki, 30 ilə yaxın işğal dövründə 9 şəhər və yüzlərlə kəndi talan edən, 1 milyona yaxın azərbaycanlıya qarşı etnik təmizləmə həyata keçirən Ermənistanın özünü sülhpərvər tərəf kimi göstərməsi və Azərbaycanı etnik təmizləmədə ittiham etməsi riyakarlıq və saxtakarlıq nümunəsidir. İrəvanda ağırlıqqaldırma üzrə Avropa çempionatında Dövlət bayrağımızın yandırılmasından da göründüyü kimi, ölkəmizə qarşı nifrət zəminində irqi ədavətin təşviq olunmasını davam etdirən Ermənistanın Azərbaycanın, guya, nifrət zəminində hərəkətlər etməsinə dair iddiasının heç bir əsası yoxdur. Azərbaycan tərəfi ölkəmizin ərazisində yaşayan erməni sakinlərin reinteqrasiyası prosesində qərarlıdır.

Əlverişsiz hava şəraitində Ermənistan ərazisinə keçən və əsir götürülmüş, beynəlxalq humanitar hüquq prinsiplərinə zidd olaraq qeyri-insani zorakılığa məruz qalmış Azərbaycan hərbçilərinin Ermənistan Xarici İşlər Nazirliyi tərəfindən heç bir hüquqi əsas olmadan insan öldürülməsində ittiham edilməsi hüququn bütün norma və prinsiplərinə ziddir.

Xarici İşlər Nazirliyinin şərhinin sonunda bildirilib ki, Azərbaycan ərazi bütövlüyü və suverenlik prinsipləri əsasında Ermənistanla sülh sazişini imzalamağa hazırdır. Bunun üçün Ermənistan tərəfi Azərbaycana qarşı ərazi iddialarından əl çəkməli və birmənalı olaraq Qarabağın Azərbaycan ərazisi olduğunu qəbul etməlidir.

**"Xalq qəzeti"**

# Bakıda Azərbaycan–İsrail biznes forumu keçirilib

**İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin – AZPROMO-nun təşkilatçılığı ilə Bakıda Azərbaycan–İsrail biznes forumu keçirilib.**

Azərbaycan və İsrail arasında Birgə Komissiyanın həmsədri, iqtisadiyyat naziri Mikayıl Cabbarov biznes forumun, həmçinin iş adamları arasında keçirilən müxtəlif görüş və tədbirlərin aktual məsələlərin müzakirə edilməsi, prioritet əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi və işgüzar dairələr arasında yeni əlaqələrin qurulması baxımından önəmini vurğulayıb. Qeyd olunub ki, ölkələrimiz arasında möhkəm ikitərəfli dostluq münasibətləri, yüksək səviyyəli siyasi əlaqələr iqtisadi əməkdaşlığın dinamik inkişafına əlverişli şərait yaradır.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiya, həmçinin İsrail–Azərbaycan Ticarət və Sənaye Palatası ölkələrimiz arasında iqtisadi-ticarət tərəfdaşlığının inkişafı baxımından əhəmiyyət kəsb edir. Azərbaycanda müxtəlif sahələr üzrə çoxsaylı İsrail şirkətləri fəaliyyət göstərir, bir sıra önəmli layihələr həyata keçirilir. İsraillə enerji, ticarət, sənaye, kənd təsərrüfatı, innovasiyalar, infrastruktur, əczaçılıq, turizm və digər sahələr üzrə əməkdaşlığın inkişafı üçün geniş imkanlar olduğu diqqətə çatdırılıb, israilli sahibkarların ölkəmizdə biznes təşəbbüslərinin yüksək qiymətləndirildiyi və dəstəkləndiyi bildirilib.

Birgə Komissiyanın həmsədri, İsrailin xarici işlər naziri Eli Kohen ölkələrimizin müxtəlif sahələrdə səmərəli əməkdaşlıq etdiyini, Azərbaycanda həyata keçirilən layihələr, ölkəmizin unikal coğrafi mövqeyi və iqtisadi sabitliyin İsrail şirkətləri üçün əhəmiyyətli əməkdaşlıq və investisiya mühiti yaratdığını vurğulayıb. Qeyd olunub ki, İsraildə Azərbaycan səfirliyinin açılması ölkələrimiz arasında əlaqələrin daha yüksək səviyyəyə çatmasına əlavə imkanlar yaradır.

Tədbirdə Azərbaycan və İsrailin investisiya layihələri barədə təqdimatlar nümayiş etdirilib, B2B və B2G formatda görüşlər keçirilib.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 116** **Bakı şəhəri, 15 aprel 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164; 2018, № 3, maddə 586, № 9, maddə 1904, № 10, maddə 2169, № 11, maddə 2427; 2019, № 1, maddə 148, № 2, maddə 332, № 4, maddələr 747, 748, 759, № 5, maddə 939, № 7, maddələr 1314, 1323, № 8, maddə 1473,№ 12, maddələr 2047, 2055, 2061; 2020, № 1, maddə 84, № 2, maddələr 185, 195, 219, № 3, maddələr 345, 375, № 4, maddə 488, № 8, maddə 1130, № 10, maddə 1267; 2021, № 1, maddə 94, № 2, maddə 201, № 3, maddə 271, № 4, maddələr 392, 422, № 9, maddə 1053, № 10, maddə 1172, № 12, maddələr 1516, 1519, 1536, 1541; 2022, № 1, maddə 83, № 3, maddələr 266, 280, № 4, maddə 396, № 5, maddə 545, № 6, maddələr 669, 681, № 8, maddə 1011, № 9, maddə 1105, № 11,maddələr 1345, 1348, 1355, № 12, maddə 1562; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 fevral tarixli 32 nömrəli və 7 fevral tarixli 40 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1 0309 10 000 0, 1702 90 500 0, 1702 90 790 0, 2007 99 390 0, 2007 99 970 0, 2008.30 900 0, 2008 70 610 0, 2008 99 480 0, 2009.11 990 0, 2009 19 980 0, 2009 39 390 0, 2009 39 590 0, 2009 89 960 0, 2009 90 490 0, 2009 90 590 0, 2101 20 200 0, 2102 20 900 0, 2517 49 000 0, 2523 10 000 1, 2526 20 000 0, 2901 10 000 0, 3201 10 000 0, 3201 20 000 0, 3204 11 000 0, 3204 12 000 0, 3204 13 000 0, 3204 14 000 0, 3204 15 000 0, 3204 16 000 0, 3204 17 000 0, 3204 18 000 0, 3204 19 000 0, 3204 20 000 0, 3206 11 000 0, 3206 19 000 0, 3206 41 000 0, 3206 49 700 0, 3207 20 900 0, 3207 40 400 0, 3207 40 850 0, 3215 11 000 0, 3215 19 000 0, 3302 10 210 0, 3302 10 400 0, 3302 10 900 0, 3302 90 900 0, 3402 31 000 0, 3402 39 000 0, 3402 41 000 0, 3403 11 000 0, 3403 91 000 0, 3404 90 000 0, 3505 10 500 0, 3507 90 900 0, 3701 30 000 0, 3707 10 000 0, 3707 90 900 0, 3816 00 000 9, 3823 11 000 0, 3823 70 000 0, 3824 10 000 0, 3901 10 100 0, 3920 10 250 0, 3920 10 280 0, 3920 20 210 0, 3920 20 290 0, 3920 20 800 0, 3920 43 100 0, 3920 62 190 0, 3921 90 100 0, 3923 50 900 0, 4005 10 000 0, 4008 19 000 0, 4010 12 000 0, 4010 19 000 0, 4802 55 150 0, 4802 55 250 0, 4802 55 300 0, 4802 55 900 0, 4802 61 150 0, 4803 00 310 0, 4804 11 900 0, 4804 21 100 0, 4804 29 100 0, 4804 31 800 0, 4804 39 800 0, 4804 51 000 0, 4805 91 000 0, 4805 92 000 0, 4810 29 800 0, 4810 92 300 0, 4810 92 900 0, 4811 41 900 0, 4811 51 000 0, 4811 59 000 0, 4811 90 000 0, 4812 00 000 0, 4813 90 100 0, 4818 90 900 0, 4819 10 000 0, 4819 20 000 0, 4819 50 000 0, 4821 10 100 0, 4821 10 900 0, 4821 90 100 0, 4821 90 900 0, 4822 10 000 0, 4823 90 859 0, 5112 20 000 0, 5112 30 100 0, 5112 30 800 0, 5307 10 000 0, 5307 20 000 0, 5309 11 100 0, 5309 11 900 0, 5309 19 000 0, 5309 29 000 0, 5310 90 000 0, 5311 00 900 0, 5401 10 900 0, 5402 33 000 0, 5402 53 000 0, 5402 62 000 0, 5402 63 000 0, 5407 10 009 0, 5407 41 000 0, 5407 42 000 0, 5407 43 000 0, 5407 52 000 0, 5407 53 000 0, 5407 61 100 0, 5407 61 500 0, 5407 61 900 0, 5407 72 000 0, 5407 73 000 0, 5407 74 000 0, 5407 82 000 0, 5407 84 000 0, 5407 91 000 0, 5407 92 000 0, 5407 94 000 0, 5408 22 100 0, 5408 22 900 0, 5408 24 000 0, 5408 31 000 0, 5408 32 000 0, 5408 33 000 0, 5408 34 000 0, 5601 22 100 0, 5601 22 900 0, 5603 11 900 9, 5603 12 900 9, 5603 13 900 9, 5603 94 900 0, 5604 90 900 0, 5607 49 900 0, 5803 00 900 0, 5804 10 100 0, 5804 10 900 0, 5804 21 100 0, 5806 20 000 0, 5806 32 900 0, 5810 92 900 0, 6001 10 000 0, 6001 22 000 0, 6001 29 000 0, 6001 91 000 0, 6001 99 000 0, 6002 40 000 0, 6002 90 000 0, 6003 30 900 0, 6004 10 000 0, 6004 90 000 0, 6006 31 900 0, 6006 32 900 0, 6006 33 900 0, 6006 34 900 0, 6006 42 000 0, 6006 44 000 0, 6006 90 000 0, 6806 10 000 0, 6806 90 000 0, 6901 00 000 0, 7019 11 000 0, 7307 21 000 0, 7307 99 100 0, 7318 21 000 0, 8208 10 000 0, 8208 90 000 0, 8302 20 000 9, 8309 90 100 0, 8309 90 900 0, 8416 90 000 0, 8418 99 900 9, 8421 31 000 9, 8422 90 900 9, 9002 90 000 0, 9401 91 000 0, 9606 21 000 0, 9612 10 100 0, 9616 10 100 0 və 9616 10 900 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "15" rəqəmləri "15 (31.12.2030-cu il tarixinədək 0%)" sözləri ilə əvəz edilsin;

1.2. 1302 13 000 0, 2530 90 000 0, 2836 50 000 0, 3809 10 900 0, 3809 91 000 0, 3812 31 000 0, 3812 39 000 0, 3815 90 900 0, 3816 00 000 1, 3824 99 150 0, 3824 99 920 0, 3824 99 930 0, 3824 99 960 9, 3907 30 000 0, 4410 11 300 0, 4804 11 110 0, 4805 19 900 0, 4805 30 000 0, 5509 53 000 0, 5515 12 900 0, 6902 10 000 0, 6902 20 100 0, 6902 20 910 0, 6902 20 990 0, 6902 90 000 0, 6903 20 900 0, 6903 90 900 0, 7206 90 000 0, 7210 12 200 0, 7216 99 000 0, 7217 90 200 0, 7219 21 900 0, 7224 90 020 0, 7225 11 000 0, 7225 40 120 0, 7306 90 000 0, 7310 29 100 0, 7326 11 000 0, 7605 29 000 0, 7607 20 100 0, 8302 42 000 9, 8413 91 000 9, 8413 92 000 0, 8418 99 900 1, 8422 40 000 0, 8443 99 900 0, 8452 30 000 0, 8452 90 000 0, 8454 90 000 0, 8455 90 000 0, 8481 10 190 0, 8481 10 990 0, 8481 20 900 0, 8481 30 990 0, 8481 40 900 0, 8481 80 710 0, 8481 80 739 0, 8481 80 850 0, 8481 80 990 0, 8482 40 000 0, 8482 80 000 0, 8482 91 100 0, 8482 91 900 0, 8482 99 000 0, 8504 40 830 9, 8541 41 000 0 və 9028 90 900 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "5" rəqəmi "5 (31.12.2030-cu il tarixinədək 0%)" sözləri ilə əvəz edilsin;

1.3. 5603 11 900 1, 5603 12 900 1 və 5603 13 900 1 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütunu aşağıdakı redaksiyada verilsin:

| |
|---|
| 15 (31.12.2030-cu il tarixinədək 0%) |

**2** Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 110** **Bakı şəhəri, 14 aprel 2023-cü il**

***"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 25 iyun tarixli 201 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 fevral tarixli 289 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli 2549 nömrəli Sərəncamının 2-ci hissəsinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin Nizamna-məsinin və strukturunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 25 iyun tarixli 201 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 754; 2016, № 3, maddə 583; 2017, № 12 (II kitab), maddə 2511; 2019, № 4, maddə 756; 2020, № 5, maddə 653) 1-ci və 2-ci hissələri ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 111** **Bakı şəhəri, 14 aprel 2023-cü il**

***"Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması ilə bağlı bir sıra normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 iyun tarixli 257 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması ilə bağlı bir sıra normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 iyun tarixli 257 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1146; 2021, № 8, maddə 967, № 11, maddə 1276; 2022, № 4, maddə 422, № 5, maddə 574, № 8, maddə 966) aşağıdakı dəyişikliklər edilsin:

**1** Aşağıdakı məzmunda 3-1-ci hissə əlavə edilsin:

"3-1. Bu Qərar "Azərbaycan İnvestisiya Holdinqinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 5 noyabr tarixli 1174 nömrəli Fərmanına uyğun olaraq Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilmiş hüquqi şəxslərə şamil edilmir.".

**2** Həmin Qərarla təsdiq edilmiş "Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi Qaydası"nın 1.3-1-ci bəndi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 118** **Bakı şəhəri, 18 aprel 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli Qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 695; 2013, № 10, maddə 1228; 2014, № 1, maddə 56; 2017, № 4, maddə 666; 2018, № 11, maddə 2431; 2019, № 2, maddə 357, № 11, maddə 1863; 2020, № 1, maddə 67; 2021, № 2, maddə 205, № 3, maddə 286, № 6 (IV kitab), maddə 665; 2022, № 12, maddə 1552; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 12 yanvar tarixli 6 nömrəli və 7 mart tarixli 74 nömrəli qərarları) ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nın 3.10-1-ci bəndinin üçüncü abzasına "TOEFL," akronimindən sonra "Cambridge English Qualifications," sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 119** **Bakı şəhəri, 18 aprel 2023-cü il**

**"Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində müvəqqəti olma müddətinin uzadılması, müvəqqəti və ya daimi yaşamaq üçün icazənin, o cümlədən iş icazəsinin verilməsi (və ya müddətinin uzadılması) üçün ərizə-anket nümunələrinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 7 fevral tarixli 40 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 7 fevral tarixli 40 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 195; 2015, № 10, maddə 1222; 2016, № 8, maddə 1451; 2018, № 4, maddə 822; 2019, № 12, maddə 2093; 2020, № 8, maddə 1125) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq icazəsinin verilməsi (müddətinin uzadılması) üçün ərizə-anket"də aşağıdakı dəyişikliklər edilsin:

1. 11.7-1-ci bənddə "və 64.0.17-ci" və "and 64.0.17" sözləri müvafiq olaraq ", 64.0.17-ci, 64.0.18-ci və 64.0.19-cu" və ", 64.0.17, 64.0.18 and 64.0.19" sözləri ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 11.7-1.8-ci və 11.7-1.9-cu yarımbəndlər əlavə edilsin:

| |
|---|
| 11.7-1.8. Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun, inzibati müəssisələrinin və hüquqi şəxslərinin Ələt azad iqtisadi zonasının ərazisində işə cəlb etdiyi şəxslər, habelə bu hüquqi şəxslərin təsisçiləri olduqda<br>(to be a person employed by authorized entities, administrative institutions and legal persons of the Alat Free Economic Zone, including founders of the legal persons)<br>□ |
| *11.7-1.9. texnologiyalar parkının rezidenti (hüquqi şəxsə münasibətdə onun rəhbəri və müavinləri vəzifəsini tutanlar) və həmin rezident tərəfindən Azərbaycan Respublikasının ərazisində əmək fəaliyyətinə cəlb edilən informasiya və kommunikasiya texnologiyaları sahəsində təcrübəsi olan mütəxəssislər olduqda*<br>*(to be a resident of a technology park (with regards to a legal person, those holding office as its head and deputies) and specialists with experience in the field of information and communication technologies involved in labor activity by that resident on the territory of the Republic of Azerbaijan)*<br>□ |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan–Çin əlaqələri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib



**Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Çin Xalq Respublikasının xarici işlər nazirinin müavini Ma Caosyü ilə görüşüb.**

Ma Caosyü təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan–Çin əlaqələrinin hazırda dövlətlərimizin başçıları sayəsində bütün sahələrdə inkişaf etdiyini, strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini bildirib. O, Azərbaycanın və Çinin dövlət başçılarının Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin son Sammiti çərçivəsində görüşünün əməkdaşlıq perspektivlərinin müəyyənləşdirilməsi baxımından əhəmiyyətinə toxunub. Azərbaycan–Çin münasibətlərinin genişlənməsində Heydər Əliyev Fondunun Çində həyata keçirdiyi humanitar və mədəni layihələrin, həmçinin Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyası arasındakı əməkdaşlığın və ölkələrimizin səfirliklərinin fəaliyyətinin əhəmiyyəti vurğulanıb.

Azərbaycan nümayəndə heyətinin pandemiyadan sonra Çin Xalq Respublikasına səfər edən ilk heyətlərdən olduğunu bildirən Ma Caosyü Azərbaycanın Çinin bütün təşəbbüslərinə daim müsbət reaksiya göstərdiyini, "Bir kəmər, bir yol" təşəbbüsünə verdiyi töhfələri qeyd edib.

O, münasibətlərimizin daha da genişlənməsi üçün bütün dövlət qurumları, qeyri-hökumət təşkilatları və özəl sektor arasında əlaqələrin qurulmasının əhəmiyyətindən danışıb. Nazir müavini Çin Xalq Respublikasının Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini diqqətə çatdıraraq ölkəmizə sülh arzulayıb.

Anar Ələkbərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikası ilə münasibətlərə hər zaman önəm və dəstək verdiyini, ikitərəfli əlaqələrin inkişafına çalışdığını bildirib.

Azərbaycanın turizm potensialı, işğaldan azad olunan ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri, o cümlədən, digər bölgələrimizdəki layihələrdə Çin sərmayədarları və şirkətləri üçün imkanların mövcudluğu barədə məlumat verilib. Heydər Əliyev Fondunun Çində həyata keçirdiyi humanitar və mədəni layihələrin gələcəkdə də davam etdiriləcəyini bildirən Anar Ələkbərov dövlət qurumlarının da Çin ilə əməkdaşlığa yüksək maraq göstərdiyini qeyd edib və Azərbaycan dövlətinin hər zaman "Vahid Çin" prinsipinə dəstək verdiyini vurğulayıb.

***AZƏRTAC***

**Pekin**

# Çinin Hebey vilayətində ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr edilmiş konsert olub



**Çinin Hebey vilayətinin Lanfan şəhərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illiyinə həsr edilmiş Azərbaycan–Çin dostluq konserti olub.**



Lanfandakı İpək Yolu Beynəlxalq İncəsənət Mərkəzində keçirilən konsert Heydər Əliyev Fondunun dəstəyi ilə təşkil edilib.

Konsertdə Xalq artisti Ənvər Sadıqovun rəhbərliyi altında "Qaytağı" instrumental ansamblının və "Mirvari" rəqs qrupunun ifasında Üzeyir Hacıbəylinin, Fikrət Əmirovun, Niyazinin, Vasif Adıgözəlovun, Cahangir Cahangirovun, Süleyman Ələsgərovun, Tofiq Quliyevin və başqa görkəmli bəstəkarların əsərləri, xalq mahnıları və rəqsləri, habelə ənənəvi Çin xalq mahnısı, Ağdam Xan Şuşinski Adına Uşaq Muğam Musiqi Məktəbinin şagirdi Mətin Cəfərovun ifasında "Qarabağ şikəstəsi" təqdim olunub.

Azərbaycan incəsənət ustalarının çıxışları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

***AZƏRTAC***

**Pekin**

# Kənd təsərrüfatı dövlət dəstəyindən güc alır



**Azərbaycanda ərzaq təhlükəsizliyini gerçəkləşdirən, ixrac potensialının daha da güclənməsinə, habelə kənd yerlərində əhalinin rifahının daha da yüksəlməsinə töhfə verən rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və emalı prioritet istiqamətlərdən biridir.**

Prezident İlham Əliyevin rəhbərliyi ilə hazırda ölkəmizdə uğurla həyata keçirilən davamlı inkişaf strategiyasına uyğun olaraq aqrar sektorun inkişafı məqsədilə çoxşaxəli dövlət dəstəyi sistemi qurulur, bu sahənin potensialının reallaşdırılmasına yönəldilən resursların həcmi artırılır. Son illər ərzində kənd təsərrüfatı məhsulları istehsalında dinamik artım müşahidə olunur, bitkiçiliyin canlanması üçün intensiv və ekstensiv amillərə xüsusi diqqət yetirilir, heyvandarlıq sahəsinin tərəqqisi isə tədrici intensiv metodlara əsaslanılır. Bir sözlə, aqrar sektorun potensialının gücləndirilməsi müxtəlif istiqamətlər üzrə reallaşdırılan genişmiqyaslı tədbirlərlə həllini tapır.

Respublikada meliorasiya-irriqasiya sisteminin yenidən qurulması və təkmilləşdirilməsi üçün dövlət büdcəsi vəsaitləri hesabına son 10 il ərzində 390 min hektardan çox sahədə torpaqların su təminatı yaxşılaşdırılıb, 188 min hektar sahə yeni suvarılan torpaqlar qrupuna əlavə edilib. Həmçinin suvarılan sahələrdə müvafiq dövlət dəstəyi hesabına tətbiq olunan müasir suvarma sistemlərinin payı artıq 5 faizdən çox yüksəlib.

Fermerlərin gübrə, pestisid və kənd təsərrüfatı texnikaları ilə təminatının yaxşılaşdırılması üçün göstərilən dövlət dəstəyi tədbirləri öz müsbət nəticələrini verir. Bu ilin yanvar-mart aylarında ölkədə ÜDM istehsalının 2,6 faizini kənd təsərrüfatı sahəsinin payına düşməsi, yanvar-fevral aylarında 895,6 milyon manat dəyərində kənd təsərrüfatı məhsulları istehsal edilməsi və həmin göstəricinin ötən ilin eyni dövrü ilə müqayisədə 3,3 faiz çox olması bunun bariz ifadəsidir.

Xatırladaq ki, son bir ildə ölkədə istehsal edilən bitkiçilik məhsullarının dəyəri 1,9 faiz artaraq 46,4 milyon manat, heyvandarlıq məhsulları dəyəri isə 3,4 faiz artaraq 849,2 milyon manat təşkil edib. Cari il martın 1-nə qədər Azərbaycanın əksər rayonlarında yazlıq bitkilərin əkininə başlanılıb. 54,7 min hektar sahədə yazlıq bitkilər, o cümlədən 8,6 min hektar sahədə dənli və dənli paxlalı bitkilər (qarğıdalı daxil olmaqla), 14,7 min hektar sahədə kartof, 11,1 min hektar sahədə tərəvəz, 19,9 min hektar sahədə yemlik bitkilər, 0,3 min hektar sahədə texniki bitkilər əkilib. Təsərrüfatlarda yanvar-fevral aylarında 39,5 min ton və yaxud keçən ilin müvafiq dövrünə nisbətən 0,8 faiz çox tərəvəz məhsulları istehsal edilib.

Yeri gəlmişkən, hazırda pambıqçılıq rayonlarında çiyid səpininə start verilib. Səpin ərəfəsində Kənd Təsərrüfatı Nazirliyinin, pambıqçılıq rayonlarının Dövlət Aqrar İnkişaf Mərkəzlərinin, pambıq tədarükü və emalı şirkətlərinin iştirakı ilə çoxsaylı görüşlər keçirilib, sahənin inkişafı ilə bağlı hədəflər müəyyənləşdirilib, onların həlli məqsədilə adıçəkilən nazirliyin müvafiq qurumları tərəfindən tədbirlər planı hazırlanıb, bu tədbirlərin aidiyyəti üzrə icraçıları və müddətləri müəyyənləşdirilib.

Aprelin 17-dək respublika üzrə pambıq emalı və tədarükü şirkətləri tərəfindən 15 min 434 mülkiyyətçi ilə 92 min hektar sahədə pambıq istehsalı məqsədilə müqavilə bağlanılıb və həmin sahələrin 90 min hektarında şum işləri aparılıb. Aprelin ikinci ongünlüyündə isə pambıq tarlalarında çiyid səpininə başlanılıb və artıq 17,7 min hektar sahədə səpin həyata keçirilib.

Qeyd edək ki, 2022-ci il pambıqçılıq mövsümündə sahələrdən 322 min 300 ton pambıq yığılaraq tədarük məntəqələrinə təhvil verilib. Pambıq üzrə orta məhsuldarlıq 30,92 sent/ha təşkil edib ki, bu da bir il əvvəlki mövsümlə müqayisədə 2,42 sent/ha artıqdır. Keçən il bir il əvvəllə müqayisədə sahələrdən 35 min 259 ton artıq məhsul yığılıb.

Azərbaycanda pambıqçılığın inkişafı dövlət tərəfindən dəstəklənir. Aqrar Subsidiya Şurasının qərarına əsasən, 2022-ci ildə tədarük məntəqələrinə təhvil verilən pambığın hər tonuna görə fermerlərə 170 manat məhsul subsidiyası ödənilib. Şuranın qərarı ilə 2023-cü il mövsümündə fermerlərə təhvil verəcəkləri pambığın hər tonuna görə 180 manat məhsul subsidiyası ödəniləcək.

**Vaqif BAYRAMOV,**
**"Xalq qəzeti"**

### Ekspert rəyi

**Mirağa ƏHMƏDOV,**
**iqtisadçı-ekspert**



Ölkəmizin aqrar sektorunda innovasiyaların tətbiqi ilə bağlı artıq çoxsaylı təcrübələr yaranıb. Belə ki, Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan elmi-tədqiqat institutları tərəfindən təcrübə xarakterli, özəl şirkətlər tərəfindən isə kommersiya məqsədi ilə "ağıllı istixana" və "ağıllı bağ"lar qurulub, torpaq və su sensorları, "ağıllı" suvarma sistemləri, aqrodronlar, aqrorobotlar, "dəqiq" əkin texnologiyaları tətbiq olunub.

Bu gün aqrar sahədə göstərilən dövlət xidmətlərinin optimallaşdırılması, səmərəliliyinin və şəffaflığının artırılması, elektron xidmətlərə keçidin sürətləndirilməsi və vətəndaş məmnunluğunun yüksəldilməsi məqsədi ilə institusional islahatlara da üstünlük verilir. "Elektron kənd təsərrüfatı" informasiya sisteminin (EKTİS) tətbiq edilməsinə başlanılması, bitkiçilik və heyvandarlıq sahəsində fermerlərə subsidiyaların alternativsiz olaraq həmin sistem vasitəsilə verilməsi qeyd edilən fikrin bariz ifadəsidir.

Aqrar sığorta sahəsində yeni mexanizmi artıq 2020-ci ildən etibarən həm bitkiçilik, həm də heyvandarlıqda tətbiq edilir. Hazırda aqrar sığorta sisteminin tətbiqinin genişləndirilməsi istiqamətində tədbirlər ardıcıl olaraq həyata keçirilir və aqrar sığorta göstəriciləri hər il yüksəlir.

Kənd təsərrüfatı məhsullarının istehsalçılarının dövlət qayğısı ilə əhatə olunması bütün əsas istiqamətlərdə irəliləyişlərə yol açıb. Son 10 il ərzində ölkədə real ifadədə kənd təsərrüfatı məhsulları istehsalı 46,8 faiz (o cümlədən bitkiçilik məhsulları istehsalı 53 faiz, heyvandarlıq məhsulları istehsalı 42,5 faiz) artıb. Bu dövr ərzində kənd təsərrüfatı və ərzaq məhsullarının ixrac həcmi təqribən 26,9 faiz artıb ki, bu da xüsusilə ilkin kənd təsərrüfatı məhsullarının ixrac həcminin bir neçə dəfə çoxalması hesabına olub.

Bütün bu tədbirlərin nəticəsidir ki, son dövrlər qlobal ərzaq bazarında yaşanan böhranın daha da dərinləşməsinə baxmayaraq, Azərbaycanın idxaldan asılı olduğu məhsullar üzrə təminatında heç bir problem nəzərə çarpmır. Bununla yanaşı, ərzaq qiymətlərində baş verən bahalaşmanın mənfi təsirlərinin qismən də olsa kompensasiyası məqsədilə ölkəyə idxal olunan bir sıra ərzaq məhsullarının və xammalların gömrük rüsumlarından və ƏDV-dən azad olunması ilə bağlı əhəmiyyətli qərarlar qəbul edilib.

**Prezident İlham Əliyevin "Dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında" 2023-cü il 12 aprel tarixli Sərəncamı ölkədə əlavə su mənbəyinin yaradılmasını nəzərdə tutur.**

# Azərbaycan da dəniz suyunu şirinləşdirməyə qadirdir



Həmin sənəddə "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 iyul tarixli Sərəncamının icrası, ölkənin su təhlükəsizliyi, əhalinin içməli su ilə təminatının artırılması və bu sahəyə yeni texnologiyaların cəlb edilməsi məqsədilə Bakı şəhərinin və ətraf ərazilərin su təminatının yaxşılaşdırılması üçün dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihə həyata keçirilməsi qərara alınıb. Sərəncama əsasən, pilot layihəsinin icrası ilə əlaqədar Nazirlər Kabinetinə, eləcə də aidiyyəti dövlət qurumlarına bir sıra zəruri tədbirlər görülməsi tapşırılıb.

Dövlətimizin başçısının dəniz suyunun duzsuzlaşdırılması ilə bağlı imzaladığı sərəncam əhalinin suya olan tələbatının ödənilməsini, hər zaman olduğu kimi, yenə də diqqət mərkəzində saxlamasından xəbər verir. Ölkə rəhbərinin alternativ su mənbələrinin işlənilməsi, o cümlədən, dəniz suyunun şirinləşdirilməsi ilə bağlı imzaladığı sənədlər, bu sahədə qəbul olunmuş qərarlar ölkədə su qıtlığının aradan qaldırılmasını, əhalinin içməli və suvarma suyuna olan tələbatının ödənilməsini şərtləndirir.

Yeri gəlmişkən, dəniz suyunun duzsuzlaşdırılması ilə bağlı təşəbbüs ilk dəfə 2010-cu ildə Prezident İlham Əliyev tərəfindən gündəmə gətirilib. Bundan iki il sonra Salyan rayonunun Xıdırlı kəndində Xəzər Dəniz Suyunun Duzsuzlaşdırılması Kompleksi istifadəyə verilib. Bu müəssisə 50-70 minlik bir şəhəri içməli su ilə təmin etmək gücünə hesablanıb.

Onu da xatırladaq ki, qlobal istiləşmə və su mənbələrinin quruması dünyanın bir sıra ölkələrini dəniz suyunu içməli su halına gətirməyə vadar edib. Bir sıra ölkələrdə bu layihəyə çoxdan başlanılıb. Məsələn, İndoneziya, Malayziya, Sinqapur və İsrail dövlətlərində əhalinin içməli suya olan tələbatının bir hissəsi dəniz suyunun emalı hesabına ödənilib. İsraildə içməli suyun 40 faizi dəniz suyunun duzsuzlaşdırılması hesabına reallaşdırılıb.

Azərbaycanda şəhər əhalisinin əksəriyyəti Abşeron yarımadasında yaşayır. Bakı və Sumqayıt əhalisinin içməli su ilə təminatının isə gələcəkdə ciddi probleme çevriləcəyi proqnozlaşdırılır. Bu, ölkəmizdə su qaynaqlarının çox az olması ilə bağlıdır. Belə bir şəraitdə isə Prezident İlham Əliyevin 2023-cü il 12 aprel tarixli "Dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında" Sərəncamı mühüm önəm daşıyır.

**Mirbağır YAQUBZADƏ,**
**"Xalq qəzeti"**

### Ekspert rəyi



**Elman CƏFƏRLİ,**
**"Yaşıl Dünya" Ekoloji Maarifləndirmə İctimai Birliyinin sədri**

Ölkəmizdə formalaşan su, ortalama, 30 faiz civarındadır. Qalan 70 faizi respublikamıza başqa dövlətlərdən daxil olur. Həmin ölkələr də bu sulardan öz tələbatları üçün istifadə edirlər.

Bakı və Abşeronu içməli su ilə təmin etmək üçün Taxtakörpü su anbarı fəaliyyət göstərir. Lakin Abşeronda yerləşən şəhərlərdə əhali artır, istehsal müəssisələrinin, xidmət obyektlərinin sayı getdikcə artır. Dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı olduqca bahalı prosesdir. Bu layihəni icra etmək, məsələn, Gürcüstan üçün çətindir. Ancaq Azərbaycan Cənubi Qafqazın iqtisadi potensialına görə, qüdrətli ölkəsi olaraq bu layihəni icra etmək gücündədir.

Prezident İlham Əliyevin "Dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında" 2023-cü il 12 aprel tarixli Sərəncamına əsasən "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 iyul tarixli Sərəncamı, belə demək mümkünsə, gələcəyə qoyulan sərmayədir. Azərbaycanın yeraltı sərvətləri, su qaynaqları həm də gələcək nəsillərindir. Gələcəkdə ölkəmizdə içməli su qıtlığı ilə üzləşilərsə, indi yaradılan müəssisələr tərəfindən dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsal ediləcək.

Dövlət əhalimizin içməli su qıtlığı yaşamaması üçün belə bir bahalı layihəyə start verib. Ancaq əhalinin də üzərinə böyük vəzifə və məsuliyyət düşür. Anlamalıyıq ki, yaxın 30 ildə ayrı-ayrı ölkələrdə içməli su qıtlığı yaşanacaq. Hətta dünyada su müharibələrinin olacağı da istisna deyil. Bir zamanlar daş kömür yataqları, sonra neft ehtiyatları necə savaşa səbəb olurdusa, qarşıdakı dövrdə də dövlətlər arasında əsas mübahisələr su qaynaqları üstündə ola bilər. Məişətdə və suvarmada suya qənaət etmək zamanın tələbidir. Fikrimcə, məişət suyunun təkrar emalı şəbəkələri, texniki su istehsalı müəssisələri bərpa edilməlidir.

# Laçında yollar təzələnir, hava limanı yaradılır

**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Laçın şəhərinin daxili yollarının bərpası layihəsi sürətlə və keyfiyyətlə icra olunur. Uzunluğu 59 kilometr təşkil edən həmin yolların hər birinin eni 3-3,5 metr olmaqla 2 hərəkət zolaqlıdır. Layihə üzrə torpaq yatağının eni 8-15 metr təşkil edir.**



Layihə çərçivəsində yararsız örtük sökülür, zəruri olan yerlərdə yararsız qrunt qazılaraq çıxarılır, ardınca yararlı materiallardan istifadə olunmaqla əks dolğu işləri icra olunur, yeni yol yatağı və yol əsası inşa edilir. Yol əsası hazır olan hissələrə isə lazımi qalınlıqda yeni asfalt-beton örtüyü döşənir.

Yenidənqurma işlərinin yaxın müddət ərzində yekunlaşdırılması planlaşdırılır. Bunun üçün əraziyə lazımi sayda qüvvə cəlb olunub. Laçın şəhərinin daxili yollarının bərpası ilə şəhər ərazisində müasir yol infrastrukturu qurulacaq, tezliklə burada yaşayacaq əhalinin və bura gələn qonaqların rahat gediş-gəlişi təmin olunacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın iştirakı ilə 2021-ci il avqustun 16-da təməli qoyulan Laçın Beynəlxalq Hava Limanının tikintisi ilə əlaqədar torpaq, qazma-partlayış işləri də sürətlə icra olunur. İnşası aparılan hava limanında qazma işləri 26,512 milyon kubmetr, tökmə işləri isə 1,956 milyon kubmetr təşkil edir. Qazmanın maksimal orta dərinliyi 73 metr, tökmənin orta hündürlüyü isə 14 metrdir.

Qorçu kəndinin ərazisində yaradılan Laçın Beynəlxalq Hava Limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportu olacaq. Xatırladaq ki, bu aeroportdan Laçın şəhərinə qədər olan məsafə 38,1 kilometr, Şuşa şəhərinə qədər olan məsafə 75 kilometr, Kəlbəcər şəhərinə isə 59,2 kilometr təşkil edəcək.

İşğaldan azad edilmiş əzəli torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərinin miqyasını göstərən Laçın Beynəlxalq Hava Limanının inşası ümumilikdə bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək və turizm potensialının artırılmasına səbəb olacaq.

**"Xalq qəzeti"**



# Əhalinin gəlirləri 15,2 faiz yüksəlib

**Dövlət Statistika Komitəsindən aldığımız məlumata əsasən, yanvar-mart aylarında ölkə əhalisinin nominal gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 15,2 faiz artaraq 18 milyard 479,9 milyon manat və ya hər nəfərə orta hesabla 1823,7 manat olub.**

Əhalinin sərəncamında qalan gəlirlər 16 milyard 345,3 milyon manat təşkil edib.

**"Xalq qəzeti"**

## Xarici investisiya qoyuluşu 24 faiz çoxalıb

**Dövlət Statistika Komitəsindən aldığımız məlumatda bildirilir ki, cari ilin yanvar-mart aylarında Azərbaycandakı xarici müəssisə və təşkilatlar əsas kapitala 945,8 milyon manat vəsait yönəldib.**

Bildirilir ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 23,8 faiz çoxdur.

Rüb ərzində xarici investisiyaların 914,4 milyon manatı (96,7 faizi) Böyük Britaniya, Fransa, ABŞ, Türkiyə, Yaponiya, İsveçrə, Rusiya, Norveç və İran sərmayədarlarına məxsus olub.

**"Xalq qəzeti"**

# "Şahdəniz" qazının ixracında 9,7 faiz artım olub

**Bu ilin yanvar-mart aylarında Azərbaycanda magistral qaz kəmərləri ilə 11 520,3 milyon kubmetr qaz nəql edilib ki, bu da illik müqayisədə 7 faiz çoxdur.**



Dövlət Statistika Komitəsinin məlumatına görə, qaz nəqlinin 47,8 faizi Bakı–Tbilisi–Ərzurum Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilib. Bu boru kəməri vasitəsilə "Şahdəniz" qaz-kondensat yatağında hasil edilən qaz ixrac edilir.

Belə ki, hesabat dövründə bu kəmərlə 5 511,4 milyon kubmetr qaz ötürülüb. Bu, 2022-ci ilin müvafiq göstəricisi ilə müqayisədə 9,7 faiz çoxdur.

**"Xalq qəzeti"**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 117**

**Bakı şəhəri, 15 aprel 2023-cü il**

***"Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, ölkədə aparılan struktur islahatları nəticəsində yaradılan yeni təşkilatların fəaliyyətə başlaması, bəzi təşkilatların ləğv edilməsi və ya birləşdirilməsi ilə bağlı onların maliyyə təminatının həyata keçirilməsi, dövlət maliyyə inzibatçılığının və hesabatlılığının gücləndirilməsi, şəffaflığın artırılması, həmçinin büdcə vəsaitlərindən təyinatı üzrə istifadənin tam təmin edilməsi üçün vahid büdcə təsnifatının təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155; 2019, № 3, maddələr 528, 534, 544, 563, 566, 568, № 4, maddə 753, № 5, maddələr 935, 945, 971, № 7, maddə 1325, № 8, maddə 1475, № 10, maddə 1677, № 11, maddə 1878, № 12, maddələr 2091, 2095; 2020, № 3, maddə 344, № 4, maddə 479, № 5, maddə 643, № 6, maddə 784, № 8, maddə 1134, № 9, maddə 1222, № 10, maddə 1273, № 11, maddələr 1403, 1408, № 12 (V kitab), maddələr 1589, 1597; 2021, № 2, maddə 203, № 3, maddələr 278, 288, 293, 300, 302, № 4, maddələr 395, 399, 404, 416, 417, 418, № 6 (IV kitab), maddə 695, № 7, maddələr 871, 874, № 8, maddələr 966, 973, № 9, maddə 1064, № 10, maddələr 1181, 1187, 1192, № 11, maddələr 1256, 1274, 1280, 1283; 2022, № 1, maddələr 53, 70, № 4, maddələr 377, 388, 398, 415, № 5, maddə 577, № 7, maddə 811, № 8, maddə 1026, № 9, maddələr 1085, 1101, № 10, maddə 1210; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 21 dekabr tarixli 448 nömrəli və 2023-cü il 20 fevral tarixli 57 nömrəli qərarları) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissədə "və inzibati" sözləri ", inzibati və proqram" sözləri ilə əvəz edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı" üzrə:

2.1. 1.2.4.6.1.0-1.2.4.6.3.0-cı maddələrindən "və Azərbaycan Respublikasının ərazisinə idxal olunan" sözləri çıxarılsın;

2.2. 1.2.4.6.3.0-cı maddəsindən sonra aşağıdakı məzmunda yeni 1.2.4.6.4.0-1.2.4.6.6.0-cı maddələr əlavə edilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 4 | 6 | 4 | 0 | Azərbaycan Respublikasının ərazisinə idxal olunan avtomobil benzininin hər litrinə görə icbari tibbi sığorta üzrə sığorta haqqı |
| 1 | 2 | 4 | 6 | 5 | 0 | Azərbaycan Respublikasının ərazisinə idxal olunan dizel yanacağının hər litrinə görə icbari tibbi sığorta üzrə sığorta haqqı |
| 1 | 2 | 4 | 6 | 6 | 0 | Azərbaycan Respublikasının ərazisinə idxal olunan maye qazın hər litrinə görə icbari tibbi sığorta üzrə sığorta haqqı |

2.3. 1.2.4.7.1.0-1.2.4.7.4.0-cı maddələr aşağıdakı redaksiyada verilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 4 | 7 | 1 | 0 | Azərbaycan Respublikasının ərazisində istehsal olunan araq (vodka), tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, likör və likör məmulatlarının hər litrinə görə tətbiq edilən aksiz dərəcəsinə görə daxilolmalar |
| 1 | 2 | 4 | 7 | 2 | 0 | Azərbaycan Respublikasının ərazisində istehsal olunan pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli digər içkilərin hər litrinə görə tətbiq olunan aksiz dərəcəsinə görə daxilolmalar |
| 1 | 2 | 4 | 7 | 3 | 0 | Azərbaycan Respublikasının ərazisində istehsal olunan siqarilla (nazik siqarlar) və tütündən hazırlanan siqaretlər və onun əvəzedicilərinin 1000 ədədinə görə tətbiq olunan aksiz dərəcəsinə görə daxilolmalar |
| 1 | 2 | 4 | 7 | 4 | 0 | Azərbaycan Respublikasının ərazisində istehsal olunan energetik içkilərin hər litrinə görə tətbiq olunan aksiz dərəcəsinə görə daxilolmalar |

2.4. 1.2.4.7.4.0-cı maddəsindən sonra aşağıdakı məzmunda yeni 1.2.4.7.5.0-1.2.4.7.8.0-cı maddələr əlavə edilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 4 | 7 | 5 | 0 | Azərbaycan Respublikasının ərazisinə idxal olunan araq (vodka), tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, likör və likör məmulatlarının hər litrinə görə tətbiq edilən aksiz dərəcəsinə görə daxilolmalar |
| 1 | 2 | 4 | 7 | 6 | 0 | Azərbaycan Respublikasının ərazisinə idxal olunan pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli digər içkilərin hər litrinə görə tətbiq olunan aksiz dərəcəsinə görə daxilolmalar |
| 1 | 2 | 4 | 7 | 7 | 0 | Azərbaycan Respublikasının ərazisinə idxal olunan siqarilla (nazik siqarlar) və tütündən hazırlanan siqaretlər və onun əvəzedicilərinin 1000 ədədinə görə tətbiq olunan aksiz dərəcəsinə görə daxilolmalar |
| 1 | 2 | 4 | 7 | 8 | 0 | Azərbaycan Respublikasının ərazisinə idxal olunan energetik içkilərin hər litrinə görə tətbiq olunan aksiz dərəcəsinə görə daxilolmalar |

2.5. 1.4.2.3.2.3-cü yarımmaddədən sonra aşağıdakı məzmunda yeni 1.4.2.3.2.4-1.4.2.3.2.8-ci yarımmaddələr əlavə edilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 4 | 2 | 3 | 2 | 4 | "Meşələrin Qorunub Saxlanılması və Təkrar İstehsalı Fondu"na daxilolmalar |
| 1 | 4 | 2 | 3 | 2 | 5 | "Ətraf Mühitin Mühafizəsi üzrə Dövlət Fondu"na daxilolmalar |
| 1 | 4 | 2 | 3 | 2 | 6 | "Mineral-Xammal Bazasının Bərpası üzrə Dövlət Fondu"na daxilolmalar |
| 1 | 4 | 2 | 3 | 2 | 7 | Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondlarına daxilolmalar |
| 1 | 4 | 2 | 3 | 2 | 8 | "Su bioresurslarının artırılması, bərpası və mühafizəsi Fondu"na daxilolmalar |

2.6. 1.4.2.5.8.1-1.4.2.5.8.5-ci yarımmaddələr ləğv edilsin.

3. Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatına əlavə"nin 1.4.1.9-cu yarımbəndində "Azərbaycan Respublikasının dövlət büdcəsinin tərkibində məqsədli büdcə" sözləri "hüquqi şəxs yaratmadan təsis edilmiş büdcədənkənar dövlət" sözləri ilə əvəz edilsin.

4. Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin funksional təsnifatı" üzrə:

4.1. "1.2.2. "Beynəlxalq və regional maliyyə institutlarının səhm kapitalında iştirak" paraqrafının adı aşağıdakı redaksiyada verilsin:

"1.2.2. "Beynəlxalq və regional maliyyə institutlarının (maliyyə-kredit təşkilatlarının) səhm kapitalında iştirak";

4.2. "1.2.4. "Azərbaycan Respublikasının xaricdəki mədəniyyət mərkəzləri" paraqrafı ləğv edilsin;

4.3. "4.9.2. "Ərazi maliyyə hesablaşma mərkəzləri və mərkəzləşdirilmiş mühasibatlıqlar" paraqrafının adı aşağıdakı redaksiyada verilsin:

"Mərkəzləşdirilmiş mühasibatlıqlar və təsərrüfat qrupları";

4.4. "8.1.0. "Mənzil" köməkçi bölməsinə "Mənzil" sözündən sonra "təsərrüfatı" sözü əlavə edilsin;

4.5. "8.1.1. "Mənzil təsərrüfatı" paraqrafına "Mənzil təsərrüfatı" sözlərindən sonra "xidmətləri" sözü əlavə edilsin.

5. "Azərbaycan Respublikasının büdcə xərclərinin funksional təsnifatına əlavə" üzrə:

5.1. "1.2.0. "Beynəlxalq münasibətlər" köməkçi bölməsi aşağıdakı redaksiyada verilsin:

"1.2.0. "Beynəlxalq münasibətlər" köməkçi bölməsinə beynəlxalq maliyyə-kredit təşkilatlarının səhm kapitalında iştirak, beynəlxalq ictimai-siyasi təşkilatlara üzvlük haqqı və Azərbaycan Respublikasının qoşulduğu müqavilə, konvensiya və sazişlər üzrə maliyyə öhdəlikləri, xarici münasibət və siyasət sahələrində fəaliyyətin təşkili və onun operativ idarə olunmasını həyata keçirən xaricdəki diplomatik nümayəndəliklərin saxlanılması və digər beynəlxalq fəaliyyətlə bağlı xərclər daxildir. Bu köməkçi bölmə "1.2.1. "Beynəlxalq və regional təşkilatlara üzvlük haqqı", "1.2.2. "Beynəlxalq və regional maliyyə institutlarının (maliyyə-kredit təşkilatlarının) səhm kapitalında iştirak", "1.2.3. "Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları" və "1.2.9. "Digər beynəlxalq fəaliyyət" paraqraflarından ibarətdir.";

5.2. "1.2.2. "Beynəlxalq və regional maliyyə institutlarının səhm kapitalında iştirak"; paraqrafı aşağıdakı redaksiyada verilsin:

"1.2.2. "Beynəlxalq və regional maliyyə institutlarının (maliyyə-kredit təşkilatlarının) səhm kapitalında iştirak" paraqrafına Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq və regional maliyyə institutlarının (maliyyə-kredit təşkilatlarının) səhm kapitalında iştirak üzrə xərclər daxildir.";

5.3. "1.2.4. "Azərbaycan Respublikasının xaricdəki mədəniyyət mərkəzləri" paraqrafından Azərbaycan Respublikasının xaricdə yerləşən və fəaliyyət göstərən informasiya və mədəniyyət nümayəndəliklərinin və kitabxanaların işinin təşkili və saxlanılması ilə bağlı xərclər daxildir." cümləsi çıxarılsın;

5.4. "3.5.0. "Hüquqi yardım" köməkçi bölməsinə "xərclərin ödənilməsi ilə bağlı" sözlərindən sonra ", habelə mediasiya xidmətləri" sözləri əlavə edilsin;

5.5. "4.2.0. "Ümumi təhsil" köməkçi bölməsinə "göstərilməsi" sözündən sonra ", habelə məktəbəhazırlıq qruplarının açılması" sözləri əlavə edilsin;

5.6. "4.9.0. "Təhsil sahəsində digər müəssisə və tədbirlər" köməkçi bölməsinin birinci cümləsinə "göstərilməsi" sözündən sonra ", habelə dövlət sifarişi və dövlət hesabına kadr hazırlığı ilə bağlı xərclər" sözləri əlavə edilsin, həmin köməkçi bölmənin ikinci cümləsində "Ərazi maliyyə hesablaşma mərkəzləri və mərkəzləşdirilmiş mühasibatlıqlar" sözləri "Mərkəzləşdirilmiş mühasibatlıqlar və təsərrüfat qrupları" sözləri ilə əvəz edilsin;

5.7. "4.9.2. "Ərazi maliyyə hesablaşma mərkəzləri və mərkəzləşdirilmiş mühasibatlıqlar" paraqrafı aşağıdakı redaksiyada verilsin:

"4.9.2. "Mərkəzləşdirilmiş mühasibatlıqlar və təsərrüfat qrupları" paraqrafına mərkəzləşdirilmiş mühasibatlıqların və təsərrüfat qruplarının saxlanılması ilə bağlı xərclər daxildir.";

5.8. "7.1.3. "Mədəniyyət sarayları, mərkəzləri, evləri və klubları" paraqrafına "sarayların," sözündən sonra "mədəniyyət mərkəzlərinin," sözləri əlavə edilsin;

5.9. "8.0.0. "Mənzil və kommunal təsərrüfatı" bölməsində "8.1.0. "Mənzil" sözündən sonra "təsərrüfatı" sözü əlavə edilsin;

5.10. "8.1.0. "Mənzil" köməkçi bölməsi aşağıdakı redaksiyada verilsin:

"8.1.0. "Mənzil təsərrüfatı" köməkçi bölməsi "8.1.1. "Mənzil təsərrüfatı xidmətləri" və "8.1.2. "Lift təsərrüfatı" paraqraflarından ibarətdir.";

5.11. "8.1.1. "Mənzil təsərrüfatı" paraqrafına "8.1.1. "Mənzil təsərrüfatı" sözlərindən sonra "xidmətləri" sözü əlavə edilsin;

5.12. "11.4.3. "Dövlət əsaslı vəsait qoyuluşu" paraqrafı aşağıdakı redaksiyada verilsin:

"11.4.3. "Dövlət əsaslı vəsait qoyuluşu" paraqrafına obyektlərin tikintisi, bərpası, yenidən qurulması, əsaslı təmiri, yeni güclərin istifadəyə verilməsi və bu qəbildən olan investisiya təyinatlı tədbirlərlə bağlı xərclər daxildir. Bu paraqrafa, həmçinin tikinti aparılacaq sahələrdə mövcud obyektlərin söküntüsü ilə bağlı xərclər, yeni tikilmiş, bərpa olunmuş, əsaslı təmir edilmiş obyektlərin mebel, inventar və avadanlıqla təchiz olunması, həmin obyektlərin ərazilərinin abadlaşdırılması, dövlət ehtiyacları üçün tikinti altına düşən torpaq və digər obyektlərin özgəninkiləşdirilməsi, layihə-smeta sənədlərinin hazırlanması, müəllif nəzarəti, texniki nəzarət, məsləhət və cəlb olunan mütəxəssis və ekspertlərin xidmətləri ilə bağlı xərclər daxildir.".

6. Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatı" üzrə:

6.1. "211200. "Ştatdankənar işçilərin əməkhaqqı (ştatdankənar şəxslərə ödənilən haqq)" paraqrafından sonra "211300. Diplomatik və ticarət nümayəndəliklərində çalışan işçilərin əməkhaqqı, təmsilçilik və birdəfəlik yerləşmə müavinəti" paraqrafı əlavə edilsin;

6.2. "221600. "Ərzaq məhsullarının alınması və təminatı" paraqrafından sonra "221700. "Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəlikləri üzrə malların satın alınması" paraqrafı əlavə edilsin;

6.3. "222130. "Sair torpaq, tikili və avadanlıqların cari təmir xərcləri" maddəsindən sonra "222140. "Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəlikləri üzrə cari təmir xərcləri" maddəsi əlavə edilsin;

6.4. "222340. "Proqram təminatlarına və məlumat bazalarına xidmət haqlarının ödənilməsi" maddəsi ləğv edilsin;

6.5. "222400. "Əsas fondların və digər aktivlərin icarəsi, kirayəsi, saxlanılması və mühafizəsi xərcləri" paraqrafından əvvəl "222350. "Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəlikləri üzrə rabitə xidmətləri haqlarının ödənilməsi" maddəsi əlavə edilsin;

6.6. "222440. "Əsas fondların və digər aktivlərin saxlanılması xərcləri" maddəsindən sonra "222450. "Proqram təminatlarına və məlumat bazalarına xidmət haqlarının ödənilməsi" maddəsi əlavə edilsin;

6.7. "262300. "Digər qeyri-rezidentlərə verilən qrantlar və digər ödənişlər" paraqrafından sonra "263000. "Dövlət sifarişi, dövlət öhdəlikləri və bu qəbildən olan digər öhdəliklərin ödənilməsi" köməkçi bölməsi və "263100. "Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması", "263200. "İcbari Tibbi Sığorta Fonduna ayrılan vəsait", "263300. "Dövlət hesabına ali təhsil müəssisələrində təhsil xərcləri", "263400. "Xarici ölkələrin təhsil müəssisələrinin Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən nümayəndəlikləri və filiallarına ödənişlər", "263500. "Dövlət adından yaradılan publik hüquqi şəxslərə ödənişlər" paraqrafları əlavə edilsin.

7. Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə" üzrə:

7.1. "211000. "Əməkhaqqı" köməkçi bölməsinə "və" sözündən əvvəl ", "211300. "Diplomatik və ticarət nümayəndəliklərində çalışan işçilərin əməkhaqqı, təmsilçilik və birdəfəlik yerləşmə müavinəti" sözləri əlavə edilsin;

7.2. aşağıdakı məzmunda 211300-cü paraqraf əlavə edilsin:

"211300. "Diplomatik və ticarət nümayəndəliklərində çalışan işçilərin əməkhaqqı, təmsilçilik və birdəfəlik yerləşmə müavinəti" paraqrafına Azərbaycan Respublikasının xaricdəki diplomatik və ticarət nümayəndəlikləri üzrə ştatda olan və ştatdankənar işçilərinin əməkhaqqı, təmsilçilik və təyin olunduqları vəzifəyə uyğun birdəfəlik yerləşmə müavinəti xərcləri daxildir.";

7.3. "211900. "Əməyin ödənişi ilə bağlı digər pul ödənişləri" paraqrafına "yardımlar," sözündən sonra "dairə seçki komissiyasının üzvlərinə pul təminatının ödənilməsi xərcləri," sözləri əlavə edilsin və həmin paraqrafdan "diplomatik xidmət əməkdaşlarına vəzifəyə təyin olunduqları diplomatik nümayəndəliklərdə birdəfəlik müavinət," sözləri çıxarılsın;

7.4. "221000. "Malların satınalınması" köməkçi bölməsinə (altıncı halda) "və" sözündən əvvəl ", "221700. "Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəlikləri üzrə malların satınalınması" sözləri əlavə edilsin;

7.5. "221100. "Dəftərxana və təsərrüfat xərcləri" paraqrafında "katriclərin" sözü "kartriclərin alınması" sözləri ilə əvəz edilsin və həmin paraqrafdan ", Azərbaycan Respublikasının xaricdə olan səfirlik, konsulluq və başqa diplomatik nümayəndəliklərinə aid olan bu kimi dəftərxana və təsərrüfat" sözləri çıxarılsın;

7.6. "221200. "Mətbəə məhsulları üzrə xərclər" paraqrafına "buklet," sözündən sonra "sertifikatlar, vəsiqələr," sözləri, "(məhsullarının)" sözündən sonra ", arxiv qutularının" sözləri əlavə edilsin;

7.7. aşağıdakı məzmunda 221700-cü paraqraf əlavə edilsin:

"221700. "Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəlikləri üzrə malların satınalınması" paraqrafına Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəliklərinin dəftərxana və təsərrüfat mallarının, mətbəə məhsullarının, yanacaq və sürtkü materiallarının, dərman, sarğı ləvazimatlarının və materiallarının, yumşaq inventarın, yataq ləvazimatları və xüsusi geyimlərin, ərzaq məhsullarının və digər malların alınması və təminatı üzrə xərclər daxildir.";

7.8. "221900. "Digər malların alınması" paraqrafına "dəyərinin ödənilməsi," sözlərindən sonra "qəzet," sözü, "uçot sənədlərinin" sözlərindən sonra ", kitabların, lövhələrin" sözləri və (ikinci halda) "və alınması," sözlərindən sonra "təbii gül və əklillərin," sözləri əlavə edilsin, "prokatı" sözü "icarəsi" sözü ilə əvəz edilsin və həmin paraqrafdan ", habelə Azərbaycan Respublikasının xaricdə olan diplomatik nümayəndəlikləri üzrə 221100-cü, 221200-cü və 221500-cü paraqraflarına aid və 221100-221600-cü paraqraflarında qeyd olunmayan digər alışlarla bağlı xərclər" sözləri çıxarılsın;

7.9. "222100. "Cari təmir" paraqrafında üçüncü cümlədə (ikinci halda) "və" sözü vergül işarəsi ilə əvəz olunsun və həmin paraqrafa "maddələrindən" sözündən əvvəl "və "222140. "Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəlikləri üzrə cari təmir xərcləri" sözləri əlavə edilsin;

7.10. aşağıdakı məzmunda 222140-cı maddə əlavə edilsin:

"222140. "Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəlikləri üzrə cari təmir xərcləri" maddəsinə Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəlikləri üzrə tikili, qurğu, avadanlıq və nəqliyyat vasitələrinin cari təmir xərcləri daxildir.";

7.11. "222300. "Rabitə xidmətləri haqqının ödənilməsi" paraqrafında "və "222340. "Proqram təminatlarına xidmət haqlarının ödənilməsi" sözləri "və "222350. Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəlikləri üzrə rabitə xidmətləri haqlarının ödənilməsi" sözləri ilə əvəz edilsin;

7.12. "222311. "Ölkədaxili telefon danışıq haqlarının ödənilməsi" yarımmaddəsinə "abunə haqlarının" sözlərindən sonra ", SMS xidmətlərinin dəyərinin ödənilməsi" sözləri əlavə edilsin;

7.13. "222320. "Poçt xidmətləri haqqının ödənilməsi" maddəsindən ", həmçinin 222311-ci və 222312-ci yarımmaddələr üzrə Azərbaycan Respublikasının xaricdə olan səfirlik, konsulluq və başqa diplomatik nümayəndəliklərinə aid olan xərclər" sözləri çıxarılsın;

7.14. "222340. "Proqram təminatlarına və məlumat bazalarına xidmət haqlarının ödənilməsi" maddəsinə proqram təminatlarına, məlumat bazalarına xidmətlə bağlı xərclər, informasiya təhlükəsizliyinin təmin edilməsi xərcləri və bu qəbildən olan digər xərclər daxildir." cümləsi çıxarılsın;

7.15. aşağıdakı məzmunda 222350-ci maddə əlavə edilsin:

"222350. "Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəlikləri üzrə rabitə xidmətləri haqlarının ödənilməsi" maddəsinə Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəliklərinin rabitə xidmətlərinin, telefon danışıqlarının, poçt, internet və SMS xidmətlərinin ödənilməsi xərcləri daxildir.";

7.16. "222400. "Əsas fondların və digər aktivlərin icarəsi, kirayəsi, saxlanılması və mühafizəsi xərcləri" paraqrafında (dördüncü halda) "və" sözü vergül işarəsi ilə əvəz edilsin və həmin paraqrafa "maddələrinin" sözündən əvvəl "və "222450. "Proqram təminatlarına və məlumat bazalarına xidmət haqlarının ödənilməsi" sözləri əlavə edilsin;

7.17. aşağıdakı məzmunda 222450-ci maddə əlavə edilsin:

"222450. "Proqram təminatlarına və məlumat bazalarına xidmət haqlarının ödənilməsi" maddəsinə proqram təminatlarına, məlumat bazalarına xidmətlə bağlı xərclər, informasiya təhlükəsizliyinin təmin edilməsi xərcləri və bu qəbildən olan digər xərclər daxildir.";

7.18. "222920. "İstehlakyönlü müxtəlif xidmətlər" maddəsinə "xidmət göstərilməsi xərcləri," sözlərindən sonra "kənd təsərrüfatı və ərzaq məhsullarının satışı yarmarkalarının təşkili ilə bağlı tədbirlərin dəstəklənməsi üzrə xərclər, kənd təsərrüfatı sahəsində göstərilən xidmətlər,", "mətbuatda" sözündən sonra "həmçinin sosial şəbəkədə" sözləri əlavə edilsin, "sənədlərə" sözü "sənədlərin ekspertizasına görə" sözləri ilə əvəz edilsin və həmin maddədən ikinci cümlə çıxarılsın;

7.19. "222990. "Sair xərclər" maddəsinə "yerinə yetirən şəxslərə" sözlərindən sonra ", habelə penitensiar müəssisələrdə cəza çəkən şəxslərə" sözləri əlavə edilsin;

7.20. "260000. "Qrantlar və digər ödənişlər" bölməsinin ikinci cümləsindən (ikinci halda) "və" sözü çıxarılsın, həmin bölməyə "köməkçi bölmələrindən" sözlərindən əvvəl "və "263000. "Dövlət sifarişi, dövlət öhdəlikləri və bu qəbildən olan digər öhdəliklərin ödənilməsi" sözləri əlavə edilsin;

7.21. aşağıdakı məzmunda 263000-ci köməkçi bölmə və 263100, 263200, 263300, 263400, 263500-cü paraqraflar əlavə edilsin:

"263000. "Dövlət sifarişi, dövlət öhdəlikləri və bu qəbildən olan digər öhdəliklərin ödənilməsi" köməkçi bölməsinə dövlət büdcəsinin vəsaiti hesabına dövlət sifarişi, dövlət öhdəliklərinin maliyyələşdirilməsi, Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait, dövlət büdcəsinin vəsaiti hesabına əhalinin icbari tibbi sığortalanması üçün İcbari Tibbi Sığorta Fonduna ayrılan vəsait, dövlət sifarişi və dövlət hesabına ali təhsil müəssisələrində xaricdə və ölkə daxilində təhsil alan tələbələrin təhsil xərcləri, əcnəbi tələbələr üçün təsis edilmiş təhsil qrantı proqramları üzrə xərclər, habelə dövlət sifarişi ilə dövlət büdcəsinin vəsaiti hesabına təyinatlı tədbirlərin, xarici ölkələrin təhsil müəssisələrinin Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən nümayəndəlikləri və filiallarına ödənişlər, müxtəlif işlərin həyata keçirilməsi üçün dövlətin adından yaradılan publik hüquqi şəxslərə məqsədli vəsaitlərin ödənilməsi ilə bağlı xərclər daxildir. Bu köməkçi bölmə "263100. "Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması", "263200. "İcbari Tibbi Sığorta Fonduna ayrılan vəsait", "263300. "Dövlət hesabına ali təhsil müəssisələrində təhsil xərcləri", "263400. "Xarici ölkələrin təhsil müəssisələrinin Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən nümayəndəlikləri və filiallarına ödənişlər", "263500. "Dövlət adından yaradılan publik hüquqi şəxslərə ödənişlər" paraqraflarından ibarətdir.

263100. "Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması" paraqrafına Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait daxildir.

263200. "İcbari Tibbi Sığorta Fonduna ayrılan vəsait" paraqrafına dövlət büdcəsinin vəsaiti hesabına əhalinin icbari tibbi sığortalanması ilə bağlı xərclər daxildir.

263300. "Dövlət hesabına ali təhsil müəssisələrində təhsil xərcləri" paraqrafına dövlət sifarişi və dövlət hesabına ali təhsil müəssisələrində xaricdə və ölkə daxilində təhsil alan tələbələrin təhsil xərcləri, əcnəbi tələbələr üçün təsis edilmiş təhsil qrantı proqramları üzrə xərclər daxildir.

263400. "Xarici ölkələrin təhsil müəssisələrinin Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən nümayəndəlikləri və filiallarına ödənişlər" paraqrafına xarici ölkələrin təhsil müəssisələrinin Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən nümayəndəlikləri və filiallarının fəaliyyəti ilə bağlı xərclər daxildir.

263500. "Dövlət adından yaradılan publik hüquqi şəxslərə ödənişlər" paraqrafına dövlət büdcəsi hesabına işlərin həyata keçirilməsi üçün dövlətin adından yaradılan publik hüquqi şəxslərə məqsədli vəsaitlərin ödənilməsi ilə bağlı xərclər daxildir.";

7.22. "311900. "Sair torpaq, tikili və avadanlıqlar" paraqrafına "xərclər" sözündən sonra ", habelə Azərbaycan Respublikasının xaricdə olan diplomatik və ticarət nümayəndəlikləri üzrə torpaq, tikili və avadanlıqların alınması xərcləri" sözləri əlavə edilsin;

7.23. "312900. "Sair torpaq, tikili və avadanlıqların əsaslı təmiri" paraqrafına "xərclər" sözündən sonra ", həmçinin Azərbaycan Respublikasının xaricdə olan diplomatik və ticarət nümayəndəliklərinin tikili və avadanlıqlarının, nəqliyyat vasitələrinin əsaslı təmir xərcləri" sözləri əlavə edilsin;

7.24. "314000. "Qeyri-maddi aktivlər" köməkçi bölməsinə "habelə qeyri-maddi aktivlərin" sözlərindən sonra ", o cümlədən rəsmi internet səhifələrinin" sözləri əlavə edilsin.

8. Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı" yeni redaksiyada verilsin (əlavə olunur).

9. Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı"ndan sonra "Azərbaycan Respublikasının büdcə xərclərinin proqram təsnifatı" əlavə edilsin (əlavə olunur).

10. Bu Qərar 2023-cü il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

**Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı (ARKİ) rəhbərliyinin iştirakı ilə təşkil olunan dəyirmi masa milli kinematoqrafiyamızın 125 və “Azərbaycanfilm” kinostudiyasının 100 illik yubileylərinə həsr edildi. Qonaqlarımız ARKİ İdarə Heyətinin katibləri – Xalq artistləri Oqtay Mirqasım, Vaqif Mustafayev və Əməkdar incəsənət xadimi Ayaz Salayev, İttifaqın icraçı katibi, Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev və ARKİ İdarə Heyətinin üzvü, Əməkdar incəsənət xadimi Aydın Kazımzadə idi.**

# Milli kinomuzun şöhrət salnaməsi

## *“Xalq qəzeti”ndə dəyirmi masa*



“Xalq qəzeti”nin baş redaktoru, Əməkdar jurnalist Əflatun Amaşov qonaqları salamlayaraq, milli kinomuzun hər iki əlamətdar yubileyinin “Heydər Əliyev İli”nə təsadüf etdiyini xatırladaraq dedi ki, ulu öndər daim mədəniyyətə, o cümlədən kinoya diqqət və qayğı göstərmişdir. Ötən onilliklərdə ekran yaradıcılığı sahəsində xeyli uğur əldə edilmişdir.

**Əflatun AMAŞOV:**

– Qəzetimizin səhifələrində ölkənin ictimai-siyasi həyatının bütün sahələri kimi, milli kinomuzla bağlı mövzular da xüsusi yer tutur. Vaxtaşırı olaraq ayrıca rubrika ilə Azərbaycan kinosunun və “Azərbaycanfilm” kinostudiyasının yubileylərinə həsr olunan məqalələr dərc etmişik və bu iş yenə də davam edir. Məsələn, tanınmış kino tədqiqatçısı Aydın Kazımzadə redaksiyamızla sıx yaradıcılıq əlaqəsi saxlayır və maraqlı mövzularla tez-tez qəzetimizin səhifələrində çıxışlar edir. Bu gün sizinlə bir arada olmaq, fikirlərinizi dinləmək böyük sevincdir.

**Cəmil QULİYEV:**

– Əvvəla, bu görüşə görə minnətdarlığımı bildirirəm. “Xalq qəzeti”nin bizim yubileylərimizə diqqət ayırması önəmli faktdır.

Kinomuzun tarixinə, təşəkkülünə və inkişaf yoluna nəzər salsaq, burada bir məqam mübaliğəsiz qeyd edilməlidir:



Azərbaycan kinosunun inkişafı, formalaşması, strategiyasının qurulması birmənalı olaraq ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. 1969-cu ildə Heydər Əliyev Azərbaycan KP MK-nın I katibi seçildikdən sonra milli kinomuza diqqət xeyli artdı. 1976-cı ildə Heydər Əliyevin göstərişi ilə Azərbaycan kinosunun 60 illiyi keçirildi. Bakıya xarici ölkələrdən qonaqlar gəldi. Bir həftə ərzində möhtəşəm yubiley tədbirləri təşkil olundu. Heydər Əliyevin sayəsində “Azərbaycanfilm” kinostudiyasının maddi-texniki bazası yaxşılaşdırıldı. O dövrdə kino şəbəkəsinin qurulmasına, kinoteatrların sayına görə respublikamız ölkədə üçüncü yerə çıxmışdı. Ukrayna, Qazaxıstan kimi respublikaları geridə qoymuşduq. Eyni zamanda, həmin dövrdə kinematoqrafçıların maddi rifahı yaxşılaşdırılmışdı.





O zaman ümummilli liderimizin tapşırığı ilə kinematoqrafçılara bina verildi, uşaqları üçün Buzovna qəsəbəsində pioner düşərgəsi yaradıldı.

Müqayisə üçün daha bir fakt: əgər 1969-cu ildə cəmi bir Xalq artistimiz (Əjdər İbrahimov) var idisə, 1976-cı ildə Heydər Əliyevin sayəsində neçə-neçə görkəmli kino xadiminə Xalq artisti, Əməkdar incəsənət xadimi kimi fəxri adlar verildi. Həsən Seyidbəyli, Eldar Quliyev, Hüseyn Seyidzadə kimi xadimlər o vaxta kimi diqqətdən kənarda qalmışdılar, onlar da layiqli qiymətlərini aldılar.

Ümummilli liderin zamanında kinomuzda tarixi mövzulara daha çox diqqət yetirildi. “Nəsimi”, “Dədə Qorqud”, “Nizami”, “Babək” filmləri ulu öndərin təşəbbüsü ilə ərsəyə gətirildi. Müstəqillik əldə edildən sonra da ulu öndər kinoya lazımi diqqət ayırdı. Məhz Heydər Əliyevin 2000-ci il 18 dekabr tarixli sərəncamı ilə 2 Avqust – Azərbaycanda Kino Günü təsis edildi.

**Əflatun AMAŞOV:**

– Yaxşı yadımdadır, AZƏRTAC qrupunun tərkibində Monqolustanda Azərbaycan mədəniyyəti festivalına getmişdim. Oqtay Mirqasım da orada idi, “Şeytan göz qabağında” filmini aparmışdı. Həmin film neçə dəfə nümayiş olundu. Qəzetlər yazırdı ki, nə əcəb sovet vaxtında belə film çəkilib? Aktual məsələnin qoyuluşu və filmin o cür dəyərləndirilməsi fərəhli idi. Axşam istirahəti saatlarında insanların yaxınlaşaraq Oqtay müəllimdən avtoqraf istəmələri hər birimizə xoş təsir bağışlayırdı.

**Oqtay MİRQASIM:**

– Çox sağ olun ki, həmin səfərimizi yada saldınız. Doğrudan da, film öz sözünü dedi o vaxt. Heydər Əliyevin kino, ümumiyyətlə, mədəniyyət, incəsənət və teatr strategiyası məhəbbət üzərində qurulmuşdu. O bu sahəni sevdiyinə görə izləyir, diqqətində saxlayırdı. Eldar Quliyevin “Bir cənub şəhərində” filmi var idi. Heydər Əliyevin müdaxiləsi olmasaydı, yəqin o film məhv ediləcəkdi. Ulu öndər üstümüzə olan hücumlara beləcə sipər çəkirdi.

Mən “Azərkinovideo”da işləyirdim. Ümumazərbaycan sərgisi keçiriləndə bizə tapşırıldı ki, kino da ayrıca stenddə təqdim olunsun. Heydər Əliyev kino stendinin qarşısında xeyli dayandı. Mən kino tarixinə aid faktları sadaladım. Bir filmə gələndə dedim ki, bu film 1938-ci ildə ekranlara çıxarılıb. Ulu öndər əlimi tutub yavaşca dedi ki, 38-ci ildə yox, 39-cu ildə ekranlara çıxıb. Heydər Əliyev, bax, belə dəqiq bilirdi kino tarixini.

Budur, artıq kinomuzun 125, kinostudiyamızın 100 illiyini qeyd edirik. Qazanılan bütün nailiyyətlərə görə məhz ulu öndərin ölməz ruhuna borcluyuq.

Əlbəttə, milli kinomuzun problemləri də yox deyil. Son zamanlar kino kluarlarında belə yanlış düşüncə yaranıb ki, bizim də filmlər Qərbdəki kimi olmalıdır. Bəli, xaricdə çəkiliş texnikası və kino dilinin inkişafı bizimkindən üstündür. Lakin bu, bizə əsas vermir ki, əxlaqi özəlliklərimizi nəyəsə qurban verək. Mentallığı qorumasaq, dağıdıcı proseslərə rəvac vermiş olarıq. Bir aktrisanın dediyinə görə, bu yaxınlarda tələbələrdən biri özünün kurs işində onun çəkilməsini istəyib. Ssenariyə baxan aktrisa dəhşətə gəlib. Səndemə, süjet xətti yaşlı qadının cavan oğlanla intim münasibətindən bəhs edirmiş. Aktrisa filmə çəkilməkdən imtina edəndə tələbə-rejissor deyib ki, bu film festivala gedəcək, orada belə şeylər istəyirlər. Əlbəttə, absurddur.

Yaxşı olar ki, “Xalq qəzeti”ndə ayrıca bir rubrika yaradılsın və orada xalqın sərvəti olan kinomuz haqqında kiçik təəssüratlar yer alsın, fikirlər söylənsin. Hətta düz yoldan sapa biləcək gənc rejissorlara tövsiyələr də qəzet səhifəsinə çıxarılsın...

**Əflatun AMAŞOV:**

– Elə etmək lazımdır ki, pis nümunələr təbliğ olunmasın. Yaşlı qadının cavan oğlanı sevməsi dünya kinosunda var. Ancaq yanaşma peşəkar olmalıdır, orada hikmət, maarifləndirmə olmalıdır. Vaqif müəllim, söz Sizindir. Onu da deyim ki, biz Mətbuat Şurasında Azərbaycan filmi ilə bağlı yeganə mükafatı Sizə vermişik.

**Vaqif MUSTAFAYEV:**

– Qəzetinizin yeni formatı, orada yer verilən yazılar, mövzular məni sevindirir. “Xalq qəzeti” artıq əl-əl gəzməyə başlayıb. Orada yazılan “Xalqın



qəzeti” devizi özünü doğruldur.

Kinoya gəlincə isə, birbaşa deyim ki, hazırda qondarma kinoşünasların sayı çoxalıb. Hətta onlara mükəmməl bir film göstərəndə də bəyənmirlər. Halbuki, kökə bağlı olmaq və obyektivlik hissini itirməmək hər zaman vacibdir.

…“Hər şey yaxşılığa doğru” filmini çəkmişdim. Dövlət sifarişi deyildi, bir ingilis şirkəti dəstəkləmişdi və bu film nüfuzlu Hauzen festivalında 4 mükafata layiq görülmüşdü. Sonradan bilmişdim ki, onu Heydər Əliyev də bəyənib. Mədəniyyət nazirlərinin sammitində iştirakçılara deyibmiş ki, vaxtınızı boşuna keçirməyin, gedin, Vaqif Mustafayevin “Hər şey yaxşılığa doğru” filminə baxın. Sözsüz ki, böyük qiymət idi. Bir dəfə də mənə müraciət edilmişdi ki, bəs, sizin filminizi ermənilər istəyirlər. Çaş-baş qaldım. Birinci Qarabağ müharibəsindən sonra belə təklifin olunması gözlənilməz idi. Ulu öndəri məsələdən xəbərdar elədim, məsləhət istədim. Dedi ki, sən çıxılmaz vəziyyətdə qalan adam deyilsən, axı. Həmin filmi dərhal göndərməliyik, fikirləşmədən. Qoy, onlar bu film vasitəsilə xalqımızın humanistliyini görsünlər. Ondan sonra filmi göndərdik.

Yeri gəlmişkən, ulu öndər Heydər Əliyev haqqında filmlərin müəllifi olmağımla hər zaman fəxr etmişəm. Ümummilli liderə həsr olunmuş 12 sənədli filmin müəllifiyəm.. Bu filmlərdən üçü – “Əsl məhəbbət haqqında”, “Bir həsədin tarixi” və “Xüsusi təyinat ” filmləri Moskvada keçirilən Avrasiya Teleforumunun Qran-pri mükafatına layiq görülüb. Oradan qayıdandan sonra Heydər Əliyevlə görüşməli idim. O da Şəhidlər xiyabanına getmişdi. Məni apardılar yanına. AZTV də çəkirdi. Dedi ki, respublikada tapılmırsan, gündə bir mükafat alırsan? Cavab verdim ki, Heydər Əliyeviç, bu, sizin sayənizdə olur. Sizin şəxsiyyətinizə bütün dünyada o qədər maraq var ki, ona görə belə olur. Bəli, birmənalı olan budur ki, Heydər Əliyev xalqını, yaradıcı adamları sevirdi. Biz “Mozalan”da işləyəndə filmlərimizin hər bir nömrəsinə baxardı…

**Ayaz SALAYEV:**

– Bu barədə düşündükcə “Uca zirvə məsafədən daha yaxşı görünür” kəlamı yadıma düşür. Heydər Əliyevin diqqəti, qayğısı Azərbaycan kinosunu tanıdıb. Ulu öndərin müstəqillik arzuları reallaşdı, Zəfər arzusu gerçəkləşdi. Bu duyğuları qələbədən sonra Şuşada, Cıdır düzündə, “Xarıbülbül” festivalında şəxsən yaşadım. Azərbaycan dövlətinin uğurlu siyasəti və parlaq incəsənəti Şuşada birləşmişdi. Sirr deyil ki, zaman-zaman bizi dünya ictimaiyyətinə azlıqların ölkəsi kimi tanıtmaq cəhdləri olub. Amma Heydər Əliyev və İlham Əliyevin müdrik siyasəti sayəsində bütün o stereotiplər aradan qalxdı. Gərək bu, kinomuzda da özünü parlaq şəkildə göstərsin.

**Vaqif MUSTAFAYEV:**

– Tam doğru. İndi əsas odur ki, Qələbəmizin möhtəşəmliyini göstərə bilən filmlər meydana gəlsin. Biz Qələbə çalmış ölkənin vətəndaşlarıyıq. Bu, özünü filmlərimizdə də göstərməlidir, özü də yüksək peşəkarlıqla. “Fəryad 1” Birinci Qarabağ savaşına aiddir, 1993-cü ildə çəkilib. İnşallah, “Fəryad 2” hazırkı qalibiyyət dönəminin filmi olar.



**Aydın KAZIMZADƏ:**

– Kino Forumu ərəfəsində belə bir görüşün keçirilməsi son dərəcə təqdirəlayiqdir. Yığışıb nailiyyətlərdən danışmağımız, problemləri qabartmağımız, bu cür işgüzar müzakirələr aparmağımız xoşdur. Mən tez-tez kinomuzla bağlı bu və ya digər mövzuda yazılarla “Xalq qəzeti”ndə çıxış edirəm. Tariximiz şərəflidir, amma estafeti əldə möhkəm saxlamaq tələb olunur. Açığı, bu gün kinolarımızda müəyyən cılızlaşmanın baş verdiyi müşahidə olunur. Elə etməliyik ki, bütün səylərimizi böyük kino naminə, inkişafa davam tendensiyasına yönəldək.

Xatırlayıram ki, 1970-ci ildə Sovet Azərbaycanına həsr olunmuş bir sərgi keçirilirdi. Kinoya da stendlər ayrılmışdı və orada Babəkin paltarı, papağı da nümayiş etdirilirdi. Bu, ulu öndərin diqqətini cəlb etdi. Deyim ki, heç bir stendin qarşısında oradakı qədər dayanmadı. Tarixi şəxsiyyətlərimizin, qəhrəmanlarımızın kinoda əbədiləşdirilməsi ilə bağlı dəyərli tövsiyələr verdi. Təkrar olsa da, deyim ki, elə “Babək”, “Nəsimi”, “Nizami”, “Dədə Qorqud” filmlərimiz məhz Heydər Əliyevin səyi, dəstəyi ilə hasilə yetibdir.

Həmin sərgidə kino eksponatları arasında nümayiş etdirilən bir vaza da vardı. Ümummilli lider ona baxaraq soruşdu: “Bu, Düşənbədə “İstintaq” filminə verilən mükafatdırmı?” Düz deyirdi. Həmin an hər birimiz ulu öndərin yaddaşına, fəhminə, bilgisinə heyran qaldıq... Mən bu barədə “Heydər Əliyev və Azərbaycan kinematoqrafı” adlı kitabımda yazmışam.

Bəli, dünən edilənlər dünəndə qalıb. Bəs, bugünün vəzifələri nədən ibarətdir? Bu gün Qarabağı erməni işğalından azad etmiş igidlərimizin – zamanəmizin qəhrəmanlarının kinoda bədii obrazları eyni vüsətlə yaradılmalıdır.

**Ayaz SALAYEV:**

– Doğrudur. Bu gün biz, sanki, bir millət kimi yenidən doğulmuşuq. Qalib xalq olmağımız kinonun çiyninə böyük yük qoyur. Biz kino sənətinin təmsilçiləri qəhrəman xalqımıza çox borcluyuq və bu borcdan öz yaradıcılıq səylərimizlə çıxmağa çalışmalıyıq.

**Oqtay MİRQASIM:**

– Eyni zamanda, ulu öndərin sənətə verdiyi qiymətə, biz sənətçilərə olan qayğısına da ömrümüz boyu layiqli işlərlə cavab verməliyik. Yadıma gəlir, Heydər Əliyev Xalq artisti Nəsibə Zeynalova haqqında demişdi ki, Nəsibə xanım əbədi deyil, “Qaynana”nı ekranlaşdırın ki, ondan yadigar qalsın. Minnətdarıq ki, Heydər Əliyevin tövsiyəsi ilə təkcə o əsər yox, Anarın “Şəhərin yay günləri”, “İmtahan”, “Babək” və sair kimi çox gözəl filmlər də yadigar qaldı.

Dəyirmi masada milli kinomuzun bu günü və sabahı ilə bağlı qayğılar əsas leytmotiv oldu. Qonaqlarımızın fikirlərində tənqidi notlar da vardı, amma nikbin bir ruh da duyulurdu. Bunun adı sabaha inam idi.



***Hazırladılar:***
***Əli NƏCƏFXANLI,***
***Rizvan FİKRƏTOĞLU,***
***“Xalq qəzeti”***

# Regionların sürətli inkişafı dövlətimizin gücünü göstərir

**Azərbaycan iqtisadiyyatını gücləndirən əsas amillərdən biri olan regionların dinamik inkişafı daim diqqətdə saxlanılır və bununla bağlı genişhəcmli layihələr reallaşdırılır. Dövlətimizin başçısı İlham Əliyev belə bir vəzifənin yüksək səviyyədə gerçəkləşdirilməsi məqsədilə vaxtaşırı rayonlara səfər edir. Bu zaman ölkə rəhbəri yerlərdə investisiyaların qeyri-neft sektoruna, xüsusən də bölgələrin inkişafına yönəldilməsi, əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılması, işsizlik probleminin həlli, əhalinin həyat şəraitinin yaxşılaşdırılması ilə maraqlanır, üzləşilən çətinliklərin aradan qaldırılması üçün icra strukturlarına zəruri tapşırıq və tövsiyələrini çatdırır.**



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Neftçala və Salyan rayonlarına səfərləri zamanı da yuxarıda vurğulanan məqamlar, ümumiyyətlə, sosial-iqtisadi amillər önə çəkilib, ölkə rəhbəri tərəfindən bu istiqamətdə gerçəkləşdirilən tədbirlər yüksək dəyərləndirilib. Bütün bu görülən işlər Azərbaycanın hazırda 2021-2030-cu illəri əhatə edən keyfiyyətcə yeni bir strateji mərhələyə daxil olmasından xəbər verir. Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan iqtisadi strategiya və dərin islahatlar ölkəmizin iqtisadi qüdrətinin daha da artacağına, müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinin formalaşacağına zəmin yaradır.

Ölkə rəhbəri Salyan şəhərində Azərbaycan Televiziyasına müsahibəsində bu barədə ətraflı bəhs edib. Dövlətimizin başçısı deyib: “Mən Azərbaycanın bölgələrinə tez-tez səfərlər edirəm. Bildiyiniz kimi, 2004-cü ildən başlayaraq Azərbaycanda regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları həyata keçirilir. Hazırda 4-cü proqram icra edilir. Bu proqramların icrası nəticəsində bölgələrdə çox böyük genişmiqyaslı quruculuq işləri aparılmışdır”.

Prezident İlham Əliyev müsahibəsinin davamında bölgələrə səfərlərinin nəzarət üçün bir vasitə olduğunu, başqa sözlə, verdiyi tapşırıqların necə yerinə yetirilməsi məqsədi daşıdığını bildirib. Həqiqətən də, dövlətimizin başçısı fəaliyyətinin bütün mərhələlərində bölgələrdə insanların rifah halının yaxşılaşdırılmasına, infrastruktur obyektlərinin yaradılmasına, o cümlədən sosial infrastrukturla bağlı işlərin aparılmasına mühüm önəm verib. Bu isə həm regionların ümumi inkişafını gerçəkləşdirib, əhalinin sosial şəraitinə müsbət təsir göstərib, həm də ölkəmizi gücləndirib.

Yeri gəlmişkən, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Neftçala və Salyan rayonlarına səfərləri çərçivəsində bir sıra sosial-iqtisadi obyektlərin istifadəyə verilməsi, bəzilərində isə yaradılan şəraitlə tanışlıq ölkə rəhbərinin hər zaman öz vətəndaşının yanında dayanması, qayğısı ilə maraqlanması və bölgələrdə quruculluq işlərini diqqətdə saxlamasının bariz ifadəsidir.

Prezident İlham Əliyevin səfər zamanı Salyanda “ASAN xidmət” mərkəzinin açılışını reallaşdırması xüsusilə mühüm hadisədir. Belə bir xidmət mərkəzinin istifadəyə verilməsi əhalinin sosial şəraitinin davamlı yaxşılaşdırılmasına böyük töhfədir. Xatırladaq ki, bu, sayca 25-ci mərkəzdir.

Yeri gəlmişkən, “ASAN xidmət” sistemi bu gün dünyada Azərbaycan brendi kimi tanınır və respublikamızda uğurla fəaliyyət göstərir, bu mərkəzlərdə xidmətlər əhali tərəfindən rəğbətlə qarşılanır və bəyənmə əmsalı 99,8 faizdir.

Prezident İlham Əliyev müsahibəsində Neftçala və Salyan rayonlarında Olimpiya İdman Kompleksi, uşaq xəstəxanası, doğum evi və elektrik təchizatı ilə bağlı rəqəmsal idarəetmə mərkəzinin istifadəyə verilməsini sosial siyasətin uğurla icra olunmasının bariz nümunəsi, Neftçala rayonunda böyük balıqçılıq təsərrüfatının açılışını, eyni zamanda, Neftçala-Kürkənd-2 nömrəli Mayak avtomobil yolunun yenidənqurmadan sonra açılışını isə ölkəmizin dinamik şəkildə inkişafının göstəricisi kimi qiymətləndirib.

Dövlətimizin başçısı müsahibəsində işğaldan azad olunan ərazilərdə–Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı və sürətli bərpa-yenidənqurma işləri barədə də fikirlərini diqqətə çatdırıb. Dövlətimizin başçısı deyib: “Hazırda Qarabağın və Şərqi Zəngəzurun bərpa edilməsi məsələsi bizim üçün əsas prioritetdir və mənim bölgələrə səfərlərimin əksəriyyəti məhz o bölgələrə olan səfərlərdir. Halbuki mən ölkəmizin digər yerlərinə də müntəzəm olaraq gedirəm. Qarabağ və Şərqi Zəngəzurda görülmüş işlər bir daha onu göstərir ki, biz– bu torpaqların sahibləri öz doğma dədə-baba torpaqlarımıza qayıtmışıq. Otuz il ərzində Ermənistan bu torpaqları viran qoyub, daş-daş üstə qoymayıb, talançılıq və soyğunçuluqla məşğul olub, barbarlıqla məşğul olub. Biz– bu torpaqların sahibləri isə gəlmişik qurmaq üçün, yaratmaq üçün...”.

Prezident İlham Əliyevin müsahibədə diqqətə çatdırdığı kimi, Vətən müharibəsi başa çatandan dərhal sonra Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa-quruculuq layihələrinin icrasına start verilib. Qısa müddətdə iki kənddə–Ağalı və Talış yaşayış sahələrində məskunlaşdırma aparılıb. Keçmiş məcburi köçkünlərin Laçın şəhərinə qayıdışının isə ilin sonuna qədər gerçəkləşdiriləcəyi nəzərdə tutulub.

Onu da qeyd edək ki, hazırda Şuşa şəhərində birinci yaşayış kompleksi uğurla inşa edilir. İkinci böyük yaşayış kompleksinin təməlinin də yaxın vaxtlarda qoyulacağı nəzərdə tutulur. Ağdam, Füzuli, Zəngilan şəhərlərində yaşayış binalarının inşası plan üzrə aparılır, Kəlbəcər və Cəbrayıl şəhərlərində isə buna hazırlıq işləri görülür.

Hazırda düşməndən təmizlənən ərazilərdə infrastruktur layihələri uğurla icra edilir. Dəmir və avtomobil yollarının çəkilişi, elektrik enerjisi, su təchizatı məsələləri, meliorativ tədbirlərlə bağlı layihələr reallaşdırılır. İki hava limanı artıq fəaliyyətdədir, üçüncü hava limanının inşası isə davam edir.

Sonda bir məqamı da vurğulamaq istərdik. Cari ilin dövlət büdcəsindən işğaldan azad olunan ərazilərdə abadlıq və bərpa işlərinin davam etdirilməsi üçün 3 milyard manat vəsait ayrılıb. Son 2 il ərzində Qarabağ və Şərqi Zəngəzurun bərpasına dövlət büdcəsindən 6,4 milyard manat vəsait yönəldilib. Bu vəsait hesabına Ağdam, Füzuli və Laçın rayonlarında yollar və körpülər salınıb, su anbarları və su elektrik stansiyalarının tikintisinə başlanılıb.

Maliyyə Nazirliyinin məlumatına əsasən, cari ilin birinci rübündə isə Azərbaycan hökuməti işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasına və bərpasına 1 milyard 67 milyon manat vəsait yönəldib. Bu, 2023-cü ilin dövlət büdcəsində sözügedən məqsədlə nəzərdə tutulan 3 milyard manat vəsaitin 35,5 faizi deməkdir. Həmin vəsait sifarişçi təşkilatların müvafiq layihələr üzrə təqdim etdiyi kassa sifariş sənədləri əsasında istifadə olunub.

Vətən müharibəsində əldə edilən parlaq qələbə nəticəsində işğaldan azad olunan ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyasından, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcək. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcək.

**V.BAYRAMOV,**
**“Xalq qəzeti”**



**İki ölkə arasındakı iqtisadi münasibətlər enerji, kənd təsərrüfatı, yüksək texnologiyalar kimi sahələri əhatə edir. Bu əlaqələr, əsasən 2009-cu ildə ilk dəfə olaraq Azərbaycan və İsrail prezidentlərinin iştirakı ilə sosial-iqtisadi müqavilələrin imzalanmasından başlayır. Xatırladaq ki, həmin sənədlər kommunikasiya, təhsil, elm və texnologiya sahələrində əməkdaşlığı nəzərdə tuturdu.**

# İsrail ilə iqtisadi əlaqələr ölkələrimizi daha da yaxınlaşdırır

Tərəflər arasında iqtisadi əməkdaşlıq 2016-cı ildən Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın fəaliyyətə başlaması ilə daha da dərinləşib. 2018-ci il may ayının 15–16-da Yerusəlimdə Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın 1-ci iclasının keçirilməsi də iki dövlət arasındakı münasibətlərin genişləndirilməsinə müsbət təsir göstərib. Sonrakı mərhələdə dövlətlərin rəsmi strukturlarının əməkdaşlığı ilə bağlı bir sıra sənədlər–“Azərbaycan Respublikasının Hökuməti ilə İsrail Dövlətinin Hökuməti arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında”, “Azərbaycan Respublikası ilə İsrail Dövləti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında” sazişlərin imzalanması da iqtisadi əlaqələrin möhkəmlənməsində əhəmiyyətli rol oynayıb.

Artıq bu gün iki dövlət arasında çoxşaxəli əlaqələr mövcuddur. Məsələn, ticarət sahəsində Azərbaycan–İsrail əməkdaşlığı uğurla inkişaf edir və onun həcmi ildən-ilə artır. Əvvəllər bu əməkdaşlıq əsasən, iqtisadiyyatın neft-qaz sektoruna yönəlmişdisə, hazırda kənd təsərrüfatı, yüksək texnologiyalar kimi sahələri də əhatə edir.

Ümumiyyətlə, Azərbaycan Respublikası ilə İsrail Dövləti arasında müxtəlif sahələrdə əməkdaşlıq haqqında 12 sənəd imzalanıb. Eləcə də, ölkələr arasındakı iqtisadi əməkdaşlıq ildən-ilə genişlənib və bu da Azərbaycan ilə İsrail arasında ticarət dövriyyəsinin müvafiq şəkildə artmasını təmin edib. İsrail–Azərbaycan Ticarət-Sənaye Palatası da iqtisadi-ticari fəaliyyətin dinamik şəkildə sürətlənməsini reallaşdırıb. Palatanın əsas əməkdaşlıq istiqamətlərində informasiya texnologiyaları, telekommunikasiyalar və kibertəhlükəsizlik kimi məsələlər də daim diqqətdə saxlanılıb.

Onu da bildirək ki, 2023-cü ilin yanvar-fevral aylarında Azərbaycanla İsrail arasında əmtəə dövriyyəsi 334,1 milyon dollar təşkil edib ki, bu da ötən ilin analoji dövrü ilə müqayisədə 26,36 faiz çoxdur. Azərbaycanın əmtəə dövriyyəsində bu ölkənin payı 4,66 faiz təşkil edib. Bununla belə, İsrailin Azərbaycandakı səfiri Corc Dikin sözlərinə görə, Azərbaycanla İsrail arasında əmtəə dövriyyəsinin bu il ikiqat artacağı gözlənilir.

Yüksək inkişaf potensialına malik sahələrdən biri yüksək texnologiya sənayesidir. 2022-ci ilin iyulunda Azərbaycanın investisiya şirkəti və İsrailin kraudfandinq kapitalı üzrə aparıcı qlobal platforma olan “OurCrowd” özəl qurumu tərəfindən birgə investisiya sazişi imzalanıb. Bu ilin fevralında isə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan tərəfindən, o cümlədən İsrailin sənaye məhsullarının hazırlanması üzrə ixtisaslaşmış “LARGIX” startapına artıq 1 milyon dollar dəyərində ilk investisiyaların həyata keçirildiyini bildirib.

Qeyd edək ki, 2013-cü ildə qurulan “OurCrowd” şirkəti İsrailin vençur investisiya şirkətidir. Qiymətli kağızlar üzrə dünyanın ən böyük kütləvi maliyyələşdirmə platformalarından olan şirkət süni intellekt, texnologiya, nəqliyyat, enerji, səhiyyə, təhlükəsizlik və digər sahələrdə fəaliyyət göstərən startap şirkətlərinə investisiya qoyuluşu üzrə ixtisaslaşıb. Şirkət investorlar və qurumlar üçün startaplara, ilkin mərhələli şirkətlərə və vençur fondlara sərmayə qoyuluşu məqsədilə yatırım platforması təklif edir. “OurCrowd” şirkətinin qurucusu və baş direktoru Jonathan Medved İsraildə yüksək texnologiyalar sahəsində tanınmış mütəxəssis və vençur investorudur.

İnnovasiyalar və İT sahəsində Azərbaycan–İsrail tərəfdaşlığı böyük potensiala malikdir və gələcəkdə ekosistem startaplarının yaradılmasına, ixtisaslaşmış inkubasiya mərkəzlərinin və texnologiya parklarının inkişafına, kibertəhlükəsizlik və bir çox digər sahələrə yönəlmiş birgə layihələr çərçivəsində genişləndiriləcək.

İki ölkə arasında enerji sahəsində əməkdaşlıq münasibətlərin uğurlu inkişafının daha bir əsasını təşkil edir. İsrail özünün neft tələbatının üçdə birini Azərbaycandan idxal hesabına qarşılayır. Neft-qaz sahəsində böyük təcrübəyə malik Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) İsraildə bu sahənin inkişafına böyük töhfə verə bilər.

Təbii ki, “yaşıl enerji” sahəsində əməkdaşlıq mühüm istiqamətlərdən biridir və yaxın gələcəkdə hər iki ölkə diqqətini bu sahənin inkişafına cəmləyəcək. Bərpaolunan enerji sahəsində böyük təcrübəyə malik İsrail dəfələrlə Qarabağda və ya Azərbaycanın digər hissələrində yaşıl enerji layihələrinin reallaşdırılmasında iştirak etməyə hazır olduğunu bildirib.

**“Xalq qəzeti”**

# Göygöl rayonunda hər ağacın, hər kolun qayğısını çəkirlər…




**Siz bu yaşıllıqlara, ağaclara, kollara, çəmənliklərə bir baxın. Gözəl deyilmi?**

Bəri başdan deyim ki, çoxunun düşündüyü kimi, xarici ölkə mənzərələri deyil, Göygöl rayonunda çəkilmiş şəkillərdir. Bilirsiniz niyə göz oxşayır, hamısı bir ölçüdə-biçidədir? Çünki bu rayonda yaşıllıqlara xüsusi aqrotexniki qulluq var.

“Göygölün özü necədirsə, onun adını daşıyan rayonun yaşıllığı da o cür olmalıdır...”.

Rayon icra hakimiyyətinin başçısı Elvin Paşayevin hələ Göygöl ictimaiyyəti ilə yaxından tanış olduğu ilk günlərdə tez-tez dediyi bu sözlər sanki ayrı-ayrı təsərrüfat rəhbərlərini, bu işə məsul şəxsləri bir növ səfərbərliyə aldı. Xüsusilə aqrotexniki qulluğun müasir, daha səmərəli forma və üsullarının ön plana çəkilməsi özünü büruzə verdi və nəticə də göz qabağındadır.

–Bilirsiniz, yaşıllıq çox yerdə var, lakin hamısı eyni deyil, – deyə Göygöl Dövlət Aqrar İnkişaf Mərkəzinin rəhbəri Elməddin Əhmədov söhbət zamanı ona qulluğun nə qədər vacib olduğunu bildirdi, – gərək hər bir ağacın, kolun başına pərvanə kimi dolanasan, onlara xüsusi forma verəsən, hər gün nəzarət edəsən, suvarasan. Yoxsa “mən yaşıllığı sevirəm” deməklə məsələ bitmir. Elə gün olmaz ki, Elvin müəllim yaşıllıqlarla, onlara aqrotexniki qaydada qulluq göstərilməsi ilə maraqlanmasın. Özü də gözəl zövqü var...

Qeyd edək ki, Göygöl Dövlət Aqrar İnkişaf Mərkəzinin əməkdaşları tərəfindən rayonun istirahət guşələrində bitki mühafizə tədbirləri aparılıb. Mərkəzin bitki mühafizəsi və fumiqasiya xidmətinin əməkdaşları yaşıllıqlara bioorqanik yemləmə gübrəsi, xəstəlik və zərərvericilərə qarşı müxtəlif növ pestisidləri tətbiq ediblər. Xüsusi çiləyici texnika və aqreqatlardan istifadə olunmaqla həmişəyaşıl və dekorativ ağaclara aqrotexniki qulluq tətbiqləri aparılıb. Özü də bu iş artıq rayonda elə bir sistem şəklinə salınıb ki, artıq heç kəs təbiətin qorunmasına, yaşıllıqların artırılmasına və ona qulluq göstərilməsinə laqeyd deyil. Novruz bayramı ərəfəsində Yeni Zod kəndinin ətrafında ağacəkmə aksiyası keçirmək barədə təşəbbüs irəli sürüləndə, az qala, bütün kənd camaatı o tədbirə axışmışdı.

…Göygöl rayonu qısa vaxt ərzində öz görkəmini çox dəyişib. Hər bir istirahət guşəsi, park və xiyabanlar öz gözəlliyi və orijinallığı ilə bura gələnlərin diqqətini cəlb edir. Bu kiçik yazıda həmin gözəlliyi sözlə və şəkillərlə göstərməyə çalışdıq.

**Hamlet QASIMOV,**
**“Xalq qəzeti”nin bölgə müxbiri**

# Xətaidə “yaşıl” aksiya



**Elm və Təhsil Nazirliyinin Yüksək Texnologiyalar Parkı Xətai Rayon İcra Hakimiyyəti ilə birgə ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş ağacəkmə aksiyası keçirib.**

Xətai rayon ərazisində keçirilən aksiyada “Yüksək Texnologiyalar Parkı” MMC-nin baş direktoru Vasif Abbasov, icraçı direktor Zaur Nəhmətov, Xətai rayon icra hakimiyyəti başçısının müavini Etibar Əhmədov və qurumun digər əməkdaşları iştirak ediblər.

Aksiyanın əsas məqsədi ölkəmizdə ekologiyanın qorunması və ətraf mühitin sağlamlaşdırılmasına hər zaman böyük önəm vermiş ulu öndər Heydər Əliyevin əziz xatirəsini yad etmək, onun yaşıllaşdırma ənənələrini davam etdirmək, insanlar arasında ekoloji mədəniyyəti, təbiətə olan qayğı hissini təbliğ etməkdən ibarətdir.

**“Xalq qəzeti”**

# Sən mayın 14-də Türk dünyasının sabahına səs verəcəksən, arkadaş. Bunu unutma!




**İlk dəfədir ki, hansısa bir ölkədə keçirilən prezident seçkilərinin "əsrin seçimi" adlandırılmasını eşidirəm. Əvvəllər heç zaman eşitməmişdim ki, hansısa mütəxəssis bir ölkədə keçiriləcək seçkilərin regionda və dünyada gedən proseslərə təsir edəcəyini proqnozlaşdırsın. Elə sıravi seçicinin "Mən tarixi seçkidə iştirak edəcəyimə görə şanslıyam!" – deyə məmnunluq ifadə etməsini də ilk dəfə eşitdim. Bəli, bütün bunlar müasir Türkiyə həqiqətləridir.**

Mütəxəssislər yazırlar ki, qardaş ölkədə mayın 14-də keçiriləcək prezident və parlament seçkiləri, şübhəsiz ki, 2023-cü ildə dünyanın ən mühüm siyasi hadisələrindən biri olacaq. Ekspertlərin fikrincə, bu seçkilər Türkiyə Cümhuriyyətinin ikinci yüzilliyindəki inkişaf yolunun müəyyənləşdirilməsi baxımından tarixi əhəmiyyətlidir. Hətta, bir yol ayrıcına da bənzəyir. Çünki prezidentliyə namizədlərin məramları kifayət qədər fərqlidir.

Hər halda, seçim qardaş ölkə əhalisinindir. Xalq kimi seçəcəksə, biz – Azərbaycan vətəndaşları da həmin seçimə hörmət və ehtiramla yanaşacağıq. Yəni kiminsə qalib gəlməsi 80 milyonluq Türkiyə vətəndaşlarının iradəsindən asılı olacaq.

Ancaq jurnalist marağı ilə bir məqamı yada salmaq istəyirik. Belə ki, "Areda Survey" şirkəti Türkiyədəki prezident seçkiləri ərəfəsində – 12-14 aprel tarixlərində seçicilər arasında keçirdiyi sorğunun nəticələrini açıqlayıb. Bildirilir ki, sorğuda 10 min 136 nəfər iştirak edib. Rəyi öyrənilənlərin fikrincə, ölkənin hazırkı Prezidenti Rəcəb Tayyib Ərdoğan 50,8 faiz səslə ilk turda qalib gələcək. Respondentlərin 43,1 faizi isə CHP lideri Kamal Kılıçdaroğlunun ilk turda prezident seçiləcəyinə inanır.

Bəzi mütəxəssislər yazırlar ki, 2002-ci ildən bəri hakimiyyətdə olan Ədalət və İnkişaf Partiyası və Rəcəb Tayyib Ərdoğan üçün 14 may seçkiləri çox ciddi bir imtahan olacaq. Onların fikrincə, əsas rəqib birləşmiş müxalifət yox, ölkənin problemləridir. Yüksək inflyasiya, zəruri istehlak mallarının kəskin bahalaşması, milli valyutanın alıcılıq qabiliyyətinin xeyli aşağı düşməsi əhalini narahat edən əsas problemlərdir.

Ancaq əhalinin Rəcəb Tayyib Ərdoğana səs verməsi üçün xeyli səbəb, külli miqdarda faktlar da var. Çünki bu gün dünyanın əsas güc mərkəzlərindən birinə çevrilməkdə olan Türk Dövlətləri Təşkilatı adlı siyasi mərkəzin bu səviyyəyə çatmasında cənab Ərdoğanın misilsiz xidmətləri var. Dünyanın harasında yaşamasından asılı olmayaraq, bütün türklərin ürəyində Turan sevgisi yaşayır. Cənab Ərdoğan milyonların qəlbindəki həmin istəyin reallaşdırılması üçün lazım olan bütün addımları atmışdır. Bu gün Türkiyə Ordusu dünyanın ən öncül və müasir Silahlı Qüvvələri sırasındadır. Son zamanlar Türkiyədə istehsal olunan silah-sursat və mülki texnika vasitələri dostları sevindirir, düşmənləri isə vahiməyə salır.

Dostun da, düşmənin də gözü qabağındadır ki, qloballaşan dünyanın reallıqları, Asiyanın siyasi və iqtisadi cazibəsinin artması ilə yenidən gündəmə gələn İpək yolu Türk dövlətlərinin birliyinin dərinləşdirilməsi, daha sıx inteqrasiyası üçün yeni imkanlar açır. Bu möhtəşəm uğurların reallaşmasının önündə məhz cənab Ərdoğan gedir.

Prezident Rəcəb Tayyib Ərdoğan dünya liderləri arasında "daha ədalətli bir dünya nizamının təsisi üçün" çalışan əsas fiqurlardandır. Onun fikrincə, müasir dünyada türklərin deyiləcək sözü, həyata keçiriləcək missiyası var. Türk dünyasının yüksəlişinin regionda yaşayan bütün etnik kimliklər üçün rifah və ədalətdən pay alma anlamına gələcəyini də qəbul etmək lazımdır. Cənab Ərdoğanın bu reallıqların ərsəyə gəlməsindəki xidmətlərini kimsə dana bilməz.

Mayın 14-də sandıq başına keçəcək türk qardaşlarımız yaxşı bilirlər ki, Çar Rusiyasında olduğu kimi, SSRİ-də də türk birliyini pozmaq, türk dünyasını bir-birindən ayrı salmaq üçün bir çox layihələr həyata keçirilmişdi. Elə Zəngəzur vilayətinin Azərbaycandan alınaraq Ermənistana verilməsi də türk dünyasını bir-birindən ayrı salmaq siyasətinin əsas parçalarından idi. Lakin SSRİ-nin çöküşündən sonra yenidən Türk dünyasının bir araya gəlməsi üçün şans yarandı. Azərbaycan və Türkiyənin apardıqları düşünülmüş, praqmatik xarici siyasət, ortaq güc yaradılması və əlbəttə, əldə edilən Qarabağ Zəfəri bu prosesləri bir az da sürətləndirmiş oldu. Azərbaycan Türkmənistanla "Kəpəz" yatağı ilə bağlı məsələni həll etdi, Aşqabadla münasibətlər daha da dərinləşdi. Turan yolunun Zəngəzur dəhlizi ilə birləşməsi isə strateji boyutları etibarı ilə Türk dünyasının daha da yüksəlişinə gətirib çıxaracaqdır.

Türkiyə seçiciləri yaxşı bilirlər ki, cənab Rəcəb Tayyib Ərdoğan 44 günlük İkinci Qarabağ müharibəsinin bütün saatlarında da anadoluluların dediyi kimi, "Can Azərbaycan"ın yanında oldu: Şanlı Qələbəmizdən 20 gün sonra keçirilən Zəfər paradımızda da, Şuşa Bəyannaməsinin imzalandığı gün də, Füzuli və Zəngilan hava limanlarının açılış mərasimlərində də. Türkiyəli analitiklər dəfələrlə yazıblar ki, Ərdoğanın həmin addımları təkcə Azərbaycanı deyil, Türkiyənin özünü də, nəhayət, bütün Türk dünyasını da gücləndirib. Məhz bu kimi çoxsaylı faktları əsas götürən türk seçicilərinin ədalətli qərar verəcəyinə inanırıq.

Sonda qardaş ölkədə keçiriləcək seçkilərə birbaşa dəxli olmayan bir məqamı da yada salmaq istəyirəm. Azərbaycan Prezidenti İlham Əliyev Neftçala və Salyan rayonlarına səfərinin sonunda AzTV-yə verdiyi müsahibədə günün ən aktual mövzularından birinə çevrilmiş məsələyə münasibət bildirərkən dedi: "Mehriban xanım və mən əziz qızlarımız Cansu və Qəmzəni təbrik etdik. Birinci, ona görə ki, onlar Ermənistanda – düşmən dövlətdə, həm Azərbaycana, həm də Türkiyəyə əzəli düşmən olan dövlətdə bu böyük qələbəni əldə etdilər, Türk Bayrağını yüksəklərə qaldırdılar. Ermənilər bizim bayrağımızı yandırıblar, amma Türk Bayrağı orada dalğalanıb. Türkiyənin Dövlət Himnini səsləndirdilər. Türkiyənin Dövlət Himni elə səsləndi ki, orada oturan bütün düşmənlərin, yəqin ki, qulağı batmışdı. Bu qələbəni onlar Azərbaycana, Azərbaycan xalqına həsr etdilər. Nə qədər gözəl bir hərəkətdir. Ona görə onlar bütün Azərbaycan xalqının sevgisini qazandılar".

Bu iqtibası yada salandan sonra xatırlatmaq istəyirəm ki, həm fiziki, həm də mənəvi cəhətdən əsl türk gənci kimi güclü olan bu ağırlıqqaldıranlarımız məhz Rəcəb Tayyib Ərdoğanın ölkəyə rəhbərlik etdiyi illərdə ərsəyə gəlmiş qız qardaşlarımızdır. Kimsə düşünə bilər ki, bu fakt möhtəşəm seçki prosesində kiçik detaldır. Ancaq Avropanın böyük siyasətçilərindən olan Uinston Çörçill deyibmiş ki, müharibədə, mübarizədə, siyasətdə və hətta seçkilərdə kiçik detallar olmur. Hər bir detal əhəmiyyətlidir.

***İttifaq MİRZƏBƏYLİ, "Xalq qəzeti"***

**Azərbaycan müstəqillik illərində bir çox beynəlxalq təşkilatlarla, eləcə də onlarda təmsil olunan ölkələrlə sıx münasibətlər qurub, siyasi, iqtisadi, ticari əlaqələr yaradıb. Ölkəmizin son illərdə həyata keçirdiyi xarici siyasətin prioritetlərindən biri də məhz bu cür təşkilatlarla əlaqələri, qarşılıqlı faydalı əməkdaşlığı gücləndirmək, eləcə də qarşılıqlı təhlükəsizlik maraqlarını təmin etməkdir. Bu sırada Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və s. kimi beynəlxalq təşkilatların adlarını çəkə bilərik. Amma dünya daha böyükdür və indiyədək qoşulmadığımız, yaxud yeni yaranan təşkilatlara da maraq göstərməyimiz səmərəsiz olmazdı.**

# Azərbaycan ŞƏT-ə üzvlüklə bağlı ciddi dəyərləndirmələr aparır



Məsələn, son illərdə ölkəmizin Qoşulmama Hərəkatı (QH) çərçivəsində olduqca səmərəli fəaliyyəti ayrıca qeyd edilə bilər. Bu fəaliyyət, bir tərəfdən QH-nin güclənməsinə, monolitləşməsinə kömək edirsə, digər tərəfdən də, Azərbaycanın özünün təhlükəsizliyinin, suverenliyinin qorunmasında mühüm rol oynayır.

Son illərdə ölkəmiz daha bir təşkilatla əməkdaşlığa xüsusi önəm verməkdədir. Bu, Şanxay Əməkdaşlıq Təşkilatıdır (ŞƏT). Bu, yeni yaranmış bir qurumdur, 2001-ci ildə Şanxayda təsis olunub, cəmi 22 yaşı var. Tərkibində Azərbaycana dost olan Qazaxıstan, Çin, Qırğızıstan, Rusiya, Özbəkistan və Tacikistan kimi ölkələr birləşib. Hazırda təşkilatın 9 üzvü (Qazaxıstan, Çin, Rusiya, Qırğızıstan, Özbəkistan, Tacikistan, Pakistan, Hindistan, İran), 3 müşahidəçi üzvü (Əfqanıstan, Monqolustan, Belarus) və 9 dialoq tərəfdaşı (Azərbaycan, Türkiyə, Şri-Lanka, Kamboca, Nepal, Ermənistan, Misir, Qətər, Səudiyyə Ərəbistanı) var.

Təşkilatın əsas məqsədləri üzv dövlətlər arasında qarşılıqlı etimad və qonşuluq münasibətlərinin gücləndirilməsi, siyasət, ticarət və iqtisadiyyat, elm, texnologiya, mədəniyyət, o cümlədən təhsil, enerji, nəqliyyat, turizm, ətraf mühitin qorunması və digər sahələrdə effektiv əməkdaşlığın inkişaf etdirilməsi, regionda sülh, təhlükəsizlik və sabitliyin əldə edilməsi üçün birgə səylərin göstərilməsi, yeni siyasi və iqtisadi beynəlxalq düzənin yaradılması üçün addımların atılmasıdır.

Azərbaycan Prezidenti İlham Əliyev bu ilin 15-16 sentyabrında Özbəkistanın Səmərqənd şəhərində keçirilmiş ŞƏT ölkələri liderlərinin növbəti zirvə toplantısında fəxri qonaq qismində iştirak edib. Azərbaycan liderinin Səmərqənd zirvəsində iştirakından sonra ölkəmizin təşkilata üzvlüyü məsələsi yenidən gündəmə gəlib.

Şübhəsiz ki, təşkilatda ölkəmizin mühüm siyasi və iqtisadi tərəfdaşlarının olması Azərbaycanı üzvlüyə cəlb edən şərtlərdən biridir. Hazırda təşkilata üzv olan bir çox ölkələrlə Azərbaycanın çox sıx siyasi, iqtisadi əlaqələri mövcuddur. Eyni zamanda, təşkilatın qarşısına qoyduğu məqsədlər, xüsusilə təhlükəsizliklə bağlı birgə səylər göstərilməsi məsələsi də cəlbedicidir.

Prezident İlham Əliyev Zirvə görüşündə iştirakdan məmnun olduğunu bəyan etdi və üzv ölkələrə Azərbaycanın malik olduğu siyasi, iqtisadi, xüsusən nəqliyyat arteriyası haqqında ətraflı məlumat verdi. Zənnimizcə, bu çıxış üzv ölkələri də Azərbaycanı öz sıralarına qəbul etməyə kifayət qədər həvəsləndirmiş oldu. Dövlətimizin başçısı bildirdi: "Mən həmkarlarıma Azərbaycanın tranzit və nəqliyyat-logistika imkanları barədə məlumat vermək istərdim. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri kimi regional kommunikasiya layihələrinin işə düşməsinə sanballı töhfələr verib. Hazırda Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ildə 15 milyon ton yükaşırma qabiliyyətinə malikdir və bu, ildə 25 milyon tona qədər artırıla bilər. Azərbaycan 52 gəmi ilə Xəzər dənizində ən böyük mülki yük donanmasına malikdir. Bakı gəmiqayırma zavodu bütün növ gəmilər istehsal edə bilir… 2020-ci ilin sonunda Qarabağ münaqişəsinin həlli regionumuzda nəqliyyat-kommunikasiya layihələrinin inkişafı üçün yeni imkanlar yaradıb. Zəngəzur dəhlizi açıldıqdan sonra bu, region ölkələrinin nəqliyyat imkanlarını daha da artıracaq və marşrut boyu yerləşən bütün ölkələr üçün faydalı olacaqdır".

Hazırda Azərbaycanda ümumi fikir belədir ki, ŞƏT-ə qoşulmaq mümkündür. Politoloq, Azərbaycanın sabiq XİN başçısı Tofiq Zülfüqarov da hesab edir ki, Azərbaycanın Səmərqənd Zirvəsində qonaq qismində iştirakından sonra hökumət üzvlük barəsində ciddi şəkildə fikirləşir. Amma hələ dəyərləndirmə prosesi gedir. Azərbaycanın bu təşkilata üzvlüyünün faydalı olub-olmaması qiymətləndirilir.

T.Zülfüqarov deyib: "Biz görürük ki, hazırda Şanxay Əməkdaşlıq Təşkilatı çox vacib quruma çevrilir. Orada Çin, Hindistan və Pakistanın fəallığı görünür. Potensial üzv ola biləcək ölkələrin bir-birinə olan yaxşı münasibətləri Azərbaycanın bu təşkilata üzvlüyünün faydalı ola biləcəyini göstərir. Orada bəzi siyasi məqsədlərlə yanaşı, çox ciddi iqtisadi məqsədlər də mövcuddur. Üzv ölkələr arasında qarşılıqlı şəkildə iqtisadi güzəştlər tətbiq olunur. Bu da çox yaxşı fürsətdir. Ancaq bu məsələni iqtisadi və siyasi cəhətdən çox ciddi dəyərləndirmək lazımdır".

Yəqin ki, ölkəmiz bu dəyərləndirmələr nəticəsində ən vacib olan qərarı qəbul edəcək.

***Paşa ƏMİRCANOV, "Xalq qəzeti"***

# Qardaş Türkiyə hərtərəfli yüksəliş dövrünü yaşayır

**Azərbaycan–Türkiyə münasibətləri son 20 ildə ən yüksək səviyyəyə, strateji müttəfiqlik mərhələsinə yüksəlib. Əlaqələrin genişlənməsində prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın əvəzsiz rolu olub. Dövlət başçıları tərəfindən ortaq dəyərlərə əsaslanılaraq əməkdaşlığın möhkəmlənməsi üçün yorulmaz səy göstərilib. Hər iki siyasi liderin həyata keçirdiyi uzaqgörən, müdrik siyasət nəticəsində ölkələrimizin regional və qlobal səviyyədə siyasi mövqeləri, təsir imkanları davamlı şəkildə güclənib.**




İki ölkə arasındakı münasibətlər siyasi sahə ilə yanaşı, iqtisadi sektorda da özünü qabarıq büruzə verib. Son 20 ildə Azərbaycanla Türkiyə arasında ticarət həcmi sürətlə artıb, qoyulan investisiya həcmi isə milyardlarla dollar təşkil edib. Respublikamızda bank və sığorta, telekommunikasiya, inşaat, nəqliyyat, yüngül sənaye, qida, enerji türk şirkətlərinin fəaliyyət göstərdikləri başlıca sahələr olaraq diqqət çəkib. Azərbaycan da Türkiyə iqtisadiyyatına ən çox investisiya qoyan ölkələrdən biri kimi tanınıb.

Ötən müddətdə Türkiyə iqtisadiyyatında nəzərə çarpan volatilliyə, məzənnə enişlərinə və inflyasiyaya baxmayaraq, qardaş ölkə iqtisadiyyatı real ifadədə 3 dəfə böyüyüb. Belə ki, 2003-cü ildə 314 milyard dollar ÜDM-ə malik olan Türkiyə iqtisadiyyatı hazırda 900 milyard dolları keçib. Beynəlxalq Valyuta Fondunun hesablamalarına görə, bu il Türkiyədə ÜDM-in 1 trilyon 29 milyard dollara çatması proqnozlaşdırılıb.

Onu da qeyd edək ki, Türkiyə Rəcəb Tayyib Ərdoğan hakimiyyətinə qədər daha çox aqrar və xidmət sektorları üzrə ixtisaslaşmışdırsa, indi ölkə müasir sənaye dövlətinə çevrilməkdədir. Türkiyə hazırda hərbi, avtomobil sənayesində xüsusi üstünlüyə malik ölkə kimi diqqət çəkir.

Rəcəb Tayyib Ərdoğanın hakimiyyəti dövründə Türkiyənin sürətli inkişafı haqqında aydın təsəvvür yaranması məqsədilə bir neçə məqama da nəzər salmaq istərdik. Məsələn, təhsil sahəsində 10,3 milyard türk lirəsi olan illik büdcə 304 milyard türk lirəsindən çox artırılıb. Ümumi daxili məhsul 238 milyard ABŞ dollarından 1 trilyon ABŞ dollarına, satınalma gücü nisbətinə görə isə Türkiyə dünyanın ən böyük 11-ci, Avropanın 4-cü iqtisadiyyatı səviyyəsinə yüksəlib, ixracat 36 milyard dollardan 250 milyard dollara qədər artırılıb, dünyanın 228 ölkə və bölgəsinə ixracat həyata keçirilməyə başlanıb.

Rəcəb Tayyib Ərdoğanın iqtidarı dövründən başlayaraq Türkiyədə iqtisadi sahədə inqilabi addımlar atılıb. Məsələn, 1460 kilometr uzunluğunda sürət qatarı şəbəkəsi tikilib, hava limanlarının sayı 26-dan 57-yə, dəniz limanlarının sayı 37-dən 84-ə çatdırılıb. Ölkədə su anbarlarının sayı 276-dan 930-a, su elektrik stansiyalarının sayı 97-dən 730-a, içməli su mənbələrinin sayı 84-dən 370-ə və suvarma şəbəkələrinin sayı isə 1764-dən 3325-ə yüksəldilib.

Qardaş ölkənin xarici ticarət potensialı 500 milyard dollara çatdırılıb. Müdafiə sənayesi üzrə Türkiyə öz tələbatını qarşılamaqdan başqa, İHA, SİHA, Akıncı, quru vasitələri, dəniz platformaları başda olmaqla, 170 ölkəyə müdafiə sənayesi məhsulları ixrac edən bir ölkə səviyyəsinə yüksəlib, sənaye və texnologiya istiqamətində qurulan 152 yeni mütəşəkkil sənaye zonası, 29 sənaye zonası və 94 texnoparkla ölkənin istehsal gücü artırılıb, yerli avtomobil TOGG-un istehsalına başlanıb.

Son 20 il ərzində Azərbaycanın Türkiyə ilə ticarət əməkdaşlığında da yüksək göstəricilər nəzərə çarpıb. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, cari ilin yanvar-fevral aylarında ölkəmizin xarici ticarət dövriyəsinin 12,5 faizi Türkiyə ilə aparılmış ticarət əməliyyatlarının payına düşüb. İxracın 12,3 faizini Türkiyəyə göndərilmiş məhsulların dəyəri təşkil edib.

Onu da xatırladaq ki, cari ilin yanvar-fevral ayları ərzində Azərbaycanın Türkiyəyə qeyri-neft ixracı 78,7 faiz artaraq 273,9 milyon ABŞ dolları təşkil edib. Yalnız fevral ayında qardaş ölkəyə ixracın dəyəri 2 dəfə artaraq 167,2 milyon ABŞ dolları səviyyəsinə çatıb. Adıçəkilən ixrac dəyərinin əhəmiyyətli artımının əsas səbəbi elektrik enerjisi ilə əlaqədardır.

Qara Dənizdə 540 milyard kubmetr təbii qaz ehtiyatının kəşfi ilə Türkiyənin enerji tələbatının mühüm bir hissəsinin yerli potensial hesabına təminatı reallaşıb. Eyni zamanda, qardaş ölkə hazırda TANAP və TAP kəmərləri vasitəsilə Azərbaycan qazının Avropaya çatdırılmasındakı səmərəli fəaliyyəti ilə beynəlxalq enerji təhlükəsizliyinə öz töhfəsini gerçəkləşdirib.

***V.BAYRAMOV, "Xalq qəzeti"***

*Zərifə Əliyeva – 100*

# Görkəmli akademikin xatirəsi ehtiramla anılır



**Aprelin 19-da Azərbaycan Milli Elmlər Akademiyası və Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə akademik Zərifə Əliyevanın anadan olmasının 100 illik yubileyinə həsr edilmiş "Görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyeva: həkimlik andı və vətəndaş missiyası" mövzusunda yubiley tədbiri keçirilib.**

Azərbaycan oftalmologiya elminin inkişafında böyük xidmətləri olmuş Zərifə Əliyevaya həsr edilmiş tədbirlərin yeni nəsil həkimlərin və elmi kadrların hazırlanması işinə də öz töhfəsini verdiyini deyən AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli bugünkü yığıncaqda alimin davamçılarının da iştirak etdiyini diqqətə çatdırıb.






"Zərifə xanım Əliyevanın həkimlik peşəsinə başladığı ötən əsrin 70-ci illərində Azərbaycanda göz xəstəlikləri üzrə müalicə digər sahələrlə müqayisədə bir qədər geri qalırdı. Məhz Zərifə xanım Əliyeva və onun ətrafında birləşən həkimlərin, mütəxəssislərin birgə səyləri ilə bu gerilik aradan qaldırılmışdır.

Zərifə xanım Əliyevanın traxomaya həsr olunmuş dissertasiyası Azərbaycanın müxtəlif bölgələrində göz xəstəliklərinə aid apardığı müşahidələr, eksperimentlər, topladığı materiallar əsasında hazırlanmışdır", – deyə akademik İsa Həbibbəyli bildirib.

Zərifə Əliyevanın 1979-cu ildə Azərbaycan SSR EA-nın akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunda SSRİ-də ilk dəfə olaraq Görmə orqanının fiziologiyası və peşə patologiyası laboratoriyasını yaratdığını bildirən AMEA rəhbəri qeyd edib ki, alim daha çox tərcübi xarakter daşıyan göz xəstəlikləri elminə öz fundamental dəstəyini vermiş, AMEA-nın həqiqi üzvü seçilmişdir.

Elm fədaisi, Azərbaycan tibb elminin ən parlaq və tanınmış simalarından olan Zərifə Əliyevaya həsr olunmuş tədbirin məhz elm məbədində – Azərbaycan Milli Elmlər Akademiyasında qeyd edilməsini rəmzi və qürurverici hadisə kimi qiymətləndirən səhiyyə naziri Teymur Musayev bu yubiley tədbirinin görkəmli oftalmoloq-alimə, onun elmi irsinə dövlətin, xalqın, elmi ictimaiyyətin sonsuz ehtiramının ifadəsi olduğunu söyləyib. Nazir akademik Zərifə Əliyevanın SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülən ilk qadın alim olduğunu xatırladıb.

Sonra Xalq rəssamı, akademik Ömər Eldarov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova və başqaları akademik Zərifə Əliyevanın insanlara nur və həyat bəxş edən zəngin həyatından söz açıblar.

*

Dünən akademik Zərifə Əliyevanın anadan olmasının 100 illiyi münasibətilə Ədliyyə Nazirliyi Tibb baş idarəsinin təşkilatçılığı ilə "Zirvələrə yüksələn zərif insan ömrü" mövzusunda konfrans keçirilib.

Konfransda akademik Zərifə Əliyevanın həyat və fəaliyyətinə, nurlu xatirəsinə işıq salınaraq tibb elminin inkişafında əvəzsiz xidmətləri qeyd olunub, mənalı ömür yoluna həsr olunan film nümayiş etdirilib.

Çıxış edən Milli Məclisin Səhiyyə komitəsinin sədri, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Əhliman Əmiraslanov bütün insanlar üçün örnək olan Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanımın gözəl və təvazökar insan, istedadlı mütəxəssis-alim kimi yetişməsində ailə mühitinin son dərəcə mühüm rol oynadığını qeyd edib və görkəmli oftalmoloqun Azərbaycan elmini dünyada təmsil edən çox böyük şəxsiyyətlərdən olduğunu vurğulayıb.

Ədliyyə Nazirliyi Tibb baş idarəsinin rəisi Rafail Mehdiyev görkəmli oftalmoloq-alimin gözün traxoması, eləcə də professional xəstəliklərinin müalicəsi və profilaktikasında əldə etdiyi nailiyyətlərdən ətraflı bəhs edib, böyük nəsil həkim-oftalmoloqlar yetişdirmiş, insanlara nur və həyat bəxş edən Zərifə xanımın əziz xatirəsinin Azərbaycan xalqının qəlbində daim yaşayacağını vurğulayıb.

Sonra Milli Məclisin deputatı Məlahət İbrahimqızı, Tibb Universitetinin Oftalmologiya kafedrasının müdiri Paşa Qəlbinur, Milli Oftalmologiya Mərkəzinin bölmə rəhbəri Yazgül Abdiyeva çıxış ediblər.

Konfransda görkəmli alimin peşəkar oftalmoloq-həkim kimi fədakarlığından, sanballı tədqiqatları ilə tibb elminin inkişafına mühüm töhfələrindən və yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasında əvəzsiz rolundan danışılıb. Zərif və nəcib insan Zərifə Əliyevanın yüksək mənəvi keyfiyyətləri, səmimiliyi və humanistliyi, ailəcanlılığı və insanlara qayğıkeş münasibəti ilə ürəkləri fəth etdiyi vurğulanıb.

Sonra tədbir Zərifə Əliyevanın əziz xatirəsinə həsr olunan bədii hissə ilə davam edib.

*

Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda akademik Zərifə xanım Əliyevanın 100 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktiki konfrans keçirilib.

Konfransda Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru professor Nazim Qasımov qeyd edib ki, Z.Əliyeva 1960-cı illərdə dünya təcrübəsində birincilər sırasında görmə üzvünün peşə xəstəlikləri problemi üzrə geniş elmi axtarışlara başlamışdır.

Bu problem üzrə Z.Əliyevanın elmi tədqiqatlarının nəticələri haqda dərc olunmuş 30-dan çox elmi işdə tetraxloretilen, pestisid, stirol buxarlarının orqanizmə xroniki təsiri zamanı görmə üzvünün və onun funksiyalarının vəziyyəti əks etdirilir. Bu tədqiqatlar zərərlərin patogen təsirinin biokimyəvi mexanizminin bir çox tərəflərini aydınlaşdırmağa imkan verib və 1976-cı ildə Z.Əliyeva "Azərbaycanda kimya sənayesinin bəzi müəssisələrində işçilərin görmə üzvünün vəziyyəti" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib. Onun çox istiqamətli elmi yaradıcılığı 12 monoqrafiya, 150-yə yaxın elmi iş, bir ixtira və 12 səmərələşdirici təklifdə öz əksini tapır.

Çıxışının sonunda rektor, professor Nazim Qasımov vurğulayıb ki, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun professor-müəllim heyəti minnətdarlıqla hisslə Z.Ə.Əliyevanı yad edir, onun xatirəsi qarşısında baş əyir. O, öz yaradıcılıq enerjisi ilə instituta hərarət verib və sonrakı inkişafını müəyyən edib.

Sonra səhiyyə nazirinin müavini professor İlqar Qasımov, institutun Oftalmologiya kafedrasının professoru Rasim Hacıyev, Azərbaycan Milli Məclisinin deputatı İlham Məmmədov və başqaları akademik Zərifə xanım Əliyevanın elmi-pedaqoji nailiyyətlərindən danışıblar.

Konfrans öz işini iki gün ərzində bölmə iclaslarında davam edəcək.

*Mir Cəlal Paşayev - 115*



# Unudulmaz ədib Gəncədə və Qazaxda hörmətlə yad edildi

**Bakı Dövlət Universitetinin (BDU) professor-müəllim heyəti Mir Cəlal Paşayevin 115 illik yubileyinə həsr olunmuş tədbirlər çərçivəsində görkəmli ədibin Gəncə şəhərində yerləşən ev-muzeyini ziyarət edib.**



BDU-nun rektoru Elçin Babayev görkəmli alim, pedaqoq Mir Cəlal Paşayevin xatirəsini özündə yaşadan bu muzeyi ziyarət etməyin mənəvi borc olduğunu bildirib.

"BDU-nun nüfuzlu professoru, sevimli müəllimi kimi xatirələrdə daim yaşayan Mir Cəlal müəllim həqiqət, düzlük, səmimiyyət aşiqi, ailəsini, övladlarını, tələbələrini sevən, qoruyan şəxsiyyət olub. Onun bu kəlamı indi də dillər əzbəridir: "Həyatımda yaratdığım ən böyük əsər ailəmdir". Bu, Mir Cəlal müəllimin ailəsinə, övladlarına olan məhəbbətinin təzahürü idi", - deyə o əlavə edib.

ADA Universitetinin rektoru Hafiz Paşayev Mir Cəlal irsinin öyrənilməsi və təbliği istiqamətində BDU-nun təşəbbüsünü alqışladığını, tələbələrin də bu işdə yaxından iştirak etdiyini məmnunluqla bildirib. Hafiz Paşayev qeyd edib ki, Mir Cəlalın ailəsi həm də Bakı Dövlət Universiteti, buradakı minlərlə tələbəsi idi.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Mir Cəlal Paşayevin ədəbi irsinin bütün nəsillər üçün əsl məktəb olduğunu vurğulayıb.

Daha sonra BDU-nun tələbələri arasında böyük yazıçı və alimin 115 illik yubileyi münasibətilə elan edilmiş qısa hekayə müsabiqəsinin nəticələri elan olunub.

BDU-nun nümayəndə heyəti Mir Cəlal Paşayev adına 39 nömrəli tam orta məktəbdə də olub. "Bestcomp" şirkətinin dəstəyi ilə alınan kompüter dəsti təhsil ocağına hədiyyə edilib.

*

Bakı Dövlət Universitetinin (BDU) təşkilatçılığı ilə görkəmli yazıçı, ədəbiyyatşünas alim və pedaqoq Mir Cəlal Paşayevin 115 illik yubileyinə həsr olunmuş tədbirlər çərçivəsində Qazax Müəllimlər Seminariyasında da görüş keçirilib.

Görüşdə seminariyanın baş məsləhətçisi Yeganə Göyüşlü bildirib ki, ADA Universiteti 2021-ci ilin may ayında "Bir müəllimin manifesti" adlı layihə təşəbbüsü ilə çıxış edərək, milli təhsil sistemimizin başlanğıcı olan Qazax Müəllimlər Seminariyasının təlim-tədris ənənələrini yaşatmaq üçün onun tarixi binasının bərpasını və təhsil missiyasını yerinə yetirib.

BDU-nun rektoru Elçin Babayev seminariyanın müasir görkəm almasında böyük rol oynadığına görə ADA Universitetinin rektoru, professor Hafiz Paşayevə minnətdarlığını bildirib. Rektor diqqətə çatdırıb ki, professor Hafiz Paşayevin rəhbərliyi ilə Qazax Müəllimlər Seminariyasının tarixi binasının bərpası, 1918-1920-ci illərdə çap edilmiş "Azərbaycan" qəzeti və XIX əsrin axırlarında işıq üzü görmüş iki hissədən ibarət "Vətən dili" dərsliyinin latın qrafikasında nəşrləri, "Bir müəllimin manifesti" kimi dəyərli layihələr milli-mənəvi dəyərlərimizin qorunmasına və təbliğinə xidmət edir. Əsası Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulmuş Qazax Müəllimlər Seminariyası bu gün artıq müasir dövrün tələblərinə cavab verən təhsil mərkəzinə çevrilib.

ADA Universitetinin rektoru Hafiz Paşayev Qazax Müəllimlər Seminariyasının bərpasının Azərbaycan təhsilinin inkişafına xidmət edəcəyini bildirib və bu istiqamətdə BDU ilə birgə əməkdaşlıq layihələrinin keçiriləcəyini vurğulayıb.

Tədbirin sonunda BDU tələbələrinin ifasında Mir Cəlal Paşayevin "Müalicə" hekayəsindən səhnəcik və universitetin Mədəniyyət-yaradıcılıq Mərkəzinin tədqimatında ədəbi-bədii kompozisiya nümayiş olunub.


## "SUMQAYIT SANTEXNİK HİSSƏ" ASC səhmdarlarının nəzərinə!

"Sumqayıt Santexnik Hissə" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 3 iyun 2023-cü il saat 10.00-da Sumqayıt şəhəri, Metallurqlar küçəsi 4 nömrəli ünvanda keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Cəmiyyətin 2022-ci il ərzində gördüyü işlər və qarşıda duran məsələlər barədə idarə heyətinin illik hesabatı.

2. Cəmiyyətin 2022-ci il üzrə maliyyə-təsərrüfat fəaliyyəti haqqında hesabat və 2022-ci ilin balansının təsdiq edilməsi.

3. Digər məsələlər.

Ünvan – Sumqayıt şəhəri, Metallurqlar küçəsi 4.

***İdarə heyəti***


# Azərbaycanlı alim Baburun 540 illiyinə həsr olunmuş konfransda iştirak edib

**TÜRKSOY, Özbəkistan Mədəniyyət Nazirliyi və Kokand Universiteti bu qədim şəhərdə böyük özbək şairi və fateh Zəhirəddin Məhəmməd Babur 540 illiyinə həsr olunan elmi-praktik konfrans keçirib.**



Özbəkistandan başqa Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstanın baburşünas alimlərinin qatıldığı tədbirdə ölkəmizi Bakı Dövlət Universitetindəki Türkoloji araşdırmalar mərkəzinin müdiri, professor Ramiz Əskər təmsil edib.

Tədbiri Kokand Universitetinin rektoru, professor Qafurjon Zahidov açaraq Zəhirəddin Məhəmməd Baburu dövlət xadimi və şair kimi xarakterizə edib.

İki gün davam edən konfransda Zəhirəddin Məhəmməd Baburun dövlət xadimi kimi fəaliyyəti və yaradıcılığı ilə bağlı 20-yə yaxın məruzə dinlənilib.

Ramiz Əskər konfransda "Baburnamə" əsərində baburilər və səfəvilər arasında münasibətlər" mövzusunda məruzə edib.

Məruzədə bildirilir ki, Babur və Şah İsmayıl Xətai arasında sıx əlaqələr olub. Şah İsmayıl Babura siyasi və hərbi yardım göstərib, onun hakimiyyətinin möhkəmlənməsinə kömək edib. Bu münasibətlər sonralar onların övladları arasında da davam edib.

Konfrans çərçivəsində Ramiz Əskər Babur adına Universitetin fəxri doktoru adına layiq görülüb.

Xatırladırıq ki, ötən il Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin fərmanı ilə Ramiz Əskər ölkələrimiz arasında mədəni əlaqələrin inkişafına verdiyi töhfələrə görə "Dostluq" ordeninə layiq görülüb.

***Qulu KƏNGƏRLİ***

**Kokand**


## "Bakı Ofset Kombinatı" ASC səhmdarlarının nəzərinə!

22 iyun 2023-cü il saat 10.00-da Bakı şəhəri, Nəsimi rayonu, A.Məhərrəmov küçəsi 4 nömrəli ünvanda "Bakı Ofset Kombinatı" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2022-ci il üzrə cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinin müzakirəsi və təsdiqi.

2. Digər məsələlər.

Əlaqə telefonu- (050-209-29-15).

## "Kürdəmir Taxıl" ASC səhmdarlarının nəzərinə!

23 iyun 2023-cü il saat 11.00-da Kürdəmir şəhəri, Bakı prospekti 6 nömrəli ünvanda "Kürdəmir Taxıl" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1.2022-ci il üzrə cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinin müzakirəsi və təsdiqi.

2.Digər məsələlər.

Əlaqə telefonu- (070) 313-99-62.

*Sağlamlıq guşəsi*

## Açıq havada öskürmək faydalıdır

***Pediatrların fikrincə, evdə öskürməyən uşağın gəzinti zamanı öskürməsini müsbət hal kimi dəyərləndirmək olar. Belə ki, öskürək soyuq havanın bədənə daxil olması, burun və ya ağızla nəfəs alması zamanı baş verir. Bu yuxarı tənəffüs yollarında seliyin nəmləndirilməsinə kömək edir.***



Sərin hava tənəffüs edildikdə, ağciyərlərə yerləşmiş selik nəmlənir, bundan sonra uşaqlar öskürməyə başlayır.

Məhz belə öskürək refleksi uşaqların sağlamlığı üçün faydalıdır. Çünki bu vəziyyət ağciyərlərin yığılmış selikdən təmizlənməsini təmin edir. Əsas odur ki, öskürən uşağı dərhal küçədən evə aparmamalısınız, ona boğazını təmizləmək üçün imkan vermək lazımdır.

Fakt budur ki, havada nəmlənmiş selik şişir, ağciyərlərdə onun həcmi artır. Körpəni çox tez isti otağa köçürmək onun vəziyyətini daha da pisləşdirə bilər, çünki nəfəs alması çətinləşəcək.

## Meyvə-tərəvəz qabığı

***Dietoloqlar bildirirlər ki, meyvə və tərəvəzlərin bəzilərini qabıqla yemək daha faydalıdır.***

**Badımcan** qabığında qocalma prosesini ləngidən, dərinin sağlamlığına və görünüşünə müsbət təsir göstərən güclü antioksidant olan nasunin var.

**Kartof** qabığının tərkibi faydalı vitamin və minerallarla zəngindir. Buna görə də kartofu daha tez-tez sobada bişirmək və ya qaynatmaq məsləhətdir.

**Xiyar** qabığı immunitet sistemini stimullaşdıran və həzm sisteminin səmərəliliyini artıran lif və antioksidantlarla zəngindir.

**Alma** qabığındakı maddələr isə xərçəng əleyhinə təsirlidir.

## 3 vacib qida

***İnsanların gündəlik həyat tərzindən asılı olmayaraq, bəzi qəlyanaltılar orqanizm üçün faydalı ola bilər. Hər gün 3 faydalı qidanı yesəniz, orqanizmə xeyrini görərsiniz.***

İmmun sistemini normallaşdıran qidalar hansılardır?

**Kökdə** A, C, D vitaminləri var. Bundan başqa, digər faydalı elementlər də çoxdur: yod, dəmir, kalsium, karoten. Tərkibindəki



yüksək su sayəsində yerkökü bədəndə maye balansını bərpa etməyə kömək edir və tərəvəzin müntəzəm istifadəsi sızanaqlarla mübarizə aparır, görmə qabiliyyətini yaxşılaşdırır və saçları gücləndirir.

**Alma** yesəniz, insult riskini 20 faiz azaltmaqla yanaşı, bir çox xərçəng növlərinin inkişafının da qarşısını almış olarsınız. Meyvə həm də qaraciyəri təmizləməyə kömək edir və öd kisəsində daş əmələ gəlməsinin qarşısını alır.

**Qozun** əsas üstünlüyü tərkibində Omega -3 və E vitamininin yüksək olmasıdır. Qoz xolesterolu azaldacaq və bağırsaq mikroflorasını yaxşılaşdıracaq. O, həmçinin diqqəti, yaddaşı və performansı artırır.

## Qocalmanın qarşısı alınacaq



***Elə məhsullar var ki, orqanizmin qocalmasının qarşısını almaqla yanaşı, insanın gənclik və gözəlliklərini qoruyur. Pəhriz həkimlərinin fikrincə, nəinki ən çox yeyilən alma, hətta digər məhsullar bu prosesdə böyük rol oynayır. Alma vitamin və antioksidantlarla yanaşı, liflə də zəngindir ki, bunlar da qocalmanı ləngidən maddələrdir.***

Liflə zəngin, fermentləşdirilmiş qidalar bir sıra xəstəliklərin inkişafı riskini azalda bilər. Ən əsas bağırsaqlara qulluq edilməlidir. Mikroflorada zərərli bakteriyalar, iltihab olmamalıdır. İmmunitet sisteminin işi və bütövlükdə orqanizmin vəziyyəti bundan asılıdır. Buna faydalı vitaminlər və liflə zəngin olan təzə tərəvəz və meyvələrin nisbətini artırmaqla nail olmaq olar. Araşdırmalar göstərib ki, qida rasionuna gündə 25 qram lif daxil edilsə ürək-damar xəstəlikləri, diabet və kolon xərçəngi riski 30 faiz azalar.

Bundan əlavə, fermentasiya yolu ilə əldə edilən məhsullar – duzlu kələm, turş alma, qarpız və digər turşular gəncliyin qorunması üçün faydalıdır.

***Z.BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***

# Yerəbənzər planetdən radiosiqnallar…

**Maqnit sahəsi Yer kürəsi və onun üzərindəki canlılar üçün çox mühüm rol oynayır. O bizi Günəş radiasiyasından qoruyur, iqlimə və havaya təsir edir. Bundan əlavə, maqnit sayəsində işləyən kompasın əqrəbləri şimala doğru yönəlir.**



Günəş sistemindəki digər planetlərin də maqnit sahələri var. Alimlər isə daha uzaq planetlərin bəzilərində belə sahələrin ola biləcəyini istisna etmirlər. Məsələn, Nyu-Mexikoda "Very Large Array" (VLA) radio teleskoplarından istifadə edilən son müşahidələr Yerdən, təxminən, 12 işıq ili uzaqlıqda bir ulduzun ətrafında fırlanan qayalı ekzoplanet "YZ Ceti b"də maqnit sahəsinin olduğunu sübut edib.

"Nature Astronomy" jurnalında dərc olunan araşdırmaya görə, Günəş sistemindən kənarda olan bu planetdə maqnit sahəsinin ilk aşkarlanmasıdır. Milli Radio Astronomiya Rəsədxanasının direktoru, tədqiqat müəllifi Co Peske "Araşdırma təkcə bu xüsusi ekzoplanetin maqnit sahəsinə malik olduğunu göstərmir, həm də alimlərə maqnit sahəsi olan daha çox planet tapmaq üçün perspektivli üsul təqdim edir", – deyə bildirib.

Alimlərin fikrincə, maqnit sahəsi olmayan planetdə məskunlaşmaq olmaz: belə bir sahə yoxdursa, Günəşdən gələn enerji hissəcikləri planetin atmosferini məhv edə bilər. Peske sonra əlavə edib ki, digər sistemlərdə yaşayış üçün əlverişli olan planetlərin tapılması qismən Yerə bənzər ekzoplanetlərin, həqiqətən, maqnit sahələrinə malik olub-olmadığını müəyyən etməkdən asılıdır.

"YZ Ceti b" yaşayış üçün əlverişli deyil. Belə ki, o, öz ulduzuna çox yaxındır. Üstəlik, orbital sürət o qədər yüksəkdir ki, bu planetin bir ili Yerdəki iki günə bərabərdir. Buna baxmayaraq, elm adamları bu planetin maqnit sahəsindən gələn radiodalğaları aşkar edə biliblər. Alimlər bildirirlər ki, planetin maqnit sahəsi elektrik yüklü plazmanı öz ulduzuna doğru geri itələyir. Daha sonra ulduzun öz maqnit sahəsi ilə qarşılıqlı təmasda olaraq parlaq enerji partlayışları yaradır.

Əslində, komandanın müşahidə etdiyi radiodalğalar, çox güman ki, planetlə qarşılıqlı təsir nəticəsində yaranan ulduzdakı qütb işıqları idi.

Kolorado Universitetinin astronomu və yeni tədqiqatın həmmüəlliflərindən olan Sebastian Pineda qeyd edir ki, bu planetin öz atmosferi varsa, onun qütbü də olmalıdır.

***Səadət RZAYEVA,***
***"Xalq qəzeti"***

# Süni zəka opera ifa edəcək

**Dünya opera tarixində vokal ifaçıları ilə yanaşı, süni zəka (AI) maşınları da ilk dəfə səhnədə çıxış edəcək.**



Drezden Opera Teatrının ərsəyə gətirdiyi əsər süni intellektin (AI) ifasında operasevərlərə təqdim olunacaq. Yeddi hissəli operanın səhnələrindən birində süni zəka maşınının təkbaşına ifa edəcəyi, digərlərində isə opera ifaçılarının da öz ifaları ilə süni zəkaya dəstək olaraq opera səhnəsində möhtəşəm performans sərgiləyəcəkləri gözlənilir.

"Şəlalələri təqib etmək" adlı opera əsəri süni intellektin musiqinin və mətnin hissələrini canlı şəkildə ifa edəcəyi ilk opera olacaq. Baş rolda olan personaj süni intellekt tərəfindən idarə olunan 8 metrlik kinetik işıqlı heykəl kimi görünəcək. Bu süni zəka növü dünyada ilk dəfə mahnı bəstələmək, oxumaq və müxtəlif rollarda ifa etmək üçün yaradılıb.

Opera mütəxəssisləri qeyd edir ki, insanlar və robotlar arasındakı qarşılıqlı əlaqə olduqca valehedici təsir bağışlayır. Göydə rəqs edən işıq nöqtələri insanlara emosional olaraq toxunur. Biz bu işıq selinə qərq olmaya bilmirik və incəsənət sahəsində də yeni inkişaf mexanizmlərini bədii şəkildə anlamağa çalışırıq.

İncəsənət əsərləri yaratmaq üçün süni zəka tətbiqləri çoxalır. Bir sıra mütəxəssislər eyni yaradıcı yanaşmanın musiqiyə də tətbiq oluna biləcəyinə inanır

Opera əsərinin noyabrda Honq-Konqda keçiriləcək New Vision İncəsənət Festivalında nümayişi gözlənilir.

***Fidan HÜQUQQIZI,***
***"Xalq qəzeti"***

*Formula 1 həyəcanı*

# Dünya 7-ci dəfə Bakı trekini izləyəcək

**Auditoriyasına görə yalnız Olimpiya Oyunlarından və futbol üzrə dünya çempionatından geri qalan Formula 1-in Bakı mərhələsi yaxınlaşdıqca dünyanın diqqəti paytaxtımıza yönəlir. Doğma şəhər trası planetin ən sürətli maşınlarını növbəti dəfə sınaqdan keçirməyə hazırlaşır. Aprelin 28-30-da Bakı Şəhər Halqasında keçiriləcək, yüksək sürət və maksimum adrenalin bəxş edəcək yürüşü Formula 1 pilotları və azarkeşlər böyük həyəcanla gözləyirlər.**



Budəfəki yarışlara dünya miqyasında daha böyük marağın olması bir sıra faktlarda öz təsdiqini tapır. Belə ki, şəhər trasları arasında ən sürətli hesab olunan Bakı trekində sürət həyəcanına yaxın olmaq üçün paytaxtımıza daha çox ölkədən azarkeşlər təşrif buyuracaqlar.

Ötən ilin sonlarında Azərbaycan Prezidenti İlham Əliyev Formula 1 Qrupunun İdarə Heyətinin sədri və prezidenti Stefano Domenikalini və Formula 1 Qrupunun məsləhətçisi Flavio Briatoreni qəbul edərkən Formula 1 yarışlarının Azərbaycanda uğurla keçirilməsinin önəmi vurğulanmaqla yanaşı, yarışları seyr etmək üçün ölkəmizə xeyli sayda turistlərin gəlməsi də məmnunluqla qeyd olunub. Qurum rəsmiləri Bakı şəhər halqasının Formula 1 üzrə dünya çempionatının ən gözəl treklərindən biri olduğunu, bu yarışların keçirilməsi üçün Bakıda gözəl və müasir infrastrukturun yaradıldığını vurğulayıblar. Bakı şəhərinin gözəlliyinin, təmizliyinin və işıqlandırma sisteminin onlarda xoş təəssürat yaratdığını deyiblər.

Yarışları izləməyə gəlmiş tamaşaçılar da müsahibələrində təkcə avtomobil yürüşündən deyil, ölkəmizdə olmaqdan da böyük zövq aldıqlarını dönə-dönə qeyd ediblər. Təbii ki, onların hamısı yalnız avtomobil yarışlarına görə ölkəmizə gəlmir. Ötən illərdəkinə nisbətən xarici azarkeşlərin sayında böyük artımın olması, həm də ölkəmizə hədsiz maraqdan xəbər verir.

Azərbaycan Prezidenti İlham Əliyev Formula 1 yarışının ölkəmizə böyük iqtisadi dividendlər gətirdiyini də qeyd edib. Dövlətimizin başçısı bildirib ki, Formula 1 yarışını keçirən şəhərlər inkişaf etmiş ölkələrin ya paytaxt şəhərləri, ya da ki, böyük şəhərləridir. Onların arasında Bakı şəhərinin mövcudluğu bizim üçün böyük hadisədir.

Təbii ki, müasir infrastruktur, eləcə də son zamanlar yeni otellərin inşası, nəqliyyat sektorundakı yeniliklər, ictimai-iaşə obyektlərində xidmət səviyyəsinin getdikcə yüksəlməsi, yay turizmi ilə yanaşı, qış turizminin yaradılması ölkəmizin potensialını daha da artırır. Hesablamalara görə, Bakıda keçirilmiş ilk dörd yarış ölkə iqtisadiyyatına, ümumilikdə, 500 milyon dollardan çox gəlir gətirib.

Azərbaycanda ən yüksək səviyyədə keçirilən qlobal tədbirlər, irimiqyaslı idman yarışları ölkəmizi dünyanın beynəlxalq mərkəzlərindən biri kimi səciyyələndirir. Əsas məqamlardan biri isə Azərbaycanın dünyanın ən təhlükəsiz ölkələrindən biri kimi ad çıxarmasıdır ki, bu da dövlətimizin cəlbediciliyini artırır.

Formula 1-in təqribən yarım milyard nəfərlik auditoriyası üçün Bakı şəhər trekində yürüşü izləyərkən İçərişəhər boyunca uzanan əsrarəngiz qala divarları, Qız Qalası kimi UNESCO tərəfindən qorunan qədim tarixi abidələrlə də tanış olmaq imkanı yaranır. Təsəvvür edin, Formula 1 pilotlarını daima sınaq qarşısında qoyan ən dar döngəli Bakı treki, həm də şəhər trekləri arasında ən sürətlisi hesab olunur. Eyni zamanda, yüksək sürət, kəskin döngələr və ensiz hissələr dəqiq ustalıq tələb edir. "Küləklər şəhəri" kimi tanınan Bakı Formula 1 yarışını təkcə pilotlar üçün deyil, tamaşaçılar üçün də ən həyəcanlı avtomobil yürüşünə çevirir.

Yarışın sosial cəhətdən faydaları sırasında ölkəmizdə könüllülük institutunun inkişafında oynadığı mühüm rolu xüsusi vurğulamaq olar. Hər il minlərlə gəncin könüllülük, eləcə də marşallıq proqramı çərçivəsində hazırlığı, peşəkar və fərdi inkişafı Azərbaycanda insan kapitalına böyük töhfədir.

Bakı trekində keçirilən yarışın sürprizlərlə dolu olması onun maraqlılığını daha da artırır. Ötən 6 yarışın hər birində fərqli pilotun qalib gəlməsini bildirən termin "Bakı sindromu" builki yarışa da əlavə həyəcan qatacaq. Çünki indiyə qədər heç bir pilot Bakıda təkrar qalib ola bilməyib.

Beləliklə, dünyanın ən məşhur pilotlarının öz təbiri ilə desək – "insidentlərin çox olduğu", "divarların yaxın olmasının adrenalini artırdığı", "uzun birbaşa yol və çoxsaylı döngələr"lə zəngin, "fəal hücum etmək imkanı"na malik Bakı şəhər trekinin bəzi yerlərində "yüksək sürət yığandan sonra əyləci basmaq" elə də rahat deyil. Ümumi fikirlər isə bunu deyir: "Gözlənilməzə hazır ol" şüarı altında keçiriləcək Formula 1 Azərbaycan Qran-Prisi bu il də hədsiz həyəcan və bol sürprizlərlə bol olacaq!

***Leyla QURBANOVA,***
***"Xalq qəzeti"***

## HAVA PROQNOZU

✓ ***Aprelin 20-də***

✓ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, yağmursuz keçəcəyi gözlənilir. Əsasən səhər və axşam bəzi yerlərdə duman olacağı ehtimalı var. Cənub küləyi əsəcək, günün birinci yarısında arabir güclənəcək. Gecə 9-12°, gündüz 13-18° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunundan 755 mm civə sütununa enəcək, nisbi rütubət 65-75 faiz olacaq.

✓ **Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin günün ikinci yarısında bəzi yerlərdə arabir yağıntılı olacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 6-11°, gündüz 20-25° isti olacaq.

✓ **Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir az yağıntılı olacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 1-6°, gündüz 7-12°, bəzi yerlərdə 15° isti olacaq.

✓ **Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə arabir yağıntılı olacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 1-6°, gündüz 7-12°, bəzi yerlərdə 16° isti olacaq.

✓ **Qazax, Gəncə, Goranboy, Tərtər, Füzuli rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə arabir yağıntılı olacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 6-11°, gündüz 15-20°, bəzi yerlərdə 23° isti olacaq.

✓ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Mingəçevir, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yüksək dağlıq ərazilərdə arabir yağıntılı olacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək, bəzi şərq rayonlarında arabir güclənəcək. Gecə 5-10°, gündüz 14-19°, bəzi yerlərdə 22°dək, dağlarda gecə 0-5°, gündüz 12-17° isti olacaq.

✓ **Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında** əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 7-12°, gündüz 17-22°, bəzi yerlərdə 26°-dək isti olacaq.

✓ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Cəlilabad rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə arabir yağış yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 6-10°, gündüz 16-21°, dağlarda gecə 5-8°, gündüz 13-18° isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi ADA Universitetinin icraçı direktoru Fariz İsmayılzadəyə atası

**AKİF İSMAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Nizami Tibb Mərkəzinin direktoru Eldar Abbasov və Əməkdar jurnalist Elman Babayev Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin prezidenti İlqar Rəhimova atası

**ELXAN RƏHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5007
SİFARİŞ 969
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır
00:00